# Xalq qəzeti

Xalqın qəzeti!

№ 225 (30919) 21 oktyabr 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


*Türk Dövlətləri Təşkilatı Azərbaycan ilə Qazaxıstan arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində aparıcı rola malikdir, siyasi dialoqun dərinləşdirilməsi, iqtisadi əlaqələrin genişləndirilməsi və humanitar əməkdaşlığın inkişafı üçün hərəkətverici platforma rolunu oynayır.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Dost və qardaş Qazaxıstana 3 ildə 7-ci səfər

## Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana dövlət səfərinə gəlib






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Qazaxıstan Respublikasına dövlət səfərinə gəlib.**

Astana şəhərinin Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev qarşıladı.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

***AZƏRTAC***

# Azərbaycan diplomatiyasının Qızıl dövrünün 15 gündə 4 zirvəsi

## *İlham Əliyevin sülhə söykənən çoxvektorlu və balanslı xarici siyasəti dünyada nümunə kimi qəbul edilir*



**Son 15 gündə Prezident İlham Əliyevin iştirakçısı və bir çox hallarda yönvericisi olduğu 4 Zirvə Görüşü ilə bağlı ilkin dəyərləndirmələr olsa da, bu qısa zaman kəsiyi özündə ehtiva etdiyi dipolmatik nüfuz, ölkəyə göstərilən etimad və şəxsiyyətin rolu baxımından hələ çox araşdırılacaq. Nyu-Yorkda BMT Baş Assambleyasının sessiyası, Danimarkada Avropa Siyasi Birliyinin Sammiti, Qəbələdə TDT Zirvəsi, Misirdə Yaxın Şərq Sülh Sammiti.**

Bu görüşlərin hər biri müzakirə olunan mövzuların əhəmiyyəti, iştirakçıların siyasi çəkisi və nüfuzu, qəbul edilən qərarların sanbalına görə beynəlxalq siyasətin qızıl səhifələrinə düşməyə layiqdir. Bunların arasında oktyabrın 13-də Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Qahirədə keçirilən Yaxın Şərq Sülh Sammitində iştirakına ayrıca diqqət ayırmaq lazımdır. Dövlətimizin başçısının bu Sammitdə iştirakı Azərbaycanın beynəlxalq təhlükəsizlik və sülh quruculuğu proseslərində oynadığı önəmli rolunun göstəricisi idi. Həmin tədbirdə müzakirə olunan qlobal məsələlər – Yaxın Şərqdə sülh və sabitlik, humanitar böhranların qarşısının alınması, beynəlxalq hüququn qorunması – İlham Əliyevin irəli sürdüyü diplomatiyanın prinsip və dəyərləri ilə üst-üstə düşürdü.


*(ardı 6-cı səhifədə)*


## Qlobal xeyriyyəçilik missiyası




Səhifə ⇨ 5


## Ermənistan demoqrafik böhran girdabında




Səhifə ⇨ 7


## Türk dünyasında strateji əlaqələndirmə və Avrasiyada yeni güc mərkəzi quruculuğu




Səhifə ⇨ 6





## Avropada gündəmin "dirijor"u dəyişirmi?


Səhifə ⇨ 8


## Tibbi diaqnostikanın özü "müalicə"yə möhtacdır




Səhifə ⇨ 12

# Prezident İlham Əliyev Zəngilanın azad olunmasının ildönümü münasibətilə paylaşım edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında Zəngilan şəhərinin işğaldan azad olunmasının 5-ci ildönümü münasibətilə paylaşım edib.**

**Paylaşımda "Zəfər Tariximiz: 20 Oktyabr 2020-ci il Zəngilan" sözləri yer alıb.**

# Azərbaycan Respublikasında statistika sahəsində çalışan işçilərin təltif edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında statistika işinin təşkilində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Məmmədov Vahab Feyruz oğlu

**"Tərəqqi" medalı ilə**

Bağırov Hüseyn Fərəməz oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Aşurov Abdulkərim Şafi oğlu
Babayev Nazim Kazım oğlu
Əcəlov Toğrul Rafiq oğlu
Əliyev Rauf Ağaxan oğlu
Qafarov Heydər Zülməkan oğlu
Qəhrəmanov Əyyub Məcid oğlu
Quliyeva Səbinə Əliqulu qızı
Tahirov Fərnad Tahir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 20 oktyabr 2025-ci il**

# "XX əsr Güney Azərbaycan milli demokratik poeziyası" kitabı çapdan çıxıb

**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə "XX əsr Güney Azərbaycan milli demokratik poeziyası" kitabının birinci cildi nəşr olunub.**




Dosent Qəndab Haqverdi Əliyevanın hazırladığı bu antologiyada XX əsr Güney Azərbaycan şairlərinin əsərləri yer alıb.

Kitabın məsləhətçisi Sədyar Vəzifə Eloğlu, elmi redaktoru professor Vüqar Əhməd, rəyçiləri professorlar Qəzənfər Paşayev və Məhərrəm Qasımovdur.

# Milli Məclisin sədri Cenevrədə

**Azərbaycan xalqı humanitar böhranın nə demək olduğunu öz təcrübəsində yaşayıb.**

Bu fikri Milli Məclisin sədri Sahibə Qafarova İsveçrənin Cenevrə şəhərində Parlamentlərarası İttifaqın 151-ci Assambleyasında keçirilən "Böhran zamanı humanitar normaların qorunması və humanitar fəaliyyətin dəstəklənməsi" mövzusunda müzakirələrdə çıxışı zamanı səsləndirib.



Onun sözlərinə görə, hələ 1990-cı illərin əvvəllərində Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. O dövrdə 8 milyonluq xalq üçün bu, böyük faciə idi. Davamlı milli səylər və beynəlxalq tərəfdaşların dəstəyi ilə Azərbaycan köçkün əhalisinin təcili ehtiyaclarını ödəyə bildi. 2020-ci ildə ölkəmiz öz ərazi bütövlüyünü bərpa etdikdən sonra işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma və reabilitasiya layihələrinə başlayıb.

O bildirib ki, bu ilin avqustunda Vaşinqtonda Azərbaycan və Ermənistanın Birgə Bəyannamə imzalaması və sülh sazişini paraflaması onilliklərlə davam edən Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması istiqamətində tarixi addımdır.

Sahibə Qafarova bu əlamətdar hadisənin Cənubi Qafqazda daimi sülh, sabitlik və davamlı inkişafın yeni səhifəsini açacağına ümidvar olduğunu bildirərək deyib: "Bu isə hətta uzun müddətdir davam edən münaqişələrin də dialoq və siyasi iradə yolu ilə həll oluna biləcəyinə dair əminlik yaradır".



*

**Milli Məclisin sədri Sahibə Qafarova səfər çərçivəsində Namibiya Milli Assambleyasının sədri Saara Kuugongelva və Bosniya və Herseqovina Parlament Assambleyası Nümayəndələr Palatasının sədri Denis Zvizdic ilə görüşüb.**

Görüşlərdə belə mühüm beynəlxalq tədbirlərin bir sıra qlobal problemlərin müzakirəsi və effektiv həlli yolları ilə bağlı təkliflərin irəli sürülməsi, həmçinin ikitərəfli əlaqələrin nəzərdən keçirilməsi üçün yaxşı platforma olduğu qeyd edilib.

Söhbətlər zamanı beynəlxalq parlament təşkilatlarında əməkdaşlığın əhəmiyyəti qeyd olunub. Xüsusilə Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti yüksək qiymətləndirilərək, təşkilatın institusional inkişafı və beynəlxalq nüfuzunun artırılması istiqamətində görülən işlər qeyd olunub.

***XQ***

# Azərbaycan–İran ikitərəfli münasibətlərinin cari vəziyyəti

**Oktyabrın 20-də Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfov İrana səfər edərək, bu ölkənin xarici işlər naziri Seyid Abbas Əraqçi, İran Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayi və xarici işlər nazirinin müavini Kazem Qəribabadi ilə görüşlər keçirib.**



Görüşlərdə Azərbaycan ilə İran arasında ikitərəfli münasibətlərin cari vəziyyəti, xüsusilə İran Prezidentinin ölkəmizə səfərləri və bu səfərlər çərçivəsində Prezident İlham Əliyev və Prezident Məsud Pezeşkian arasında əldə olunmuş mühüm razılaşmalar əsasında münasibətlərdə yaranmış yeni mərhələyə uyğun olaraq iki ölkə arasında dost və mehriban qonşuluq əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər regionda təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsi, habelə dərin tarixi, dini və mədəni bağlara əsaslanan əməkdaşlığın genişləndirilməsinə yönələn dialoqun davam etdirilməsinin mühüm əhəmiyyətini qeyd ediblər.

Müzakirələrdə, həmçinin iki ölkə arasında həyata keçirilən enerji, nəqliyyat, infrastruktur və logistika layihələrinin icrası vəziyyəti, Xəzər dənizində əməkdaşlıq məsələləri, habelə regionda maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Bununla yanaşı, tərəflər Azərbaycanın hazırda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə sədrliyinin gündəliyindən irəli gələn məsələləri nəzərdən keçiriblər.

***XQ***

*Xuntaçıların məhkəməsi*

# Erməni hərbçilər evləri yandırır, dinc əhalini güllələyirdilər

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 20-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında üzrlü səbəbdən iştirak edə bilməyən və bununla bağlı məhkəməyə müraciət etmiş zərərçəkmiş şəxslərin ifadələri elan olunub.

Zərərçəkmiş Şakir Albalıyev bildirib ki, Ermənistan silahlı qüvvələri 1993-cü ildə Cəbrayıl rayonunun bir sıra kəndlərini, o cümlədən yaşadığı Dağ Tuması və valideynlərinin yaşadığı Pirəsəd kəndini işğal edərək yandırıblar. O, kənddə olarkən Əliyev Məhəmməd Hümmət oğlunun və Bənövşə adlı bir qoca qadının evlərinin qabağında Ermənistan silahlı qüvvələri tərəfindən güllənmiş meyitlərini görüblər. Ş.Albalıyev avqustun 26-da Cəbrayıl rayonunun Sofulu kəndi yaxınlığında Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülüb. O, əsirlikdə döyülüb, ağır işgəncələrə məruz qalıb. 1993-cü il avqustun 28-də əsirlikdən qaçıb.

Zərərçəkmiş şəxs Elşən Nuhiyevin elan olunan ifadəsinə əsasən, 1993-cü il iyulun 2-də Füzuli rayonunun Gorazıllı kəndində babasının evində olarkən atası Arif, anası Məxmər, qardaşı Rövşən, əmisi Vaqif, əmisinin arvadı Raisə, qızı Sevil, Sevda, əmisi Balay, əmisinin arvadı Raisə, dayısı Marks, nənələri Tamaşa və Maya ilə birlikdə Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülərək Xocavənd rayonuna, daha sonra Xankəndi Şəhər Uşaq Xəstəxanasına aparılıb. Həmin gün atası Arifi, əmisi Vaqifi, Balayı və dayısı Marksı onlardan ayırıb Şuşa həbsxanasına aparıblar. Xankəndi şəhərində onlardan başqa Laçın, Abşeron, Kəlbəcər rayonlarından olan müxtəlif şəxslər də saxlanılıblar.

Bundan başqa, Xankəndi şəhərində uşaq xəstəxanasında Kamo adlı, eləcə də digər erməni nəzarətçilər onlara müxtəlif növ işgəncələr veriblər. Orada 4 ay 5 gün saxlanıldıqdan sonra 1993-cü il noyabr ayının əvvəllərində Ağdam rayonunun Qərvənd kəndi ərazisində girovluqdan azad olub. Təxminən 1 ay sonra anası Məxmər azad edilib. Atası Arif isə onlardan əvvəl azad olub. Atasından öyrənib ki, əmisi Vaqif girovluqda mütəmadi döyülüb, verilmiş ağır işgəncələr nəticəsində ölüb.

Elan olunan digər ifadəyə əsasən, zərərçəkmiş şəxsin hüquqi varisi qismində dindirilmiş Mehriban Kərimova bildirib ki, Ermənistan silahlı qüvvələri 1992-ci il aprelin 8-də yaşadığı Kəlbəcər rayonunun Ağdaban kəndinə silahlı hücum edərək çoxsaylı şəxsi qəsdən öldürüb, bir neçə şəxsə müxtəlif ağır bədən xəsarətləri yetirib. Onu, atası Sovet Kərimovu, Azərbaycan dili və ədəbiyyat müəllimi Sevinc Quliyevanı və sonuncunun övladları Zülfiyyə Quliyevanı və Samir Quliyevi girov götürüblər. Anası Qəməri isə həmin gün avtomatdan atəş açaraq öldürüblər.

Ermənistan silahlı qüvvələrinin hərbçiləri kənddəki evləri yaşayışın olub-olmadığına məhəl qoymadan yandırıb, yolda gördükləri dinc sakinləri odlu silahlardan atəş açaraq qətlə yetirirdilər. Atası ilə birlikdə bu vəhşiliyin canlı şahidi olub, gözünün önündə həmkəndlilərinin vəhşicəsinə qətlə yetirildiyini görüb.

M.Kərimova bildirib ki, Ermənistan hərbçilərinin evləri talan etməsini, qiymətli əşyaları, heyvanları oğurlamasını yol getdikcə müşahidə edib. İfadəsində onu da göstərib ki, girov götürüldükdən sonra onlar kəndin mərkəzində yaşlı bir qadının evinə aparılıblar. Evə daxil olanda təxminən 6 yaşında Ülviyyə adlı uşağın yerdə uzanıqlı vəziyyətdə olduğunu görüb. Məlum olub ki, Ülviyyə atası Camalın belində olarkən Ermənistan hərbçiləri atəş açaraq ikisini birlikdə qətlə yetirib.

Bundan başqa, həmin vaxt orada olan Tural adlı kənd sakinini əlləri bağlı halda ot tayasına tərəf aparıblar. Oraya çatdıqda arxadan avtomat silahla atəş açıb onu vurublar, sonra isə ot tayasını yandırıb Turalı alovun içərisində atıblar və o, yanaraq ölüb. Sonradan eşidib ki, Turalın anasını da ağzından avtomatla atəş açaraq öldürüblər.

O, ifadəsində, həmçinin bildirib ki, hücum zamanı Ermənistan silahlı qüvvələri onun dayısı, Aşıq Şəmşirin nəvəsi Qurbanov Qulu Şabər oğlunu tonqalda diri-diri yandırıblar. Bundan başqa, Aşıq Şəmşirin qohumları Bəkir, Zeynəb, Qulu, Qara və digər doğmaları da Ermənistan hərbçiləri tərəfindən öldürülüblər. Onlardan bəzilərini isə evlərində ailə üzvləri ilə birlikdə yandırıblar. M.Kərimova bir ay sonra girovluqdan azad olunub.

Elan olunan digər ifadəyə əsasən, zərərçəkmiş Bəhram İbrahimovun hüquqi varisi Sakit Feyzullayev bildirib ki, 2020-ci il oktyabrın 7-də övladının Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə iştirak edərkən şəhid olması xəbərini eşidib.

Zərərçəkmiş Murad Mahmudovun hüquqi varisi Mahir Mahmudovun elan olunan ifadəsinə əsasən övladı 2020-ci il oktyabrın 10-da Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə Ermənistan silahlı qüvvələrinin açdığı snayper atəşi nəticəsində şəhid olub.

Zərərçəkmiş şəxs qismində tanınaraq dindirilmiş Vüqar Süleymanov, Taleh Nəbiyev, Tacəddin Kərimov, Ayxan Camalzadə, Vurğun Əbilov, Faiq Səfərov və başqalarının ifadələrinə əsasən onlar müxtəlif vaxtlarda mina və digər sursatların partlaması nəticəsində xəsarətlər alıblar.

Nabat Bağırova, Səlminə Əliyeva, Məhəmməd Mahmudov, Hikmət Abdullayev, Valeh Həsənov, Rəfail Bayramov, Samir Əlizadə, Zaməddin Həsənov, Əli Ağalarov, Azər Məmmədov, Ziyəddin Mirzəyev, Fuad İbrahimli, Dəyanət Əliyev, Dilqəm Səfərov, İlqar Fərəcov, Urfan Əzizov, Yunis Quliyev, Vahid Dadaşov, Ceyhun Rzaquliyev, İbrahim Əliyev, Nicar Əlizadə, Sadiq Əhmədov, Nazir İmranzadə, İsaq Dəmirov, Nihad Quliyev və digər zərərçəkmiş şəxslərin də ifadələri elan edilib.

Məhkəmə prosesi oktyabrın 23-də davam etdiriləcək.

***XQ***

# Prezident İlham Əliyev ABŞ Mərkəzi Komandanlığının komandanını qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də ABŞ Mərkəzi Komandanlığının komandanı və Hərbi Dəniz Qüvvələrinin admiralı Bred Kuperi qəbul edib.**

Qonaq Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasına dair əldə edilmiş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı bu məsələdə Prezident Donald Trampın xüsusi rolunu qeyd etdi. Vaşinqtonda imzalanmış sənədlərin regionun inkişafı üçün geniş imkanlar yaratdığını vurğulayan Prezident İlham Əliyev Azərbaycanla Ermənistanın artıq sülh şəraitində yaşamağa uyğunlaşdıqlarını dedi.

Söhbət zamanı son dövrlərdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin inkişafı məmnunluqla qeyd edildi, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.



## Prezident İlham Əliyev:

# Qazaxıstanın Azərbaycan ilə münasibətləri qardaşlıq və etimad nümunəsidir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana dövlət səfəri ərəfəsində “Kazinform”a eksklüziv müsahibəsində iki ölkə arasında siyasi dialoqun yüksək səviyyəsindən, nəqliyyat, logistika, neft-qaz sahələrində əməkdaşlığın sürətli inkişafından, həmçinin yaşıl enerji sahəsində birgə işin perspektivlərindən və Türk Dövlətləri Təşkilatı çərçivəsində təşəbbüslərdən bəhs edib.**



**– Hörmətli cənab Prezident, ən yaxın vaxtda Sizin Qazaxıstan Respublikasına dövlət səfəriniz gözlənilir. Azərbaycan ilə Qazaxıstan arasında siyasi münasibətlərin hazırkı səviyyəsini necə xarakterizə edərdiniz və qarşıdakı səfərdən gözləntiləriniz nədən ibarətdir?**

– Azərbaycan ilə Qazaxıstan arasında siyasi əlaqələr hazırda yüksək dərəcədə möhkəmlik və qarşılıqlı etimad ilə xarakterizə olunur. Ötən onilliklər ərzində xalqlarımız arasında tarixi qardaşlığa, dostluğa və qarşılıqlı dəstəyə, ortaq türk kimliyinin möhkəm təməlinə, oxşar mədəni ənənələrə və mənəvi dəyərlərə əsaslanaraq, biz həqiqi strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri qurmuşuq.

Sözsüz ki, ikitərəfli əməkdaşlığın möhkəmlənməsinə töhfə verən mühüm amil ən yüksək səviyyədə aparılan və dövlətlərarası əlaqələrin bütün səviyyələrdə hərtərəfli dərinləşməsinə təkan verən fəal və konstruktiv dialoqdur.

Bu, son üç ildə mənim qardaş ölkəyə yeddinci səfərimdir. Qazaxıstana hər səfərimdə dinamik inkişafı, yeni uğurları müşahidə etmək mənim üçün xoşdur. Bu nailiyyətlər Prezident Kasım-Jomart Tokayevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və düşünülmüş dövlət siyasətindən xəbər verir. Ölkənin modernləşdirilməsinə və iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş islahatların uğurla həyata keçirilməsi xüsusi təsir bağışlayır. Bu uğurlar münasibətilə bütün qardaş Qazaxıstan xalqını təbrik etmək istərdim. Həmin müddət ərzində Prezident Kasım-Jomart Kemeleviç Tokayev Azərbaycana altı dəfə səfər edib. Bütün bunlar ölkələrimiz arasında hərtərəfli tərəfdaşlıq və qarşılıqlı strateji fəaliyyətin inkişafına müştərək səylərimizi nümayiş etdirir. Bundan əlavə, müntəzəm təmaslar bizə gündəlikdə duran aktual məsələləri operativ şəkildə həll etməyə və əməkdaşlığın əsas istiqamətləri üzrə razılaşdırılmış mövqeləri müəyyənləşdirməyə imkan verir.

Fürsətdən istifadə edərək, işğaldan azad edilmiş Füzuli şəhərində Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzinin tikintisinə görə qardaş Qazaxıstana bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bu Mərkəz mühüm mədəni-maarif müəssisəsinə çevrilib, hazırda orada 100-ə yaxın uşaq təhsil alır.

Biz ötən illər ərzində möhkəm hüquq-müqavilə bazası - təqribən 170 sənəd işləyib hazırlamışıq, siyasi, iqtisadi-ticari, investisiya, mədəni-humanitar və digər sahələrdə səmərəli əməkdaşlıq mexanizmləri yaratmışıq. Bu il 20 illiyini qeyd etdiyimiz Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilənin əhəmiyyətini xüsusi qeyd etmək istərdim. Bu sənəd Azərbaycan-Qazaxıstan əməkdaşlığının müxtəlif sektorlarda inkişafının etibarlı təməlini qoyub və ötən illər ərzində ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlıq əhəmiyyətli dərəcədə genişlənib.

Həmçinin ilk iclası Qazaxıstan Prezidentinin ötən il Azərbaycana dövlət səfəri zamanı keçirilən Ali Dövlətlərarası Şuranın əhəmiyyətini qeyd etmək lazımdır. Astanada keçiriləcək ikinci iclasda qarşılıqlı faydalı əməkdaşlığın perspektivləri və Azərbaycan-Qazaxıstan münasibətlərinin yeni səviyyəyə qaldırılması istiqamətində atılacaq addımlar müzakirə olunacaq.

Azərbaycan və Qazaxıstan, həmçinin çoxtərəfli formatlarda, xüsusilə beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi və digərləri çərçivəsində də səmərəli əməkdaşlıq edir. Ölkələrimiz beynəlxalq arenada bir-birini dəstəkləyir, bir çox məsələlərdə ortaq mövqeyi bölüşür.

**– Son illər Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi-ticari əməkdaşlıq necə inkişaf edir?**

– Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi-ticari əməkdaşlığın spektri çox genişdir. İqtisadi-ticari qarşılıqlı fəaliyyətin davamlı artımını məmnunluqla qeyd edirik. Hər iki ölkə ardıcıl olaraq birgə təşəbbüslər həyata keçirir, iqtisadiyyatın müxtəlif sektorlarında əməkdaşlığı genişləndirir. Bu proses məqsədyönlü dövlət siyasəti, biznes icmalarının nümayəndələri arasında fəal dialoq, qarşılıqlı faydalı və tərəfdaşlıq münasibətlərinin inkişafına ümumi sadiqlik sayəsində mümkün olub.

Bu günə qədər ölkədə Qazaxıstan kapitalı ilə 250-yə yaxın kommersiya strukturu qeydə alınıb. Bu, investisiya mühitinə yüksək etimadı təsdiq edir və iqtisadi qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsi üçün möhkəm zəmin yaradır.

Qarşılıqlı ticarətdə də müsbət dinamika özünü aydın şəkildə göstərir. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 470 milyon dollar təşkil edib. 2025-ci ilin yanvar-avqust aylarında isə ötən ilin müvafiq dövrü ilə müqayisədə üç dəfə çox olmaqla, 547 milyon dollara çatıb. Bu artım Orta Dəhlizin potensialından səmərəli istifadə, nəqliyyat və logistika infrastrukturunun sistemli modernləşdirilməsi ilə bağlıdır.

Bununla yanaşı, Azərbaycan ilə Qazaxıstan arasında investisiya əməkdaşlığı möhkəmlənir: Azərbaycanın Qazaxıstan iqtisadiyyatına investisiyası 225 milyon dollara, Qazaxıstanın isə Azərbaycana sərmayəsi 136 milyon dollara çatıb. Bu göstəricilər tərəflərin uzunmüddətli tərəfdaşlığa və davamlı inkişafa qarşılıqlı marağını nümayiş etdirir.

**– Azərbaycan ilə Qazaxıstan arasında nəqliyyat-logistika və neft-qaz sektorlarında, həmçinin yaşıl enerji sahəsində əməkdaşlığın səviyyəsini necə qiymətləndirirsiniz? Orta Dəhlizin hər iki ölkə üçün əhəmiyyəti nədən ibarətdir? Aktau və Ələt limanları vasitəsilə daşımaların səmərəliliyini artırmaq üçün hansı addımlar atılır?**

– Azərbaycan ilə Qazaxıstan arasında nəqliyyat-logistika əməkdaşlığı iqtisadi artım və regional bazarların inteqrasiyası üçün yeni imkanlar açan strateji əhəmiyyətli istiqamətdir. İnfrastrukturun davamlı inkişafı, tarif və logistika üstünlüklərinin genişləndirilməsi daşımaların həcminin artırılması və ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün əlverişli şərait yaradır.

Hazırda bu qarşılıqlı fəaliyyət sahəsi əhəmiyyətli tərəqqi nümayiş etdirir. 2024-cü ildə Azərbaycan ilə Qazaxıstan arasında tranzit daşımaları əvvəlki dövrlə müqayisədə 20 faiz artaraq 3,5 milyon tondan çox olub. Orta Dəhliz ölkələr arasında davamlı və səmərəli əlaqələrin təmin edilməsində əsas rol oynayır.

2022-ci ildə Aktauda Türkiyə, Azərbaycan və Qazaxıstan ərazilərindən keçən Orta Dəhlizin inkişafı və istismarı üzrə “2022–2027-ci illər üçün Yol Xəritəsi” imzalanıb. Sənəd üç ölkənin nəqliyyat-logistika infrastrukturunun sinxron inkişafını, əməliyyatların optimallaşdırılmasını, əlavə yük axınının cəlb edilməsini, vahid tarif siyasətinin həyata keçirilməsini, logistika mərkəzləri şəbəkəsinin inkişafını və digər əsas məsələlərin həllini nəzərdə tutur.

İnfrastruktur sahəsində əhəmiyyətli layihələrdən biri Qazaxıstan ilə Azərbaycan arasında Xəzər dənizinin dibi ilə sualtı fiber-optik kommunikasiya xətlərinin tikintisidir. Tikinti müqaviləsi 2025-ci ilin martında Bakıda imzalanıb və işlərin tamamlanması 2026-cı ilin sonuna planlaşdırılır ki, bu da rəqəmsal inteqrasiyanı gücləndirəcək.

Neft-qaz sektorunda SOCAR və “KazMunayQaz” Milli Şirkəti arasında Aktau-Ceyhan marşrutu üzrə ildə 1,5 milyon ton Qazaxıstan neftinin tranziti ilə bağlı baş saziş imzalanıb. 2024-cü ildə tranzit həcmlərinin mərhələli şəkildə artırılması və tariflərin aşağı salınması haqqında saziş imzalanıb.

Aktau və Ələt limanları vasitəsilə daşımaların səmərəliliyini artırmaq üçün infrastrukturun modernləşdirilməsi, qatarların və s. yenilənməsi üzrə həyata keçirilən tədbirlər Orta Dəhlizin Avropa ilə Asiya arasında əsas tranzit marşrutu kimi mövqeyinin möhkəmlənməsinə imkan verəcək.

Gəmiqayırma sahəsində tərəfdaşlıq da sənaye əməkdaşlığının mühüm istiqamətidir.

Yaşıl energetikanın inkişafı ikitərəfli gündəlikdə mühüm yer tutur. 2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin birləşdirilməsinə və bərpaolunan enerji mənbələrinin təşviqinə yönəlmiş bir sıra strateji sazişlər və memorandumlar imzalayıb. Bu təşəbbüslər ölkələrin davamlı inkişafa və ekoloji cəhətdən təmiz texnologiyalara keçidə birgə sadiqliyini əks etdirir.

**– Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin möhkəmlənməsində Türk Dövlətləri Təşkilatının rolunu necə qiymətləndirirsiniz?**

– Türk Dövlətləri Təşkilatı (TDT) Azərbaycan ilə Qazaxıstan arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində aparıcı rola malikdir, siyasi dialoqun dərinləşdirilməsi, iqtisadi əlaqələrin genişləndirilməsi və humanitar əməkdaşlığın inkişafı üçün hərəkətverici platforma rolunu oynayır.

2009-cu ildə qədim Azərbaycan torpağı Naxçıvanda yaradılan Türk Dövlətləri Təşkilatı türk xalqları və ölkələri arasında əməkdaşlığın və həmrəyliyin möhkəmlənməsinə mühüm töhfələr verib. Keçən il Şuşada ilk qeyri-rəsmi Zirvə Görüşü, bu yaxınlarda isə Qəbələdə TDT Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib. Bu yüksəksəviyyəli görüşlərdə ölkələrimiz arasında təşkilat çərçivəsində əməkdaşlığın əsas məsələləri səmərəli şəkildə müzakirə edilib, Türk Dövlətləri Təşkilatının möhkəmlənməsinə, Türk dünyasının daha sıx birliyinə, onun siyasi, iqtisadi və hərbi gücünün artırılmasına, qlobal arenada güc mərkəzinə çevrilməsinə töhfə verən bəyannamələr imzalanıb.

TDT çərçivəsində ölkələrimiz arasında mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlıq sistemli və ardıcıl xarakter daşıyır. Birgə təşəbbüslər festivalların, sərgilərin, ədəbi gecələrin və konfransların təşkilindən tutmuş elm və təhsil müəssisələri arasında fəal əməkdaşlığa qədər geniş istiqamətləri əhatə edir.

Türk Dövlətləri Təşkilatı çərçivəsində tədqiqatların aparılmasında, elm və təhsil əlaqələrinin möhkəmləndirilməsində mühüm rol oynayan Beynəlxalq Türk Akademiyası uğurla fəaliyyət göstərir. Biz TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) və digər beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edirik. Bu, Azərbaycan ilə Qazaxıstan arasında etimadın yüksək səviyyəsinin daha bir göstəricisidir.

1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini ayrıca qeyd etmək istərdim. Bu hadisə türk elminin, mədəniyyətinin, birliyinin inkişafında mühüm mərhələ oldu. Gələn il bu əlamətdar Forumun keçirilməsinin 100 illiyi tamam olur və Birinci Türkoloji Qurultayın ildönümünün TDT çərçivəsində təntənəli şəkildə qeyd edilməsi planlaşdırılır.

**– Ölkələrimiz mədəni-humanitar sahədə nə dərəcədə sıx əməkdaşlıq edir?**

– Əvvəl dediyim kimi, xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din, ortaq dəyərlər birləşdirir. Mədəni əlaqələrin inkişafı xalqlarımızın bir-birinə daha da yaxınlaşmasında, qardaşlıq əlaqələrinin möhkəmlənməsində mühüm rol oynayır.

2023-cü ildə Azərbaycanda Qazaxıstan, 2024-cü ildə isə Qazaxıstanda Azərbaycan Mədəniyyəti Günləri keçirilib. Belə tədbirlər xalqlarımız arasında yaradıcılıq əlaqələrinin dinamik inkişafını əks etdirir və iki ölkənin mədəni ənənələrinin qarşılıqlı zənginləşməsinə töhfə verir.

Qazax ədəbiyyatının inkişafında mühüm xidmətləri olan ən görkəmli simalardan biri Kemel Tokayevin “Gecə açılan atəş” adlı povestlər toplusunun Azərbaycan dilində nəşrini məmnunluqla qeyd etmək istərdim.

Həmçinin 2023-cü ildə Bakıda Kemel Tokayevin 100, Mir Cəlal Paşayevin 115 illik yubileylərinə həsr olunmuş beynəlxalq konfrans keçirilib.

**– Xəzər dənizinin dayazlaşması problemi getdikcə daha çox aktuallaşır. Azərbaycan və Qazaxıstan bu məsələdə öz fəaliyyətlərini necə əlaqələndirir?**

– Təəssüf ki, bu gün Xəzər dənizi bir sıra ciddi ekoloji problemlərlə üz-üzədir. Ən aktual məsələlərdən biri dayazlaşma - həm ekoloji, həm də iqtisadi təhlükələr yaradan suyun səviyyəsinin sürətlə azalmasıdır. 2022-ci ildə keçirilən VI Xəzər Zirvə Görüşündə mən Xəzər dənizində ekoloji tarazlığın pozulması məsələsini qaldırdım. Təəssüf ki, o vaxtdan bəri vəziyyət ancaq pisləşib. Xəzərdə suyun səviyyəsi sürətlə aşağı düşür və bunun səbəbləri təkcə iqlim dəyişikliyi ilə bağlı deyil.

Yaranmış şəraitdə bütün Xəzəryanı ölkələr arasında sıx əməkdaşlıq qurmaq, fəal elmi informasiya mübadiləsi aparmaq və nəticələrin yumşaldılması üçün əlaqələndirilmiş tədbirlər işləyib hazırlamaq çox vacibdir.

Xəzər dənizinin səviyyəsinin aşağı düşməsi və bununla bağlı ekoloji dəyişikliklər biomüxtəlifliyi və ekosistemin dayanıqlılığını təhdid edir ki, bu, təbiətin mühafizəsi və ekoloji tarazlığın bərpası üçün əlaqələndirilmiş tədbirlərin görülməsi zərurəti yaradır.

Bundan başqa, Azərbaycan, Qazaxıstan və digər Xəzəryanı ölkələr regional və beynəlxalq platformalarda Xəzərin mühafizəsi təşəbbüslərini fəal şəkildə irəli sürə bilərlər və bunu etməlidirlər. Artan transmilli ekoloji risklər şəraitində Xəzər dənizi, sadəcə, su hövzəsi deyil, bizim ortaq məsuliyyətimizin və birgə fəaliyyətimizin zəruriliyinin rəmzinə çevrilir.

***AZƏRTAC***

# Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfirliyinin inzibati ofisi açılıb

## *Birinci vitse-prezident Mehriban Əliyeva tədbirdə iştirak edib*

**Oktyabrın 17-də Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacdakı səfirliyinin inzibati ofisinin rəsmi açılışı olub.**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Vatikanın dövlət katibi, kardinal Pietro Parolin tədbirdə iştirak ediblər.

Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarov səfirliyin inzibati ofisi barədə məlumat verib. Bildirilib ki, səfirliyin inzibati ofisi Müqəddəs Pyotr Bazilikasına aparan əsas küçə olan Via Conciliazionedə, Vatikanın Apostol Sarayına çox yaxın bir ərazidə yerləşir. Burada Vatikana məxsus rəsmi qurumlar, eləcə də Müqəddəs Taxt-Tacda akkreditə olunmuş bir neçə səfirliyin inzibati ofisləri də yerləşir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlər son illərdə qarşılıqlı maraqlar, hörmət və səmərəli əməkdaşlıq ruhunda yüksələn xətlə



inkişaf edir, bu işbirliyi getdikcə daha da dərinləşir və şaxələndirilir.

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Vatikanın dövlət katibi, kardinal Pietro Parolin çay süfrəsi arxasında ikitərəfli münasibətlərə və beynəlxalq gündəliyə aid məsələlər, qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparıblar.

Müqəddəs Taxt-Tacın dünyada bir milyarddan çox katolik üçün mənəvi və ideoloji mərkəz olduğunu nəzərə alsaq, Azərbaycanın buradakı diplomatik nümayəndəliyinin fəaliyyəti ölkəmizin həqiqətlərini dünya birliyinə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qeyd edək ki, 2021-ci ildə Prezident İlham Əliyev Azərbaycanın Müqəddəs Taxt-Tac yanında səfirliyinin rəsmi təsis edilməsi haqqında Qanunu imzalayıb. 2022-ci ildə İlqar Muxtarov ölkəmizin Müqəddəs Taxt-Tacda ilk rezident səfiri təyin olunub.

***AZƏRTAC***





# İtaliya mətbuatı Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikana rəsmi səfərini geniş işıqlandırıb

**İtaliyanın aparıcı media resursları Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca rəsmi səfərini diqqət mərkəzində saxlayıb.**

"Giornale Diplomatico","Notizie Geopolitiche","il Domani d`Italia", "Gazzetta Diplomatica","Kmetro0", "il Denaro", "Radio Studio90 Italia","Tele Citta", "MSN" və "ZaZoom" kimi saytların və xəbər portallarının yaydığı materiallarda Birinci vitse-prezident Mehriban Əliyevanın səfər çərçivəsində müxtəlif mühüm görüşlər keçirdiyi və tədbirlərdə iştirak etdiyi bildirilir.

Diqqətə çatdırılır ki, Azərbaycanın Birinci vitse-prezidentinin Roma Papası XIV Leo ilə görüşündə ölkəmizlə Vatikan arasında ikitərəfli əlaqələrin xeyli inkişaf etdiyi vurğulanıb. Görüşdə Müqəddəs Taxt-Tacın Azərbaycandakı Katolik Kilsəsinin fəaliyyəti və ikinci Katolik Kilsəsinin tikintisi ilə əlaqədar aparılan hazırlıq işləri barədə məlumat verilib. XIV Leo Azərbaycan ilə qurulan bu əməkdaşlığın dinlərarası və sivilizasiyalararası dialoqa böyük təkan verdiyini deyib.

Birinci vitse-prezident Mehriban Əliyeva ilə Vatikanın dövlət katibi, kardinal Pietro Parolinin görüşündə isə ikitərəfli münasibətlərin müsbət inkişafından məmnunluq ifadə olunub. Pietro Parolin Bakıda ikinci Katolik Kilsəsinin tikintisini təqdirəlayiq hal kimi qiymətləndirib, bunun Azərbaycanda bütün dinlərə göstərilən qayğı və hörmətin təzahürü olduğunu vurğulayıb. Vatikanın dövlət katibi Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanması münasibətilə ölkəmizi təbrik edib,







Vatikanın regionda sülhün bərqərar olmasını birmənalı şəkildə dəstəklədiyini deyib.

Yazılarda məlumat verilir ki, səfər çərçivəsində Azərbaycanın Birinci vitse-prezidenti və ailə üzvləri Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirak edib, həyata keçirilmiş bərpa işləri ilə tanış olublar. Katakombaların bərpası layihəsinin Vatikan ilə Azərbaycan arasında çoxillik əməkdaşlığın yeni mərhələsi olduğu qeyd edilir.

Birinci vitse-prezident Mehriban Əliyevanın, həmçinin Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvi ilə görüşdüyü, bazilikada Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən bərpa və tikinti işləri ilə tanış olduğu diqqətə çatdırılır. Azərbaycanın Birinci vitse-prezidentinin Avropanın ən böyük pediatrik "Bambino Gesu" xəstəxanasında molekulyar-genetika və klinik diaqnostika laboratoriyaları ilə tanış olduğu, Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini ilə görüşdüyü və birlikdə Vatikan bağlarında ağacəkmə mərasimində iştirak etdikləri bildirilir.

Bundan başqa, Birinci vitse-prezident Mehriban Əliyevanın Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanda Müqəddəs Pyotr Bazilikasında həyata keçirilmiş bərpa işləri ilə tanış olduğu, Vatikan Apostol Kitabxanası və Apostol Arxivinə baş çəkdiyi, Vatikanın dövlət katibi kardinal Pietro Parolinlə birgə Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfirliyinin inzibati ofisinin rəsmi açılışında iştirak etdiyi vurğulanır.

***XQ***

# Qlobal xeyriyyəçilik missiyası

## *Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Azərbaycanın adını dünyanın mədəniyyət xəritəsinə yazır*

**Əbədi şəhər kimi tanınan Roma çağdaş tarixində geosiyasətin ən kəskin reallıqlarını belə aşan mühüm diplomatik körpülərin qurulduğuna şahidlik edir. 16 oktyabr tarixində isə qədim Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılışı belə nadir və strateji hadisələrdən biri kimi beynəlxalq gündəmdə əks-səda yaratdı.**





Müqəddəs Taxt-Tacın informasiya resursları, o cümlədən Vatikanın yeganə rəsmi mətbuat orqanı olan nüfuzlu "L"Osservatore Romano" qəzeti Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirak etdiyi mərasimi diqqət mərkəzində saxladı. Açılışda Birinci vitse-prezident və ailə üzvləri ilə yanaşı, Vatikanın Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskuale Yakobone, Mədəniyyət və Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının sabiq prezidenti, kardinal Canfranko Ravazi və Roma şəhərinin VIII bələdiyyəsinin prezidenti Amedeo Çakkerinin iştirakı hadisənin siyasi və mənəvi baxımdan nə qədər əhəmiyyətli olduğunu göstərdi.





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca rəsmi səfərini və keçirdiyi görüşləri dünya mediası geniş işıqlandırıb. Məsələn, Argentinanın "Real Politik" xəbər agentliyi Mehriban Əliyevanın oktyabrın 17-də Roma Papası XIV Leo ilə görüşünə dair xəbəri manşetdən verib. Məqalədə deyilir ki, Roma Papası XIV Leoya qəbula görə təşəkkürünü bildirən Azərbaycanın Birinci vitse-prezidenti son illər Vatikanla Azərbaycan arasında münasibətlərin daha da möhkəmləndiyini vurğulayıb, Heydər Əliyev Fondunun bərpa işlərində, həmçinin elmi araşdırmalarda, mədəni mübadilələrdə Müqəddəs Taxt-Tacla bir çox layihələri həyata keçirdiyindən məmnunluğunu ifadə edib. "Heydər Əliyev Fondu mədəni və dini dialoqu təşviq edən layihələr vasitəsilə Vatikan ilə əməkdaşlığını bundan sonra da genişləndirəcək", – deyə Mehriban Əliyeva qeyd edib.



Məqalədə o da diqqətə çatdırılır ki, Roma Papası XIV Leo Vatikan ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığın uzun tarixini yüksək qiymətləndirib. Papa Leo Mehriban Əliyevaya irəli sürdüyü təşəbbüslərə görə təşəkkürünü bildirib, onların dinlərarası və sivilizasiyalararası dialoqa çox böyük təkan verdiyini, Azərbaycanın bu baxımdan dünya miqyasında ilk sıralarda yer aldığını qeyd edib. Pontifik, həmçinin ikinci Katolik Kilsəsinin tikintisinə ayrılmış torpaq sahəsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürlərini çatdırmağı xahiş edib, Vatikanın bu birgə layihələrin davam etdirilməsində maraqlı olduğunu bildirib.

Bu, Heydər Əliyev Fondu ilə Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyası arasında hələ 2021-ci il martın 4-də imzalanan müqavilənin uğurlu nəticəsi idi və müsəlman dünyasının bir nümayəndəsinin xristianlığın ən qədim irsinin qorunmasına verdiyi töhfə kimi qlobal siyasi lüğətə yeni sivilizasiyalararası əməkdaşlıq səhifəsi əlavə etdi. Məhz bu hadisə Azərbaycanın xarici siyasətində getdikcə mərkəzi yer tutan yumşaq güc strategiyasının, humanitar diplomatiyanın ən parlaq və ən təsirli təzahürüdür.

Bu diplomatik uğurun beynəlxalq arenada yaratdığı təsir dalğası hansı siyasi nəticələrə səbəb olur? Birincisi, Azərbaycanın multikulturalizm və tolerantlıq modelini nəzəriyyədən praktikaya, milli səviyyədən qlobal miqyasa yönəltdiyini sübuta yetirir. Dünyanın dini və mədəni zəmində parçalandığı, abidələrin dağıdıldığı dövrdə müsəlman-türk ölkəsinin katolik dünyasının mərkəzində xristian irsinin bərpasına dəstək verməsi ölkənin qərəzli "dini dözümsüzlük" iddiaları ilə təsirləndirilməsinin qarşısını alan ən güclü diplomatik müdafiədir. Vatikanla bu səviyyədə qurulan əməkdaşlıq Azərbaycanın qlobal mənəvi və siyasi təsir mərkəzləri ilə strateji tərəfdaşlıq qurmaq bacarığını nümayiş etdirir. Bu, həm də ölkənin beynəlxalq miqyasda imicini və mövqeyini möhkəmləndirmək üçün istifadə etdiyi çox müdrik və uzaqgörən addımdır.

İkincisi, Heydər Əliyev Fondunun beynəlxalq xeyriyyəçilik fəaliyyəti Azərbaycanın yumşaq gücünün coğrafi və mədəni sərhədlər tanımadığının göstəricisidir. 2004-cü ildə təsis edildiyi gündən bu günə qədər Fondun fəaliyyət coğrafiyası onlarla ölkəni əhatə edib və onun beynəlxalq yardımları Azərbaycana qarşı formalaşdırılmağa çalışılan mənfi rəylərin neytrallaşdırılmasında həlledici rol oynayır. Bu fəaliyyət, ölkənin dünya mədəniyyətinə və humanitar dəyərlərinə verdiyi töhfənin miqyası ilə ölçülür.

***

Fondun qlobal uğurlarının legitimliyi onun Azərbaycanın daxili siyasi-sosial problemlərin həllinə necə yanaşmasından qaynaqlanır. Xarici siyasətdəki humanitar diplomatiya daxili sosial siyasətin təməli üzərində ucalır. Bu daxili siyasət isə Vətən müharibəsi şəraitində formalaşan milli prioritetləri və cəmiyyətin ən həssas təbəqələrini əhatə edir.

Heydər Əliyev Fondunun daxili siyasi fəaliyyətinin zirvəsini Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canından və sağlamlığından keçmiş Vətən övladlarına yönəlmiş sistemli və hərtərəfli qayğısı təşkil edir. Bu, dövlət - vətəndaş birliyinin və milli həmrəyliyin ən bariz təzahürü olan müqəddəs missiyadır. 44 günlük Vətən müharibəsindən sonra yaradılan "YAŞAT" Fonduna ilk böyük ianəni məhz Heydər Əliyev Fondu etməklə milli səfərbərliyə mənəvi təkan verdi.

Lakin fondun fəaliyyəti maddi dəstəklə məhdudlaşmır. Təşkilat qazilərin və şəhid ailələrinin həyatının hər bir aspektini əhatə edən kompleks yanaşma sərgiləyir. Ən vacib istiqamətlərdən biri, şübhəsiz, yaralı hərbçilərimizin sağlamlığının bərpasıdır. Fond mürəkkəb cərrahi əməliyyatların istər ölkə daxilində, istərsə də dünyanın qabaqcıl klinikalarında aparılmasını təşkil edir. Hər bir qazinin sağlamlıq durumu fərdi şəkildə izlənilir və ən optimal müalicə kursu müəyyənləşdirilir.

Bununla yanaşı, fondun nadir təşəbbüslərindən biri əzalarını itirmiş qazilərimizin dünyanın ən son texnoloji nailiyyətlərinə əsaslanan yüksək texnologiyalı protezlərlə təmin edilməsidir. Bu, insanların həyata yenidən bağlanması, onların sosial fəallığının bərpası və həyat keyfiyyətinin əsaslı şəkildə yaxşılaşdırılması deməkdir.

Müharibənin görünməyən yaraları olan psixoloji travmalarla mübarizə də fondun prioritetləri sırasındadır. Peşəkar psixoloqların və reabilitasiya mərkəzlərinin cəlb edilməsi ilə qazilərimizə və onların ailə üzvlərinə davamlı psixoloji dəstək göstərilir. Bütün bunların məntiqi yekunu isə qazilərimizin cəmiyyətə tam reinteqrasiyası, onların yeni peşələrə yiyələnməsi və kiçik bizneslərini qurması üçün yaradılan imkanlardır. Bu, Vətənə xidmətin təkcə döyüş meydanında yox, həm də sülh dövründə davam etdiyini və dövlətin qəhrəmanlarını heç vaxt unutmadığını göstərən ən güclü mesajdır.

Dövlətin və cəmiyyətin mənəvi sağlamlığının ən mühüm göstəricisi onun gələcəyi olan uşaqlara, xüsusən də onların ən həssas təbəqəsinə və müdafiəsiz olanlara münasibətidir. Heydər Əliyev Fondu bu prinsipi fəaliyyətinin təməl daşlarından birinə çevirmişdir. Fondun təsis edildiyi ilk günlərdən həyata keçirilən "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı Azərbaycanın sosial siyasətində inqilab etdi. Bu proqram çərçivəsində ölkə üzrə onlarla uşaq evi, internat məktəbi və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün müəssisə köhnə, sovet dövründən qalma standartlardan fərqli müasir tələblərə uyğun şəkildə yenidən quruldu. Bu, bütün infrastrukturun – istilik sistemindən tutmuş yataq otaqlarına, tədris kabinetlərindən idman zallarına qədər tamamilə yenilənməsi idi. Lakin daha vacibi maddi şəraitin yaxşılaşdırılması ilə yanaşı, müəssisələrdəki təlim-tərbiyə prosesinə yeni yanaşmanın gətirilməsidir. Uşaqların istedadının üzə çıxarılması üçün müxtəlif dərnəklərin yaradılması, onların psixoloji reabilitasiyası və cəmiyyətə inteqrasiyası üçün xüsusi proqramların tətbiqi Fondun fəaliyyətinin əsasını təşkil edir. Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi kimi nadir layihələr isə Fondun inklüziv cəmiyyət quruculuğuna verdiyi töhfənin parlaq nümunəsidir. Bu mərkəz minlərlə ailəyə ümid işığı olmuş və bu uşaqların potensialını reallaşdırmaq üçün Azərbaycanda yeni imkanlar yaratmışdır.

Səhiyyə sahəsi, ümumilikdə, Fondun fəaliyyətinin əsasını təşkil edir. Məhz Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Bakıda Cənubi Qafqazda analoqu olmayan Talassemiya Mərkəzi yaradıldı. Bu, minlərlə insanın həyatını xilas edən və onlara normal həyat sürmək imkanı verən həyati əhəmiyyətli layihədir. Fondun fəaliyyəti sayəsində şəkərli diabet, dializ və digər xroniki xəstəliklərdən əziyyət çəkən insanlar üçün müasir tibb mərkəzləri yaradılmış, səhiyyə müəssisələrinin maddi-texniki bazası gücləndirilmiş və vətəndaşların xaricdə müalicəsi mütəmadi olaraq təşkil edilmişdir. Fondun ardıcıl fəaliyyəti Azərbaycan vətəndaşlarının sağlamlığının və rifahının dövlətin əsas prioriteti olduğunu praktikada sübut edir.

* * *

Onu da qeyd edək ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın qlobal və əlahiddə təşəbbüsləri müasir dünyanın narahatedici çağırışlarının çoxluğu fonunda Azərbaycan ilə xristian dünyası arasında mədəni və dini körpülər qurmaq üçün yeni diplomatik imkanlar açır. Azərbaycanın humanitar diplomatiyada yeni yanaşma kimi təqdim etdiyi mədəniyyət və din körpüsü, mədəni irsin qorunması sahəsində əməkdaşlıq diplomatik əlaqələrin dərinləşdirilməsi yönündə etibarlı platformadır. Əməkdaşlığın bu forması özündə həm dövlətlər arasında etimadı, həm də sülhsevər və açıq xarici siyasəti ehtiva edir.

Beləliklə, beynəlxalq və daxili fəaliyyət vəhdət təşkil edərək bir-birini tamamlayır və gücləndirir. Vatikandakı katakombaları bərpa edən layihə ilə Bakıda talassemiyalı bir uşağın həyatını xilas edən tədbirlər eyni fəlsəfədən və humanizmdən güc alır. Məhz belə genişmiqyaslı daxili sosial baza üzərində qurulan xeyriyyə təşkilatının beynəlxalq arenadakı addımları səmimi, etibarlı və siyasi baxımdan məqsədəuyğun görünür.

Heydər Əliyev Fondu Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yerini möhkəmləndirən, onun nüfuzunu artıran və milli maraqlarını müdafiə edən güclü humanitar quruma, təsirli yumşaq güc institutuna çevrilib. Romada yandırılan məşəl Azərbaycanın beynəlxalq aləmdə aydın gələcəyini işıqlandırır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

## 21 ilin humanitar statistikası

Bu missiya 2004-cü ildən başlayaraq qitələri aşan xeyirxahlıq və mədəniyyət şəbəkəsi hörmüşdür. Fondun beynəlxalq arenadakı fəaliyyətini rəqəmlərin quru dilindən çıxarıb, onun yaratdığı strateji təsirin miqyasını anlamaq üçün görülən işlərin məzmununa varmaq lazımdır.

* Fondun dəstəyi ilə İtaliyada Vatikandakı Komodilya katakombaları da daxil olmaqla, bir sıra kilsələr və dini abidələr bərpa edilib. Lakin bu fəaliyyət İtaliya ilə məhdudlaşmır. 2007-ci ildən başlayaraq Fransanın ürəyi sayılan Paris Luvr Muzeyinin İslam incəsənəti bölməsinin yenidən qurulmasına verilən dəstək və Versal Sarayının nadir abidələrinin bərpası kimi unikal layihələr Azərbaycanın adını Avropa mədəniyyətinin beşiyi sayılan məkanlarda əbədiləşdirir.

* 2009-cu ilin iyun ayında Strasburq Kafedralının qədim vitrajlarının restavrasiyası isə Avropa siyasətinin mərkəzində, Avropa Şurasının yerləşdiyi şəhərdə həyata keçirilən simvolik jest idi. Ümumilikdə, ondan artıq ölkədə iyirmidən çox dünya əhəmiyyətli tarixi-mədəni abidənin bərpası və konservasiyasına dəstək verilməsi, Azərbaycanın qlobal mədəni irsin məsuliyyətli bir hamisinə çevrildiyini göstərir. Təhsil sahəsində isə fondun fəaliyyəti daha da genişmiqyaslıdır.

* 2005-ci ildən başlayaraq "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində Rusiya, Rumıniya, Misir, Gürcüstan, Pakistan, Niderland kimi ölkələrdə məktəblərin inşası və əsaslı təmiri həyata keçirilib. Məsələn, 2005-ci ildə Pakistanda baş verən zəlzələdən sonra Rara qəsəbəsində qızlar üçün müasir məktəb binasının inşasına başlanılmış və 2007-ci ildə istifadəyə verilmişdir.

* Ümumilikdə, bu layihələr çərçivəsində xarici ölkələrdə yüzdən çox yeni məktəb tikilib və ya mövcud təhsil müəssisələri əsaslı təmir olunaraq müasir avadanlıqlarla təchiz edilib. Bu, Azərbaycanın gələcəyə investisiya kimi təhsilə və insan kapitalına qlobal səviyyədə verdiyi dəyərin bariz göstəricisidir.

* Pakistan, Haiti, Rumıniya, Bosniya və Herseqovina, Yaponiya və digər ölkələrdə baş verən təbii fəlakətlər və humanitar böhranlar zamanı isə Fond tərəfindən on beşdən artıq böyük miqyaslı humanitar yardım kampaniyası həyata keçirilib. Bu yardımlar sadəcə ərzaq və dərman təchizatından ibarət olmayıb, həm də infrastrukturun bərpasına, məktəblərin tikintisinə yönəldilib. Fondun dəstəyi ilə sivilizasiyalararası dialoq və mədəni əməkdaşlıq mövzusunda onlarla beynəlxalq konfrans, forum və sərginin təşkil edilməsi isə onun ideoloji və intellektual müstəvidə də fəal olduğunu sübut edir.

* 2023-cü ilin oktyabrında Fond nümayəndələri Taihu Dünya Mədəniyyət Forumunun 7-ci illik konfransında iştirak ediblər. Həmçinin, Fondun vitse-prezidenti Leyla Əliyeva 2025-ci ilin fevralında 4-cü Ər-Riyad Beynəlxalq Humanitar Forumunda iştirak etmişdir. Bu kimi tədbirlər Fondun qlobal humanitar və mədəni dialoqda fəal rolunu göstərir.

Bu statistika Heydər Əliyev Fondunun fəaliyyətinin qlobal miqyaslı və strateji humanitar missiyadan ibarət olduğunu göstərir. Fondun xaricdə bərpa etdiyi hər bir abidə Azərbaycanın nüfuzunun və əlaqələrinin mühüm elementinə çevrilir.

# Azərbaycan diplomatiyasının Qızıl dövrünün 15 gündə 4 zirvəsi

*(əvvəli 1-ci səhifədə)*

Qahirə görüşündə Donald Trampın İlham Əliyevin şəxsinə göstərdiyi diqqət və iltifat Azərbaycanın artıq qlobal çəkili aktora çevrildiyinin göstəricisidir. Misir paytaxtının ən möhtəşəm sarayında dünyanın seyr etdiyi mənzərə Azərbaycan Prezidentinə olan dərin hörmətdən, onun sülh carçısı missiyasına güvəncdən, ölkəmizin qlobal proseslərdə getdikcə artan rolundan və onun yüksək imicindən xəbər verirdi. Bu imic İlham Əliyevin uzun illər ardıcıl şəkildə formalaşdırdığı müstəqil qərarvermə mədəniyyətinə, sabit xarici siyasətinə, zərgər dəqiqliyi ilə nəticəyə hesablanmış diplomatik davranışına söykənir.

Etiraf etmək lazımdır ki, qlobal qeyri-müəyyənliklər, siyasi qütbləşmə və regional qarşıdurmalar fonunda çox az dövlətlər var ki, eyni anda fərqli güc mərkəzləri tərəfindən qəbul edilir, vasitəçi kimi etibar qazanır. Azərbaycan bu baxımdan istisna nümunədir. Məhz bu müsbət imic ölkəmizə, eyni zamanda, Vaşinqton, Moskva, Ər-Riyad, Qahirə və Pekin kimi paytaxtlarla bərabər səviyyədə dialoq qurmaq fürsəti verir.

Azərbaycana göstərilən etimadın əsas dayağı İlham Əliyevin sülh diplomatiyasının praktik nəticələridir. 2020-ci ilin payızında torpaqlarını işğaldan azad edən Azərbaycan regionda yeni siyasi reallıq yaratmaqla yanaşı, bu reallığı sülh dili ilə davam etdirir. Bu yanaşma beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə izlənildi və qəbul edildi. ABŞ Prezidenti Donald Trampın Qahirə Sammitində Ağ Evdə Azərbaycan və Ermənistan liderləri ilə avqustun 8-də keçirilmiş görüşü xatırladaraq söylədi: “Mən bu yaxınlarda bu şəxs üçün müharibəni bitirdim. Onlar 31 il vuruşdular. Dairəvi Ofisdə bir-birinə əks tərəfdə oturmuşdular. Amma bir saatı bitirdiyimiz zaman hər ikisi bir-birini qucaqlayırdı. İndi onlar dostdurlar və çox gözəl anlaşırlar. Ona görə də hər ikinizə təşəkkür etmək istəyirəm. Bu, həqiqətən inanılmazdır”, – sözləri, əslində, İlham Əliyevin müəllifi olduğu yeni reallığın dünyanın “supergüc”ü tərəfindən səmimi etirafı sayıla bilər.

Bəli, Azərbaycan bu gün sülhün və sabitliyin carçısı kimi qəbul edilir. Həm Yaxın Şərqdə, həm Qlobal Cənubda, eləcə də Afrikada onun etibarlı vasitəçi obrazı gücə əsaslanmayan, amma gücləri bir masaya gətirə bilən diplomatiyanın məhsuludur. Bakı bu gün silah dilindən yox, etimad dilindən istifadə edir. Məhz bu amilə görə ərəb ölkələri, Avropa İttifaqı, Çin, ABŞ üçün Azərbaycan qlobal sabitlik lövhəsində balans elementinə çevrilib.

* * *

İlham Əliyevin diplomatiyasında diqqəti cəlb edən maraqlı detal son illər çoxlaylı koordinasiya sistemləri üzərində işləməsidir. Dövlətimizin başçısı bir tərəfdən Rusiya ilə regiondakı tarixi və strateji balansı qoruyur, digər tərəfdən Qərblə enerji və iqtisadi inteqrasiyanı genişləndirir, eyni zamanda İslam dünyası ilə siyasi həmrəyliyi və mənəvi yaxınlığı saxlayır. Bunların üzərinə Yaxın Şərq xəttini gəlsək, bu dörd istiqamətin paralel şəkildə işləməsi Azərbaycanı dünyanın kəsişmə nöqtəsinə çevirdiyini söyləyə bilərik. Burada nə ziddiyyət, nə də qarşıdurma var, əksinə, maraqların uzlaşdırıldığı unikal diplomatik coğrafiya var.

15 günün təqvim yaddaşına yazılmış anlardan biri də Azərbaycan Prezidentinin Fransa lideri Emmanuel Makronla görüşü oldu. Parisin son illər Cənubi Qafqaz siyasətində birtərəfli yanaşması fonunda İlham Əliyevin Fransa lideri ilə dialoqa getməsi, əslində, Bakının rasional maraqlarla hərəkət etdiyini göstərdi. Azərbaycan Fransa ilə münasibətləri bərabərhüquqlu və məsuliyyətli tərəfdaşlıq səviyyəsində saxlamağa çalışır. Bu, İlham Əliyevin diplomatik üslubunda incə ştrixlərlə ifadə olunur: tənqidə cavab diplomatiya ilə verilir, təkzib diplomatik nəticə ilə. Makronla təmas, əslində, Avropaya ötürülən siqnal idi: Bakı münasibətlərin bərabər tərəfdaşlıq əsasında yenidən qurulmasını istəyir.

Azərbaycanın Yaxın Şərqdə artan rolu təkcə diplomatik fəallıqla deyil, həm də etimad iqtisadiyyatı üzərində qurulub. Regionda bir çox güc mərkəzləri bir-birinə qarşı şübhə ilə yanaşdığı halda, Azərbaycan Şərq, həm də Qərb tərəfindən eyni səviyyədə qəbul olunur. Bu etimadın sirri Azərbaycanın ideoloji neytrallığında və diplomatik sabitliyində gizlənir. Rəsmi Bakı öz mövqeyini heç vaxt “blok diplomatiyası” üzərində qurmayıb. Bakı heç vaxt “İslam kartı”ndan istifadə etməyib, amma müsəlman aləmində hörmət qazanıb. “Qərb kartı” ilə oynamayıb, amma Avropa ilə strateji tərəfdaşlığa nail olub. Bəli, Azərbaycan regionda nadir fenomen yaradır: o, fərqli dini, siyasi və iqtisadi kimliklər arasında təmas nöqtəsi rolunu oynayır. Burada əsas prinsip aydındır – Bakı öz davranış ardıcıllığını ixrac edir və bu ardıcıllıq sabitlik üzərində qurulub.

Qlobal təhdidlərlə üzləşən müasir dünyamızda inam qıtlığının dərinləşdiyi bir vaxtda Azərbaycan etimad ixrac edən nadir ölkələrdən birinə çevrilib. Prezident İlham Əliyevin diplomatik fəlsəfəsi bu etimadı həm Qərb, həm də Şərq meridianında eyni anda möhkəmləndirə bilib. Məhz bu, XXI əsrin çoxqütblü dünyasında balans üzərində qurulmuş müstəqil liderlik modelidir.

Bunu tam əminliklə deyə bilərik ki, bu gün Azərbaycan dünyanın dəyişən güc arxitekturasında “mərkəz oyunçu” rolunda çıxış edir. Bakı cəmi 15 gün ərzində sərgilədiyi mövqeyi ilə çağdaş siyasətin sərt məntiqi, diplomatiyanın praqmatik və soyuq hesabı, eləcə də etimadın humanitar dəyəri ilə bütün qlobal oyunçuları eyni məxrəcə gətirməyi bacardı. Bu gün beynəlxalq münasibətlərdə axtarılan ən optimal model məhz budur – müharibə olmadan güc, tərəfkeşlik etmədən təsir, qarşıdurma yaratmadan balans yaratmaq.

Beləliklə, dünyaya sülh və sabitlik modelini XXI əsrdə özünün Qızıl Dövrünü yaşayan Azərbaycan diplomatiyası təqdim edir.

***İmran BƏDİRXANLI***
***XQ***




***Ekspert rəyi***
**Tofiq ABBASOV,**
**siyasi icmalçı**



Prezident İlham Əliyevin son iki həftə ərzində dünya gündəminin ən vacib məsələlərinin müzakirə olunduğu müxtəlif coğrafiyalar və platformalarda iştirakı Azərbaycanın tarixin sülh və ədalət cinahında yer aldığını bir daha təsdiqləmiş oldu. Bu prinsipial və şəffaf siyasətin reallaşması ölkəmizin prioritetlərinə tam uyğundur. Həmin sülhyaratma prosesində Azərbaycanın oynadığı rol konstruktiv və faydalıdır. Misal üçün, TDT-nin Qəbələ görüşünün hansı çağırışlar və mesajlar əsasında keçdiyini hamı gördü. Bu, regional sülh və təhlükəsizlik mesajı idi. Azərbaycanın təqdim etdiyi bu gündəmi elə digər qlobal tədbirlərə də şamil etmək mümkündür.

Sirr deyil ki, dünyanı öz çağırışları ilə təhdid edən qlobalistlər təhlükəli ssenarilər qurur, ayrı-ayrı ölkələrin suverenliyini şübhə altına qoyurlar. Onlara görə, ölkələr dövlətçilik missiyasını başa vurublar və bu prinsiplərdən uzaqlaşmaq lazımdır. Planlarından biri də Azərbaycanı təslimçilik mövqeyinə sürükləmək idi. Amma yanıldılar. İlham Əliyev məhz güc yolu ilə Ermənistanı sülhə vadar etdi və sonra bu konsepsiyanı dünyaya təqdim etdi. İndi ABŞ Prezidenti Donald Tramp da planetin bütün qaynar nöqtələrində bu konsepsiyaya söykənərək özünün sülh kəmərini qurmağa çalışır. Qahirədə baş tutan Yaxın Şərq Sülh Sammitində ABŞ liderinin İlham Əliyevə xitabən söylədiyi təriflər Azərbaycan liderinin məhz sülh istiqamətində həyata keçirdiyi uğurlu diplomatiyasının zəfəri və bu təcrübədən yararlanmaq nümunəsi kimi tarixə düşdü. Avropa Siyasi Birliyinin Kopenhagen görüşündə Fransa Prezidenti Makronun özünün İlham Əliyevə doğru hərəkət etməsini, səmimi şəkildə salamlamasını və ayaqüstü dialoqunu gördük. Yəni rəsmi Paris bu jesti ilə Azərbaycanla bağlı mövqeyinin yanlış olduğunu anladığını nümayiş etdirmiş oldu. Mən buna Makronun özünəməxsus üzrxahlığı deyərdim. Avropanın aparıcı ölkələrinin rəhbərlərinin dövlət başçımızı alqışladıqdan sonra müzakirələrə başlamaları da diqqətdən yayınmadı. Bu, Azərbaycan Prezidentinin düzgün diplomatiyasının və əldə etdiyi uğurlarının Avropada və dünyada böyük dəstək qazanmasının təzahürü sayılmalıdır. Münaqişələrin həllində Azərbaycan təcrübəsi onlar üçün artıq bir etalondur.

# Türk dünyasında strateji əlaqələndirmə və Avrasiyada yeni güc mərkəzi quruculuğu

## *Azərbaycan–Qazaxıstan əməkdaşlığı postsovet məkanında inteqrasiya modelidir*

**Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana dövlət səfəri iki ölkə arasında 20 illik müttəfiqlik modelinin məntiqi davamı olmaqla yanaşı, Türk dünyasının Avrasiya məkanında formalaşdırdığı yeni strateji güc arxitekturasının da mühüm tərkib hissəsidir.**

Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri iki ölkənin strateji əməkdaşlığında yeni bir mərhələnin başlanğıcını simvolizə edir. Dövlət başçımızın dost və qardaş Qazaxıstana sayca səkkizinci səfəri regional sabitliyi və inkişafı Türk dünyasının geosiyasi dayaqları üzərində qurmaq məqsədini əks etdirir. İlham Əliyev və Kasım Jomart Tokayevin koordinasiyalı təşəbbüsləri Azərbaycan və Qazaxıstanın milli maraqlarını paralel şəkildə gücləndirməklə yanaşı, Avrasiya məkanında təsir imkanlarını genişləndirir. İki dövlət arasında mövcud strateji birlik regional siyasətdə aktiv aktor mövqeyini möhkəmləndirir və postsovet məkanında inteqrasiya modelinin əsas sütunlarını formalaşdırır.

İki dövlət arasında hüquqi baza artıq 170-dən çox sənədi əhatə edir və postsovet məkanında ən sistemli inteqrasiya nümunələrindən birini təşkil edir. Strateji Müttəfiqlik haqqında 20 illik müqavilə ölkələrin milli maraqlarını bir trayektoriya üzrə sinxronlaşdıraraq regionda davamlı və proqnozlaşdırıla bilən siyasət məkanını formalaşdırır. Siyasi baxımdan bu səfər iki liderin regional siyasətdə aktiv rol oynamaq niyyətini təsdiqləyir. Azərbaycan və Qazaxıstan regionda proseslərin inkişaf trayektoriyasını müəyyənləşdirən aktorlardır. Belə bir “strateji sinxronizasiya” Türk dünyasında sabitlik və inteqrasiya prosesinə töhfə verən institusional dayağın yaradılmasıdır. Deməli, Azərbaycan–Qazaxıstan tandeminin strateji planlaşdırma modeli artıq regional siyasətdə nümunəvi bir konsepsiya kimi çıxış edir.

* * *

Astanada keçirilən ikinci Ali Dövlətlərarası Şuranın iclası Azərbaycan–Qazaxıstan münasibətlərində yeni mərhələnin rəsmi simvolu, iki dövlət arasında strateji koordinasiyanın və uzunmüddətli planlaşdırmanın institusional məkanıdır. Xatırladaq kı, Şuranın ilk iclası Qazaxıstan liderinin Azərbaycana ötənilki səfəri zamanı baş tutmuşdu. Astanadakı görüş isə əlaqələrin intensivləşməsini və inteqrasiya səviyyəsinin yeni müstəviyə çıxmasını nümayiş etdirir.



İclas çərçivəsində tərəflər enerji və nəqliyyat sahələrindən çıxış edərək, iqtisadiyyatın rəqəmsallaşdırılması, “yaşıl texnologiyalar” və müdafiə sənayesində strateji mexanizmlərin qurulmasına diqqət ayırırlar. Şura, faktiki olaraq, qarşılıqlı planlaşdırma və prioritetlərin uzlaşdırılması üçün “Ali Strateji Planlaşdırma Mərkəzi” funksiyasını yerinə yetirir və Azərbaycan–Qazaxıstan mütəffiqliyinin nümunəvi koordinasiya modelini ortaya qoyur. Aydın görünən odur ki, regionda sabitlik və inkişaf, dövlətlərin maraqlarının paralel hərəkət trayektoriyasına əsaslanan uzunmüddətli planlarla təmin olunur. Azərbaycan və Qazaxıstan institutlaşdırılmış dialoq və sistemli qərarvermə vasitəsilə Türk dünyasının strateji inteqrasiyasını gücləndirirlər.

* * *

Azərbaycan–Qazaxıstan tandemi Türk Dövlətləri Təşkilatının (TDT) gələcəyi baxımından da həlledici rol oynayır. Qeyd etməliyik ki, TDT artıq mədəni və humanitar əməkdaşlıq platformasından çıxaraq strateji resursların koordinasiyası, təhlükəsizlik və iqtisadi inteqrasiyanın institusional mərkəzinə çevrilir. Belə bir transformasiya Şuşa və Qəbələ zirvələri ilə də təsdiqləndi; hər iki zirvə Türk dünyasında liderlik və koordinasiya mexanizmlərinin inkişafına yönəlmiş dönüş nöqtəsi rolunu oynadı.

Azərbaycan və Qazaxıstan bu prosesdə siyasi və iqtisadi mərkəzləşməyə yönəlmiş inteqrasiya təşəbbüslərini müəyyən edir. Şuşa Bəyannaməsi türkdilli dövlətlər arasında təhlükəsizlik və müdafiə əməkdaşlığının əsas konturlarını formalaşdırdı, Qəbələ Zirvəsi isə bu strukturu iqtisadi və texnoloji inteqrasiya ilə tamamlayaraq regionun strateji güc potensialını artırdı. Qeyd etməliyik ki, TDT artıq regional və iqtisadi siyasətin formalaşmasında əsas aktor roluna yüksəlir və Qərb-mərkəzli beynəlxalq nizamın dominant mövqeyinə alternativ təqdim edən platformaya çevrilir. Təşkilat türk dövlətləri arasında koordinasiyanı gücləndirir, strateji resursların idarə edilməsində qərarvermə imkanlarını mərkəzləşdirir və suveren, çoxqütblü təsir modelini praktik olaraq formalaşdırır.

Son tədbirlərdə qəbul edilən qərarlar Türk dünyasının qlobal səviyyədə təsir imkanlarını genişləndirir. Azərbaycan və Qazaxıstan tandeminin təşəbbüsləri TDT-nin institutlaşdırılmış strukturlar vasitəsilə strateji inteqrasiya prosesini sürətləndirməsi və Türk dünyasının qlobal arenada rəqabətqabiliyyətli aktor kimi mövqeyini möhkəmləndirməsi üçün açar rolunu oynayır.

* * *

Azərbaycan və Qazaxıstanın beynəlxalq təşkilatlarda koordinasiyası regional siyasət üçün strateji əhəmiyyət daşıyır. Hər iki dövlət BMT, İƏT, ATƏT, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi kimi platformalarda ortaq mövqelərlə çıxış edərək regionda sabitliyi qorumaq və geniş Avrasiya məkanında balanslı təsir yaratmaq imkanlarını gücləndirir. Belə bir yanaşma Türk diplomatiyasının institusional sinerjisini formalaşdırır və qlobal arenada normativ rolu genişləndirir.

Azərbaycanın beynəlxalq məsələlərdə “Qlobal Cənub”un səsi kimi fəaliyyəti Qazaxıstanın çoxtərəfli balanslaşdırılmış siyasəti ilə uzlaşdırıldıqda postsovet məkanında yeni tipli diplomatiyanın konturlarını ortaya qoyur. Qeyd edə bilərik ki, Azərbaycan və Qazaxıstan tandeminin çoxtərəfli koordinasiyası Türk dünyasının qlobal təsir imkanlarını artırmaqla yanaşı, regional diplomatiya üçün strategiya və qərarvermə nümunəsi yaradır. İki dövlət arasındakı platforma Qərb və Şərq arasında körpü funksiyasını da icra edərək, Türk dünyasının siyasi və iqtisadi maraqlarının beynəlxalq səviyyədə daha effektiv müdafiəsini şərtləndirir.

* * *

Azərbaycan və Qazaxıstan arasındakı əməkdaşlıq Avrasiya iqtisadi xəritəsinin yenidən formalaşmasına təkan verir. Orta Dəhliz layihəsi vasitəsilə Bakı və Astana yük daşımalarını optimallaşdırır və regionda nəqliyyat və logistika infrastrukturunun strateji mərkəzlərini yenidən müəyyənləşdirir.

Xəzər dənizi bu əməkdaşlığın əsas arteriyasına çevrilib. Liman infrastrukturlarının sinxron inkişafı, tranzit gəlirlərinin şaxələndirilməsi və yük dövriyyəsinin artması regionun strateji avtonomluğunu möhkəmləndirir. Hər iki ölkənin enerji və nəqliyyat siyasəti bir-birini tamamlayaraq Avropaya və dünyaya çıxış imkanlarını optimallaşdırır. Azərbaycan Qazaxıstan üçün Avropaya çıxış qapısı rolunu oynayır, Qazaxıstan isə Azərbaycan üçün Mərkəzi Asiya bazarına strateji keçid yaradır.



Dövlətlərarası mütəffiqlik müasir enerji və nəqliyyat diplomatiyasının inteqrasiya olunmuş modelini təqdim edir. Beləliklə, İlham Əliyevin Qazaxıstana səfəri Türk dünyasının geosiyasi konsolidasiyasının və Avrasiya məkanında yeni güc balansının qurulmasının strateji hadisəsidir. Prezdentin səfəri göstərir ki, milli maraqların koordinasiyası və inteqrasiya edilmiş siyasət modeli regionda sabitliyin təmin edilməsində əsas rol oynayır.

Birmənalı olaraq deyə bilərik ki, Azərbaycan–Qazaxıstan əməkdaşlığı Türk dünyasının gələcəyini strateji koordinasiya, çoxtərəfli diplomatiya və siyasi realizm prinsiplərinə əsaslanaraq qurur və Avrasiya məkanında dayanıqlı inteqrasiya və təsir arxitekturasının yaradılmasına töhfə verir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# TDT-nin ortaq təhdidlərə qarşı "polad" iradəsi

## *Dost və qardaş dövlətlərin yeni təhlükəsizlik arxitekturası qurulur*

**Siyasətdə sözlərin çəkisi onların arxasındakı iradənin gücü və reallığa çevrilmə sürəti ilə ölçülür. Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyevin səsləndirdiyi təşkilat çərçivəsində təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsi və birgə hərbi təlimlərin keçirilməsi zərurəti barədəki bəyanatı o zaman bəziləri üçün uzaq perspektivin diplomatik konturları kimi görünürdü. Lakin bugünün geosiyasi reallığı göstərir ki, həmin sözlər Avrasiyanın güc xəritəsini yenidən cızan konkret fəaliyyət planının anonsu imiş. Bu gün Mərkəzi Asiyanın poliqonlarında Bakı, Astana, Bişkek, Daşkənd və Düşənbənin xüsusi təyinatlı qüvvələrinin birgə təlimlərə başlaması Zirvə görüşündə səslənən siyasi iradənin polada və barıta çevrilməsinin təcəssümüdür. Bu, ortaq təhdidlər və strateji zərurət qarşısında polad iradənin doğulmasıdır. Poliqonlarda səslənən atəş səsləri, əslində, beynəlxalq arenaya yeni güc mərkəzinin daxil olmasının diplomatik siqnalıdır.**



Üç mərhələdən ibarət və mürəkkəb proseslər üzrə keçirilən təlimlər öz mahiyyəti etibarilə TDT-nin təkamülündə yeni səhifə açır. Dövlət sərhədinin mühafizəsinin və müdafiəsinin gücləndirilməsi, qanunsuz silahlı birləşmələrin axtarışı, mühasirəyə alınaraq zərərsizləşdirilməsi və məhv edilməsi kimi tapşırıqlar regionun üzləşdiyi real və potensial təhdidlərin dəqiq diaqnozudur. Əsas diqqətin iştirakçı ölkələrin hərbi kontingentləri arasında qarşılıqlı əlaqənin və birgə əməliyyatlar keçirmə bacarığının təkmilləşdirilməsinə yönəldilməsi birliyin real döyüş şəraitində vahid sistem kimi fəaliyyət göstərməyi hədəflədiyini sübut edir. Bu, artıq Türk birliyinin konkret hərbi-strateji əməkdaşlıq platformasına keçidinin dönməzliyini təsdiqləyir. Bu, Türk dünyasının öz təhlükəsizliyinin qarantı roluna iddiasının ilk praktiki addımıdır. Hərbi inteqrasiyanın beynəlxalq təsirini anlamaq üçün onun cərəyan etdiyi geosiyasi konteksti dərindən anlamaq lazımdır. Birincisi və ən əsası, təlimlər postsovet məkanında yeni reallığın yarandığı dövrə təsadüf edir. TDT çərçivəsində hərbi yaxınlaşma strateji gedişdir. Türk dövlətləri dünyaya mesaj verirlər ki, onlar artıq öz təhlükəsizliklərini təmin etmək üçün kənar qüvvələrə möhtac qalmaq fikrindən uzaqdırlar və regionun taleyini özləri həll etmək iqtidarındadırlar.

İkinci mühüm amil Azərbaycan və Türkiyənin bu prosesdə oynadığı aparıcı roludur. 44 günlük müharibədə qazandığı tarixi Zəfər və ordusunu Türkiyə modeli əsasında, NATO standartlarına uyğun şəkildə modernləşdirməsi ilə region üçün yeni hərbi etalona çevrilən Bakının döyüş təcrübəsi və müasir hərbi texnologiyaları tətbiqetmə bacarığı Mərkəzi Asiya respublikaları üçün son dərəcə cəlbedici modeldir. Türkiyə isə TDT-nin hərbi güc və texnoloji potensial baxımından ən qüdrətli üzvü və eyni zamanda, NATO-nun ikinci ən böyük ordusuna malik ölkə kimi prosesə strateji dərinlik qazandırır. Türkiyənin PUA texnologiyaları, hərbi təlim metodikası və müdafiə sənayesi, bütün Türk dünyasının hərbi potensialını keyfiyyətcə yeni səviyyəyə qaldırmaq gücündədir. Beləliklə, Bakı–Ankara hərbi-strateji xətti TDT məkanına yayılan təhlükəsizlik şəbəkəsinin sütununu təşkil edir.

Təlimlərin tərkibinə diqqət yetirdikdə son dərəcə maraqlı və strateji əhəmiyyətli bir nüans ortaya çıxır: Tacikistanın iştirakı. Tacikistan etnik və linqvistik baxımdan Türk dünyasına mənsub olmasa da, onun bu hərbi əməkdaşlıq formatına qoşulması TDT-nin təhlükəsizlik konsepsiyasının sırf etnik prinsiplərlə məhdudlaşmadığını, daha praqmatik və sintezyönümlü olduğunu göstərir. Əfqanıstanda cərəyan edən proseslər radikalizm və terrorizm təhlükəsi, narkotrafik marşrutları Tacikistan üçün birbaşa ekzistensial təhdiddir. Düşənbə anlayır ki, bu təhdidlərlə təkbaşına və ya effektivliyini itirmiş KTMT çərçivəsində mübarizə aparmaq çətindir. Məhz bu səbəbdən, o, öz təhlükəsizliyini təmin etmək üçün qonşu və eyni təhdidlərlə üzləşən Türk dövlətləri ilə əməkdaşlığa üstünlük verir.

Bu hərbi əməkdaşlığın beynəlxalq arenadakı təzahürləri çoxşaxəlidir. Yeni formalaşan güc mərkəzi Qərb üçün həm imkanlar, həm də müəyyən çağırışlar yaradır. Azərbaycan və Türkiyənin Qərblə olan strateji tərəfdaşlığı bu blokun tamamilə anti-Qərb mövqeyi tutmayacağına təminat yaradır. Digər tərəfdən isə Qərb bu birliyin müstəqil siyasət yürütməsindən və bəzi məsələlərdə maraqlarını Qərbin maraqlarından üstün tutmasından ehtiyat edə bilər. Lakin reallıq ondan ibarətdir ki, TDT-nin güclənməsi Avrasiyada güc balansını çoxqütblü edir, bu da Qərbə yeni diplomatik manevr imkanları açır.

TDT çərçivəsində keçirilən və Prezident İlham Əliyevin siyasi iradəsi ilə gündəmə gətirilən birgə hərbi təlimlər cəsarətli bir gedişdir. Bu, Türk dövlətlərinin öz talelərinə sahib çıxmaq, təhlükəsizliklərini özlərinin təmin etmək və beynəlxalq münasibətlər sistemində müstəqil qütb kimi çıxış etmək iradəsinin dönməzliyini nümayiş etdirir. Prosesin gələcəkdə tamhüquqlu hərbi-siyasi ittifaqa çevrilib-çevrilməyəcəyini zaman göstərəcək. Lakin bir şey aydındır: Türk dünyasının hərbi oyanışı beynəlxalq güc balansında yeni reallıq yaradır.

***Y.YAQUBOĞLU***
***XQ***

*Ekspert rəyi*



**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik**

Türk Dövlətləri Təşkilatının yaranması prosesi Azərbaycan Prezidenti cənab İlham Əliyevin böyük səyləri və fəal mövqeyi ilə sıx bağlıdır. Əgər bu təşkilat Azərbaycan torpaqlarının işğalı zamanı mövcud olsaydı, bəlkə də ərazimiz uzun illər işğal altında qalmazdı. Həmin dövrdə Azərbaycan təkbaşına düşmənlə üzüzə qalmış, beynəlxalq aləmdə isə kifayət qədər dəstək görməmişdi.

44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın beynəlxalq səviyyədə üzləşə biləcəyi risklərə baxmayaraq, Türkiyənin göstərdiyi mənəvi və siyasi dəstək mühüm rol oynadı. Qardaş ölkənin bu mövqeyi Azərbaycanın ərazi bütövlüyünün bərpası prosesini sürətləndirdi və çoxsaylı təhlükələrin qarşısını aldı.

Prezident İlham Əliyev təşkilat çərçivəsində təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığın vacibliyini dəfələrlə vurğulayıb. O, Türk dövlətləri arasında birgə hərbi təlimlərin keçirilməsi təşəbbüsünü irəli sürərək, bu məsələnin geosiyasi reallıqlardan irəli gəldiyini qeyd etmişdi. Müasir dövrdə təhlükəsizlik prioritetlərinin dəyişməsi və beynəlxalq münasibətlər sistemində yeni risklərin meydana çıxması Türk Dövlətləri Təşkilatının da maraqlarını qorumaq üçün müdafiə və təhlükəsizlik tədbirlərini ön plana çəkməsini zəruri edir. Qısa müddət ərzində təşkilata üzv dövlətlərin birgə təlimlər keçirməsi, xüsusən də Azərbaycan və Türkiyənin bu prosesdə aparıcı rol oynaması regionun sabitliyi və təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyır.

Artıq bölgədə yeni güc balansı formalaşır, uzaq coğrafiyalarda yerləşən qüvvələr regiona təsir imkanlarını genişləndirməyə çalışırlar. Belə bir şəraitdə Türk Dövlətləri Təşkilatının müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığı daha da aktuallaşır. Bu prosesdə qardaş Türkiyənin inkişaf etmiş hərbi-sənaye kompleksi xüsusi qeyd olunmalıdır. Eyni zamanda, Azərbaycanın da güclü ordusu, inkişaf etmiş müdafiə sənayesi və döyüş meydanlarında qazandığı zəfərlər təşkilatın təhlükəsizlik potensialını daha da gücləndirir.

# Avropada gündəmin "dirijor"u dəyişirmi?

## *Media və siyasi kommunikasiya sağ radikal diskursu geniş auditoriyaya yayır*

**Son dövrlər Avropa siyasi səhnəsində müşahidə olunan əsas meyillərdən biri sağ radikal partiyaların təsirinin artmasıdır. Proses həm seçki nəticələrində, həm də ictimai diskursun və siyasi kommunikasiya üslubunun transformasiyasında özünü göstərir. Almaniyada aparılmış tədqiqatın nəticələrinə görə, mərkəzçi partiyalar getdikcə daha çox sağ radikal qüvvələrin müəyyən etdiyi gündəliyə reaksiya verərək öz ritorikalarını bu istiqamətə uyğunlaşdırmağa başlayıblar. Bu isə sağ radikal ideyaların legitimləşməsinə səbəb olub.**

Ümumiyyətlə, mərkəzçi partiyaların kommunikasiya strategiyaları sağ radikal qüvvələrin seçki uğrunda mübarizəsində mühüm rol oynayır. Burada əsas mexanizm diqqət çəkmək uğrunda mübarizədir. Yəni kim ictimai diqqəti üzərinə çəkirsə, seçicilər üçün vacib məsələləri müəyyənləşdirə bilir. Beləliklə, sağ radikal partiyalar mediada daha çox görünür, öz ideyalarını tədricən "müzakirəyə uyğun" mövzular kimi təqdim edirlər. Şübhəsiz, bu təsir, sadəcə, siyasi partiyalarla məhdudlaşmır. Kütləvi informasiya vasitələri də sağ radikal ritorikanın yayılmasında dolayı şəkildə iştirak edir. Proses Almaniya və Böyük Britaniya kimi ölkələrdə aydın görünür. Hər iki məkanda media və siyasi dairələr miqrasiya, mədəni kimliklə bağlı sağ radikal mövzulara geniş yer ayıraraq ictimai diqqəti bu istiqamətə yönəldiblər. Nəticədə, əvvəl marginal sayılan fikirlər zamanla "milli narahatlıq" kimi təqdim olunmağa başlayıb. Hazırda partiyalar qarşısında duran əsas problem bu diskursla necə davranmaqdır. Sağ radikal ritorikanı gözardı etmək seçici bazasının bir hissəsini itirmək riski yaradır. Klassik "reaktiv siyasət" dilemmasına çevrilən prosesdə partiyalar öz üslublarını sərtləşdirərək radikal ritorikanın elementlərini mənimsəyirlər. Məsələn, Almaniyanın keçmiş kansleri Olaf Şoltsun 2023-cü ildə "ölkədə qalmaq hüququ olmayan şəxslərin genişmiqyaslı deportasiyasının vaxtı çatıb" bəyanatı sosial-demokrat ritorikanın sərtləşdiyini göstərən nümunələrdən idi. Bu ritorika müəyyən seçici qruplarının dəstəyini qazanmaq məqsədi daşısa da, uzunmüddətli perspektivdə sağ radikal partiyaların əsas ideyalarının legitimləşməsinə xidmət edir. Çünki seçicilər sərt ifadələrə alışırlar. Nəticədə, ekstremist baxışlar "adi siyasi tələblər" səviyyəsinə enir.




Bu tendensiya təkcə Almaniyaya aid deyil. Avropa miqyasında, xüsusilə Fransa, Böyük Britaniya, Niderland və Avstriyada da oxşar proseslər müşahidə olunur. Miqrasiya böhranları, iqtisadi qeyri-sabitlik və milli kimliklə bağlı qorxular sağ radikal ritorikanın geniş auditoriya qazanmasına şərait yaradır. Ənənəvi partiyalar isə bu reallıq qarşısında müdafiə strategiyasından çox, adaptasiya strategiyasına üstünlük verirlər.

Avropanın bir çox siyasi liderləri miqrasiya məsələlərinə dair sərt və məhdudlaşdırıcı təkliflər irəli sürməklə seçicilərin "təhlükəsizlik hissini" bərpa etməyə çalışırlar. Bu hal bəzi siyasi analitiklərin "diskursun sağa sürüşməsi" adlandırdığı fenomenin əsas göstəricisidir. Əgər 20 il əvvəl miqrasiya və multikulturalizm liberal konsensusun tərkib hissəsi idisə, bu gün həmin məsələlər milli təhlükəsizlik, həmçinin sosial yük kontekstində müzakirə olunur.

Hər dəfə eyni çərçivədə təqdim olunan "miqrasiya təhlükəsi", "mədəni təhdid" və "sərhədlərin müdafiəsi" kimi anlayışlar kollektiv yaddaşda mühüm yer tutur, seçicilərin reallıq qavrayışına təsir göstərir, təhlükə hissini süni şəkildə gücləndirir. Əgər bu ritorika sosial-demokrat və mərkəzçi qüvvələr tərəfindən səsləndirilirsə, onun təsiri də çoxalır. Tədricən "sərt tədbirlər" adi, "təhlükəsiz seçim" kimi qəbul olunur. Beləliklə, cəmiyyət miqrasiyaya qarşı daha az tolerant, fərqli mədəni kimliklərə qarşı daha şübhəli, siyasi müzakirələrdə isə daha qütbləşmiş olur.

Bir məqamı da qeyd edək ki, hazırda Almaniya "sistemli böhran" mərhələsindədir və bu, qeyri-liberal qüvvələrin, xüsusən "Almaniya üçün Alternativ" (AfD) partiyasının yüksəlişinə təkan verib. Bu ilin əvvəlindən etibarən AfD artıq xristian-demokratları geridə qoyaraq ölkə üzrə ən populyar siyasi qüvvəyə çevrilib. Partiya hər dörd seçicidən birinin dəstəyini qazanıb və bu göstərici sabit artım tendensiyasını göstərir. Şimali Reyn-Vestfaliya əyalətində keçirilən bələdiyyə seçkilərində partiyanın 14,5 faiz səs toplaması prosesin təsadüfi olmadığının əyani sübutudur. Nəticələr liberal elita üçün təhlükəli siqnaldır, çünki seçicilərin bir qismi artıq ənənəvi sosial-demokratlardan AfD-yə keçid edir. Avropa elitasının böhrana reaksiyası da problemlidir. Onlar böhranı dərinləşdirən səbəblərlə mübarizə aparmaq əvəzinə, diqqəti nəticələrə yönəldiblər. Bununla yanaşı, beynəlxalq səviyyədə Avropa ölkələri daxili siyasi zəifliyi kompensasiya etmək məqsədilə hərbi potensialın artırılması və "strateji muxtariyyət" ideyasına yönəlirlər. Lakin bu cəhdlər daxili idarəetmə böhranı dərinləşdiyi halda real nəticə verməyəcək.

Sonda bir daha vurğulayaq ki, Avropa siyasi mədəniyyəti sistemli transformasiya mərhələsinə qədəm qoyub. Qlobal rəqabətin sərtləşdiyi, daxili iqtisadi təzyiqlərin artdığı dövrdə liberal elitanın ənənəvi idarəetmə mexanizmləri artıq əvvəlki kimi işləmir. Mərkəzləşmiş texnokratik qərarvermə sistemi ictimai etimadı bərpa etmək əvəzinə yeni populist və qeyri-sistemli qüvvələrin legitimlik qazanmasına zəmin yaradır. Əgər Avropa yeni siyasi model formalaşdıra bilməsə, növbəti onilliklərdə həm iqtisadi, həm də ideoloji baxımdan parçalanma riski artacaq.

***Nəzrin ELDARQIZI***
***XQ***

*Ekspert rəyi*



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

Almaniyada sağ və sağ mərkəzçi qüvvələrin demarşı ölkənin böhran içində olmasından, liberal hakimiyyətlərin problemlərin aradan qaldırılması istiqamətində effektiv addımlar ata bilməməsindən, hökm sürən iqtisadi çətinliklərdən, miqrasiya sahəsində lazımi tədbirlərin görülməməsindən irəli gəlir. Bu gün "Almaniya üçün Alternativ" partiyası Xristian Demokratları geridə qoyaraq milli səviyyədə ən populyar siyasi qüvvəyə çevrilib və artıq hər dörd seçicidən birinin dəstəyini qazanıb. Ən önəmlisi isə odur ki, onlar hər keçən gün böyüməkdə və sıralarını genişləndirməkdədirlər. Bunu Şimali Reyn–Vestfaliyada sentyabrda keçirilən bələdiyyə seçkiləri də sübut etdi. Bölgə Bavariya və Baden–Vürtemberq ilə birlikdə Almaniyanın ən mühüm iqtisadi mərkəzi hesab olunur. Uzun müddətdir ki, bu ərazilərdə Sosial Demokratlar həm də Xristian Demokratların əhəmiyyətli dəstəyi ilə üstünlük təşkil edir. Keçən seçkilərlə, yəni 2020-ci il seçkiləri ilə müqayisədə 9,4 faiz daha çox səs qazanmaq, təbii ki, böyük uğur hesab oluna bilər. Sağ və ultra sağ qüvvələrin yüksəlişi təkcə Almaniya ilə də məhdudlaşmır. Avropa Parlamentinə son seçkilər bunun bariz təzahürüdür. Fransada Makronun, Almaniyada Şoltsun rəhbərlik etdiyi qüvvələrin məğlubiyyəti ultra sağların mövqeyinin növbəti mərhələdə daha qabarıq ortaya çıxacağını deməyə əsas verir.

Avropa Parlamentinə seçkilərdə məğlubiyyət xüsusilə Fransa prezidenti və onun İntibah partiyası üçün alçaldıcı oldu. Əvəzində İtaliyada baş nazir Corcia Meloninin ultra sağyönümlü partiyası Avropa Parlamentində yerlərinin sayını iki dəfə artırdı. Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenin başçılıq etdiyi Xristian Demokratlar isə seçki kampaniyası zamanı miqrasiya və iqlim məsələlərində məcburən saga doğru mövqe ortaya qoymağa başladılar. Elə bu səbəbdən də onlar 720 yerlik Avropa Parlamentində ən böyük qrup olaraq qalmaqda davam edirlər. Bütün bu sadalananlar onu deməyə əsas verir ki, yaxın gələcəkdə Avropa ərazisində sağ qüvvələrin öz mövqelərini daha da möhkəmləndirəcəyi şübhəsizdir. Bu isə təbii olaraq "Qoca qitə" üçün yeni strategiyanın formalaşmasını labüd edir.

# Dövlət Statistika Komitəsində mətbuat konfransı



**Dünən Dövlət Statistika Komitəsində Ümumdünya Statistika Günü ilə bağlı mətbuat konfransı və statistik olimpiadanın qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**

Məclisi giriş sözü ilə açan Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov bildirib ki, rəsmi statistikaya olan inam və etibarın qorunub saxlanılması, statistik məlumatların vaxtında və keyfiyyətlə hazırlanaraq istifadəçilərə təqdim edilməsi bu gün statistiklərin qarşısında duran ən mühüm vəzifədir. Azərbaycanın milli statistika sistemi də son illər ərzində daim tərəqqiyə can atmış, ciddi islahatlar yolu ilə yeni tələblərə uyğun inkişaf etdirilib.

Azərbaycanda milli statistika sisteminin inkişafının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu söyləyən komitə sədri əlavə edib ki, ölkədə onun rəhbərliyi ilə yaradılmış hüquqi baza əsasında bazar iqtisadiyyatı prinsiplərinə uyğun milli statistika sisteminin formalaşdırılması prosesinə başlanılmış, sonrakı illərdə davam etdirilən islahatlar rəsmi statistikanın inkişafına güclü təkan vermiş, bu sahədə ardıcıl qəbul olunmuş 6 dövlət proqramı uğurla icra edilib.

Azərbaycanın da həmmüəllif kimi qoşulduğu BMT Baş Assambleyasının 2015-ci il 3 iyun tarixli qətnaməsinə uyğun olaraq, 5 ildən bir keçirilən Ümumdünya Statistika Günü ölkəmizdə də təntənəli şəkildə qeyd edilir. Bu beynəlxalq gün qlobal mütərəqqi təşəbbüslərə böyük önəm və töhfə verilən ölkəmizdə ilk dəfə 2015-ci ildə keçirilib.

Vətən müharibəsində möhtəşəm Zəfərimizin 5-ci ildönümü günlərində Ümumdünya Statistika Gününün ölkəmizdə daha yüksək səviyyədə qeyd olunması məqsədilə Dövlət Statistika Komitəsində xüsusi tədbirlər planı hazırlanıb. Komitənin rəsmi internet səhifəsində xüsusi bölmə yaradılıb, mediada çıxışlar edilib, "Statistika xəbərləri" elmi-praktik jurnalının xüsusi buraxılışı hazırlanıb.

Komitə sədri qeyd edib ki, sentyabrın 24-26-da isə Bakıda "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda III Beynəlxalq Statistika Forumu keçirilib. Prezident İlham Əliyev forum iştirakçılarına ünvanlandığı müraciətdə statistikanın əhəmiyyətinin ildən-ilə artaraq cəmiyyətin tərəqqisini, dövlət siyasətinin effektivliyini və qlobal çağırışlara cavabvermə qabiliyyətini qiymətləndirmək üçün mühüm vasitələrdən birinə çevrildiyi vurğulayıb. Ümumdünya Statistika Günü münasibətilə dövlət başçısının təbriki isə statistikləri ruhlandırmaqla yanaşı, ölkəmizin gələcəyi naminə düzgün qərarların qəbul olunması üçün statistika məlumatlarının vaxtında və keyfiyyətlə hazırlanması ilə bağlı məsuliyyətimizi daha da artırır.



Ötən illərdə qazanılmış uğurlardan söz açan Tahir Budaqov xatırladıb ki, statistika şəbəkəsində milli statistik təsnifatların, müasir metodologiyaların hazırlanması və tətbiqi, Milli Hesablar Sisteminin qurulması, yeni statistika sahələrinin yaradılması və təkmilləşdirilməsi, istifadəçilərin statistik məlumatlara olan tələbatının ödənilməsi, elektron statistikanın inkişafı, sahibkarların üzərinə düşən statistik yükün azaldılması, rəsmi statistika istehsalı proseslərinin səmərəliliyinin yüksəldilməsi, keyfiyyəti idarəetmə sisteminin tətbiqi, metaməlumatların işlənilməsi, statistika orqanlarının maddi-texniki bazasının gücləndirilməsi və s. istiqamətlərdə mühüm tədbirlər gerçəkləşdirilib.

Xarici ekspertlər həyata keçirilən islahatları yüksək qiymətləndirərək Azərbaycanın milli statistika sisteminin beynəlxalq standartlara uyğun olduğunu qeyd edib, Dövlət Statistika Komitəsi "Rəsmi statistika məlumatlarının istehsalı və yayılması" sahəsində nüfuzlu beynəlxalq audit təşkilatları tərəfindən ISO 9001:2015 Keyfiyyəti İdarəetmə Sisteminə dair beynəlxalq uyğunluq sertifikatına layiq görülüb. Komitə Azərbaycanda bu uyğunluq sertifikatına layiq görülən ilk mərkəzi icra hakimiyyəti orqanı olmaqla yanaşı, MDB məkanında da bu sertifikatı əldə edən ilk statistika qurumudur.

Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinin "Dövlət Nəzarəti İnformasiya Sistemi" vasitəsilə qiymətləndirilməsinin nəticələrinə görə Dövlət Statistika Komitəsi son illərdə mərkəzi icra hakimiyyəti orqanları arasında 1-ci mövqedə qərarlaşıb. Dövlət Statistika Komitəsi 2026-2030-cu illərdə rəsmi statistikanın inkişafına dair növbəti hədəfləri də artıq müəyyən edib.

Komitə sədri çıxışının sonunda fəaliyyət göstərdiyi sahədən asılı olmayaraq rəsmi statistika istehsalı prosesinə öz töhfəsini verən hər bir şəxsi bu əlamətdar gün münasibətilə təbrik edib, onlara işlərində uğurlar arzulayıb.

Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini İdris İsayev Ümumdünya Statistika Günü ilə bağlı Dövlət Statistika Komitəsi tərəfindən gənclər arasında statistikaya marağın artırılması, onların statistik biliklərə malik istedadlı gənclərin aşkar edilərək həvəsləndirilməsi məqsədilə yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında keçirilən statistik olimpiadanın önəmindən danışıb.

Statistik olimpiadanın yekunları barədə məlumat verən Dövlət Statistika Komitəsi sədrinin müavini, təşkilat komitəsinin sədri Yusif Yusifov qeyd edib ki, olimpiadada ümumilikdə 3 min 355 nəfər şagird, 198 nəfər tələbə iştirak edib. Qusar rayonu Hil kəndi tam orta məktəbinin şagirdi Günel Qurbanova 1-ci, Kəngərli rayonu Qıvraq qəsəbə tam orta məktəbinin şagirdi Suat Novruzov 2-ci, İmişli şəhəri 7 nömrəli tam orta məktəbinin şagirdi Əli Alışov 3-cü Ali Neft Məktəbinin tələbələri Murad Xəlilli 1-ci, Arif Aslanov 2-ci, Aqrar Universitetin tələbəsi Ülvi Hacıyev 3-cü yeri tutublar.

Statistik olimpiadanın final mərhələsinə keçmiş tələbə və şagirdlərə sertifikat və hədiyyələr, olimpiadanın qaliblərinə isə diplom və hədiyyələr təqdim olunub.

Daha sonra Prezident İlham Əliyevin sərəncamı ilə təltif edilmiş komitə əməkdaşlarına orden və medallar təqdim olunub.

***XQ***

Naxçıvan xəbərləri

## Şərurda sahibkarlarla görüş





**Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi və Şərur Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə sahibkarlarla görüş keçirilib.**

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov bildirib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"ı çərçivəsində Şərur rayonunda genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilib, xüsusilə kənd təsərrüfatı sahəsində mühüm nailiyyətlər əldə olunub.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev "Ümumi iqtisadi mənzərə və perspektivlər" mövzusunda çıxış edərək bildirib ki, hazırkı dövrdə iqtisadi inkişafın əsas elementləri dayanıqlılığın təmin olunması, innovasiyaların tətbiqi və rəqabət qabiliyyətinin artırılmasıdır. Nazir vurğulayıb ki, muxtar respublikada iqtisadiyyat müxtəlif sahələrdə uğurla inkişaf edir və bu inkişafın davamlı olması üçün sahibkarların rolu xüsusi önəm daşıyır. O, sahibkarları regionun iqtisadi potensialından və dövlətin dəstəyindən səmərəli istifadə etməyə, yeni investisiya layihələri icra etməkdə fəal olmağa, eləcə də mövcud fəaliyyətlərini genişləndirməyə çağırıb.

Sahibkarlığın İnkişafı Fondu idarə Heyətinin sədri Vüsal Novruzov "Mövcud maliyyələşmə imkanları" mövzusunda çıxış edərək, güzəştli kreditlər, dövlət dəstəyi mexanizmləri və yeni layihələr haqqında danışıb.

Sahibkar Yusif Quliyev öz fəaliyyəti barədə məlumat verib, ötən dövrdə Sahibkarlığın İnkişafı Fondunun güzəştli maliyyə vəsaitlərindən faydalandığını diqqətə çatdırıb və dövlətin iş adamlarına yaratdığı imkanlara görə minnətdarlığını bildirib. Tədbirdə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin və Sahibkarlığın İnkişafı Fondunun əməkdaşları tərəfindən regionun potensialına uyğun investisiya layihələri, ixrac imkanları və güzəştli kreditlərin verilməsi qaydaları ilə bağlı geniş təqdimatlar edilib.

"Açıq mikrofon" müzakirəsində sahibkarların sualları cavablandırılıb.

## Regional Meliorasiya Xidməti layihələri

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Regional Su Meliorasiya Xidməti İdarə Heyətinin sədr müavini İlham Quliyev Naxçıvanda səfərdə olub. Səfər çərçivəsində Culfa rayonunda yerləşən Bənəniyar su anbarına baxış keçirilib.**



Əsas məqsəd ötən günlərdə anbarda su səviyyəsinin azalması nəticəsində balıqların kütləvi tələf olmasını yerində araşdırmaq olub. Sədr müavini mövcud vəziyyəti dəyərləndirib, hadisənin səbəblərinin müəyyənləşdirilməsi, su ehtiyatlarının idarə olunmasının təkmilləşdirilməsi və oxşar halların qarşısının alınması məqsədilə müvafiq tapşırıqlar verib.

Qeyd edilib ki, Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi 9 ay əvvəl Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyinə verilib. Bu müddət ərzində su təsərrüfatı infrastrukturunun bərpası, suvarma sistemlərinin yenilənməsi və su ehtiyatlarından səmərəli istifadə istiqamətində mühüm işlər görülüb. Belə layihələrdən biri "Əlincəçaydan su götürən və Culfa rayonunun ərazisindəki Bənəniyar su anbarını qidalandıran kanalın yenidən qurulması", digəri isə "Babək rayonunun Nehrəm qəsəbəsinin ərazisində 1000 hektar torpaq sahəsinin su təminatını yaxşılaşdırmaq məqsədilə "Araz-1" və "Araz-2" ikipilləli nasos stansiyasının və boru xəttinin yenidən qurulması" layihələridir. Bundan əlavə, "Arpaçay sağ sahil və sol sahil magistral kanallarının yenidən qurulması", "Babək rayonunun Çeşməbasar və Güznüt kəndlərinin ərazisində ümumilikdə 240 hektar torpaq sahəsinin su təminatını və meliorativ vəziyyətini yaxşılaşdırmaq üçün qapalı suvarma və drenaj şəbəkəsinin tikintisi", eləcə də "Gilançaydan Culfa və Babək rayonlarının ərazisində ümumilikdə 1600 hektar torpaq sahəsinə suvarma suyunun çatdırılması" layihələri üzrə də hazırlıq işləri tamamlanıb.

# Azərbaycan qədim Xivədə "Xalçaların gözəlliyi" festivalında



**Özbəkistanın Xarəzm vilayətinin qədim Xivə şəhərində "Arda Xivə" turizm kompleksində "Xalçaların gözəlliyi" birinci beynəlxalq sərgi-festival keçirilib.**

Sərgidə ölkənin müxtəlif bölgələrindən, həmçinin Azərbaycan, Qırğızıstan, Qazaxıstan, Tacikistan, Türkmənistan və Əfqanıstandan gələn sənətkarlar, alim və incəsənət xadimləri, dizaynerlər, sahibkarlar iştirak ediblər.

Sərgidə ölkəmizi Özbəkistandakı səfirliyimizin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi və həmyerlimiz, xalçaçı rəssam, miniatür ustası Ağasadıq Süleymanov təmsil edib.

Festivalın birinci günü keçirilən mətbuat konfransında Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli qeyd edib ki, Azərbaycan xalça sənəti yalnız məişət və bədii sənət növü kimi deyil, həm də xalqın ruhunu, tarixi yaddaşını, mənəvi dəyərlərini və bədii zövqünü ifadə edən mühüm mədəni fenomen kimi dünya miqyasında tanınır. Xalçaçılıq sənəti bu gün xalqlar arasında mədəni dialoqun və dostluğun güclənməsinə xidmət edir, belə beynəlxalq tədbirlər isə xalça ənənələrinin qorunub-saxlanması və yeni nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Sərginin Azərbaycan guşəsində Naxçıvan, Gəncə, Quba, İrəvan, Təbriz, Borçalı, Dərbənd və digər bölgələrimizə aid xalça nümunələri, həmçinin Azərbaycan xalça sənətinə dair albomlar nümayiş olunub.

Ümumiyyətlə, Azərbaycan guşəsi, həmçinin Ağasadıq Süleymanovun xalçaların toxunmasını əyani şəkildə nümayiş etdirməsi iştirakçıların böyük marağına səbəb olub.

Sərgi-festivalda Ağasadıq Süleymanov "Gənc xalçaçı rəssam" nominasiyasında birinci mükafata layiq görülüb, ona müvafiq sertifikat və hədiyyələr təqdim olunub. AMM isə xüsusi diploma layiq görülüb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

*Xivə şəhəri*

## "Yarımçıq qalmış roman"ın təqdimatı

**AMEA Naxçıvan Bölməsində İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədovun "Yarımçıq qalmış roman" adlı kitabının təqdimatı keçirilib.**

Bölmənin mətbuat xidmətindən verilən məlumata görə, yeni nəşrdə 27 sentyabr 2020-ci ildə başlanan və 44 gün davam edən Vətən müharibəsində tarix yazmış və Suqovuşan döyüşlərində şəhidlik zirvəsinə ucalmış şəhid leytenant Nicat Məmmədlidən bəhs olunur. AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev müəllifi yeni nəşr münasibətilə təbrik edib. Akademik kitabın ideya-məzmun yükündən, müəllifin tədqiqatçı və publisist qələminin gücündən danışıb. O, əsərin təkcə bədii deyil, həm də tarixi və mənəvi dəyər daşıdığını, oxuculara şəhidlik zirvəsinə ucalan bir ömür yolunu təqdim etdiyini vurğulayıb.



İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru Nuray Əliyeva çıxışında kitabın yalnız şəxsi taleyi deyil, bütöv bir xalqın ruhunu əks etdirdiyini, şəhidin uşaqlıq illəri, məktəb həyatı, ailə tərbiyəsi, vətənpərvər düşüncələri və əsgərliyinin səmimiyyətlə qələmə alındığını vurğulayıb. Digər alimlər – Fərman Xəlilov, Səbuhi İbrahimov, AMEA Naxçıvan Bölməsi Nəşriyyatının redaktoru, şair Qafar Qərib şəhidlərin həyatının ədəbiyyatda əks olunmasının həm tarixi yaddaşın qorunması, həm də gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından vacib olduğuna diqqət çəkiblər.

Əsərin müəllifi Elxan Məmmədov kitabının ərsəyə gəlmə mərhələləri barədə danışıb, ürək sözlərini səsləndirib. Eyni zamanda tədbirin təşkilinə və yaradıcılığına göstərilən diqqətə görə minnətdarlıq edib. Şəhidin valideynləri də çıxış ediblər. Nicatın xatirəsinin əbədiləşdirilməsi üçün bu kitabın yazılmasını xahiş etdiklərini bildirərək, müəllifə və təşkilatçılara təşəkkürlərini çatdırıblar. Onlar bu kitabla təkcə Nicatın yox, onun timsalında bütün şəhidlərin ruhunun yad olunduğunu qeyd ediblər.

Çıxışlar dinlənildikdən sonra İsmayıl Hacıyev "Şuşa zirvədən uca" və müəllifi olduğu "Culfa rayonunun tarixi" adlı kitabını şəhidin ailəsinə təqdim edib.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# Azərbaycan – Qazaxıstan: hədəflər böyük, meydan genişdir

**Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana dövlət səfəri ərəfəsində bu ölkənin "Kazinform" agentliyinə verdiyi eksklüziv müsahibəsində iki ölkə arasında siyasi dialoqun yüksək səviyyəsindən, nəqliyyat, logistika, neft-qaz sahələrində əməkdaşlığın sürətli inkişafından, eləcə də "yaşıl enerji" sahəsində birgə işin perspektivlərindən və Türk Dövlətləri Təşkilatı çərçivəsində təşəbbüslərdən bəhs edib.**



Dövlət başçısı ötən illər ərzində iki ölkə arasında, təqribən, 170 sənədin imzalandığını vurğulayaraq siyasi, iqtisadi-ticari, investisiya və digər sahələrdə səmərəli əməkdaşlıq mexanizmlərinin yaradıldığını diqqətə çatdırıb. Bu baxımdan Azərbaycan ilə Qazaxıstan arasında 20 il əvvəl imzalanmış strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilənin, eləcə də Ali Dövlətlərarası Şuranın əhəmiyyəti xüsusi qeyd olunub.

Xatırladaq ki, əlverişli geosiyasi məkanda yerləşən Azərbaycan və Qazaxıstan arasında dostluq, qardaşlıq münasibətləri qədim tarixi köklərə malikdir. Ötən əsrin sonlarında müstəqillik əldə etmiş bu iki türk respublikasının münasibətləri hazırda müttəfiqlik və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. İndi ölkələrimiz arasında bir çox sahələrdə geniş əlaqələr mövcuddur.

Geniş iqtisadi potensiala malik olan iki ölkə arasında bu sahədə əməkdaşlığı inkişaf etdirmək məqsədilə 1999-cu ildə Ticari-İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya yaradılıb. Ötən müddətdə qurumun 21 iclası keçirilib. Həmin iclaslarda iki ölkə arasında ticarət-iqtisadi, energetika, nəqliyyat, logistika, sənaye və informasiya-kommunikasiya texnologiyaları, kənd təsərrüfatı və qida təhlükəsizliyi sahələrində ikitərəfli əlaqələrin mövcud vəziyyəti müzakirə olunub, gələcək əməkdaşlığın genişləndirilməsi ilə bağlı növbəti addımlar müəyyənləşdirilib.

Son illərdə Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi və ticarət əlaqələr yüksəliş mərhələsinə qədəm qoyub. Tarixi və mədəni yaxınlıqla yanaşı, iqtisadiyyatın bir-birini tamamlayan strukturu və strateji coğrafi mövqelər bu iki ölkə arasında qarşılıqlı əməkdaşlığı genişləndirmək üçün əlverişli zəmin yaradıb. Ümumilikdə, Azərbaycan – Qazaxıstan iqtisadi əlaqələrinin dinamikası getdikcə artmaqda olan ticarət dövriyyəsində özünü qabarıq şəkildə göstərir. Təkcə onu qeyd etmək kifayətdir ki, son illər iki ölkə arasında icarət dövriyyəsi 5 dəfəyə yaxın artıb. Bu vacib məqama toxunan Prezident İlham Əliyev "Kazinform"a müsahibəsində bildirib ki, 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 470 milyon dollar təşkil etdiyi halda, bu ilin yanvar-avqust aylarında 547 milyon dollara çatıb. Dövlətimizin başçısı bu artımın Orta Dəhlizin potensialından səmərəli istifadə, nəqliyyat və logistika infrastrukturunun sistemli modernləşdirilməsi ilə bağlı olduğunu diqqətə çatdırıb.

Azərbaycan və Qazaxıstan arasında energetika sahəsində də əlaqələrin çoxillik tarixi var. Belə ki, hələ keçmiş sovetlər dönəmində Azərbaycan neftçiləri Qazaxıstanın Manqışlaq və Quryev neft mədənlərində qazaxlı həmkarları ilə birgə fəaliyyət göstəriblər. Eyni zamanda, Azərbaycan və Qazaxıstandan olan neftçilər, geoloqlar və mühəndislər Xəzər akvatoriyasında yerləşən perspektivli sahələrin araşdırılmasında da fəal əməkdaşlıq ediblər. Hazırda isə Azərbaycanın Qazaxıstanla energetika sahəsində əməkdaşlığı yeni inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyev müsahibəsində neft-qaz sektorunda SOCAR və "KazMunayQaz" Milli Şirkəti arasında Aktau-Ceyhan marşrutu üzrə ildə 1,5 milyon ton Qazaxıstan neftinin tranziti, eləcə də bu həcmlərin mərhələli şəkildə artırılması və tariflərin aşağı salınması haqqında sazişləri xatırladıb.

Ənənəvi enerji əməkdaşlığı ilə yanaşı, Azərbaycan və Qazaxıstan bərpaolunan enerji sahəsində də tərəfdaşlıq imkanlarını araşdırırlar. 2023-cü ilin sonunda imzalanmış anlaşma memorandumuna əsasən, günəş və külək enerjisi sahəsində ortaq layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Qazaxıstanın geniş ərazisi və əlverişli iqlim şəraiti, Azərbaycanın isə investisiya və texnoloji imkanları bu sahədə əməkdaşlığı daha da dərinləşdirə bilər. Təsadüfi deyil ki, Prezident İlham Əliyev "Kazinform" əməkdaşının bununla bağlı sualını cavablandırarkən 2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin birləşdirilməsinə və bərpaolunan enerji mənbələrinin təşviqinə yönəlmiş bir sıra strateji sazişlər və memorandumlar imzaladıqlarını xatırladaraq deyib ki, bu təşəbbüslər ölkələrin davamlı inkişafa və ekoloji cəhətdən təmiz texnologiyalara keçidə birgə sadiqliyini əks etdirir.

Dövlətimizin başçısı agentlik əməkdaşına verdiyi müsahibə zamanı ölkələrimiz arasında nəqliyyat-logistika əməkdaşlığını iqtisadi artım və regional bazarların inteqrasiyası üçün yeni imkanlar açan strateji əhəmiyyətli istiqamət kimi dəyərləndirərək deyib: "İnfrastrukturun davamlı inkişafı, tarif və logistika üstünlüklərinin genişləndirilməsi daşımaların həcminin artırılması və ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün əlverişli şərait yaradır. Hazırda bu qarşılıqlı fəaliyyət sahəsi əhəmiyyətli tərəqqi nümayiş etdirir. 2024-cü ildə Azərbaycan ilə Qazaxıstan arasında tranzit daşımaları əvvəlki dövrlə müqayisədə 20 faiz artaraq 3,5 milyon tondan çox olub. Orta Dəhliz ölkələr arasında davamlı və səmərəli əlaqələrin təmin edilməsində əsas rol oynayır".

Prezident İlham Əliyev, həmçinin infrastruktur sahəsində əhəmiyyətli layihələrdən biri olan Qazaxıstan ilə Azərbaycan arasında Xəzər dənizinin dibi ilə sualtı fiber-optik kommunikasiya xətlərinin tikintisi layihəsinə toxunaraq bildirib ki, 2025-ci ilin martında Bakıda imzalanmış tikinti müqaviləsi və işlərin tamamlanması 2026-cı ilin sonuna planlaşdırılır ki, bu da rəqəmsal inteqrasiyanı gücləndirəcək.

Göründüyü kimi, Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi münasibətlər təkcə rəqəmlərlə yox, strateji baxış və qarşılıqlı etimadla da inkişaf edir. Hər iki ölkənin Türk Dövlətləri Təşkilatındakı mövqeləri, Xəzər dənizinin yaratdığı logistika imkanları və artan ticarət dövriyyəsi gələcəkdə daha geniş inteqrasiyanı zəruri edir. Bu münasibətlər isə yalnız iki ölkənin deyil, bütövlükdə, regionun rifahı üçün də mühüm əhəmiyyət daşıyır.

***Ekspert rəyi***



**Ruslan ATAKİŞİYEV,**
**İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri,**
**iqtisad üzrə fəlsəfə doktoru**

Azərbaycanla Qazaxıstan arasında iqtisadi əlaqələrin genişlənməsi, əslində, bir neçə əsas istiqamət üzrə həyata keçirilir. Birinci istiqamət nəqliyyat və tranzit sahəsində əməkdaşlıqla bağlıdır. Şərq – Qərb nəqliyyat dəhlizi çərçivəsində Çindən Avropaya daşınan yüklərin Xəzər dənizi vasitəsilə ötürülməsi prosesində Azərbaycan və Qazaxıstan arasında sıx əməkdaşlıq qurulub. Bu əməkdaşlıq gömrük sahəsini də əhatə edir. Belə ki, Qazaxıstan üzərindən gələn yüklər barədə əvvəlcədən məlumatın alınması malların daha sürətli və səmərəli şəkildə tranzitinə şərait yaradır. Bundan əlavə, Ələt Azad İqtisadi Zonasında da Qazaxıstan şirkətlərinin fəal iştirakı müşahidə olunur. Artıq bu ölkənin bir sıra şirkətləri burada fəaliyyətə başlayıblar. Bu isə Qazaxıstandan gələn məhsulların Ələt vasitəsilə Avropa bazarlarına çıxarılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Digər bir istiqamət maliyyə və monetar siyasət sahəsində təcrübə mübadiləsi ilə bağlıdır. Azərbaycan Mərkəzi Bankı ilə Qazaxıstanın maliyyə idarəetməsi üzrə əsas qurumu olan Astana Beynəlxalq Maliyyə Mərkəzi arasında geniş əlaqələr mövcuddur. Bu çərçivədə Azərbaycanda maliyyə bazarlarının imkanlarının genişləndirilməsi, alternativ maliyyə alətlərinin inkişafı istiqamətində əməkdaşlıq həyata keçirilir.

Əhəmiyyətli məsələlərdən biri də kommunikasiya xətlərinin inkişafıdır. Xəzər dənizinin dibi ilə yüksək ötürmə qabiliyyətinə malik fiber-optik kabel xəttinin çəkilməsi layihəsi iqtisadi və strateji baxımdan böyük əhəmiyyət daşıyır.

Bundan başqa, Xəzər hövzəsinin birgə istismarı sahəsində də əməkdaşlıq genişlənir. Bu əməkdaşlıq dənizin gəmiçilik və balıqçılıq potensialından istifadəyə, eləcə də karbohidrogen ehtiyatlarının birgə hasilinə və onların dünya bazarına çıxarılmasına yönəlib.

Nəhayət, bu iqtisadi əməkdaşlığın gələcəkdə kənd təsərrüfatı, turizm və qeyri-neft sektorunun digər sahələrinə də müsbət təsir göstərəcəyi gözlənilir. Azərbaycanla Qazaxıstan arasında iqtisadi əlaqələrin ardıcıl və çoxşaxəli inkişafı hər iki ölkənin strateji tərəfdaşlığını daha da möhkəmləndirir.

# "Yaşıl" keçidə yaşıl işıq!

**Energetika Nazirliyinin 2025-ci ilin 9 ayı ərzində Azərbaycanda enerji istehsalı və ixracı ilə bağlı operativ məlumatına əsasən, hesabat dövründə ölkənin bərpa olunan enerji mənbələri üzrə 724,8 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub. Bunun da 30,5 milyon kilovat-saatı külək, 511 milyon kilovat-saatı günəş elektrik stansiyalarının, 183,3 milyon kilovat-saatı isə Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun payına düşüb.**



Bərpaolunan enerji mənbələri üzrə elektrik enerjisi istehsalının artması ölkəmizin bu sahədəki zəngin potensialının hərəkətə gətirilməsi istiqamətində həyata keçirilən tədbirlərlə bağlıdır. Bu baxımdan 2023-cü ilin oktyabr ayında istismara buraxılmış "Qaradağ" Günəş Elektrik Stansiyasının fəaliyyəti diqqət çəkir. Təkcə onu qeyd etmək kifayətdir ki, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin inşa etdiyi 230 meqavat gücündə olan bu stansiyada ötən müddətdə 1 milyard kilovat-saat elektrik enerjisi istehsal olunub ki, bu da ölkəmizdə günəş enerjisindən elektrik enerjisi istehsalının 10 dəfə artması deməkdir.

Energetika naziri Pərviz Şahbazovun bildirdiyinə görə, qarşıdakı iki il ərzində ölkədə "yaşıl enerji"nin inkişafının birinci mərhələsi çərçivəsində 10 günəş və külək elektrik stansiyasının inşası uğurla başa çatdırılacaq. Artıq 240 meqavatlıq "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının ilin sonunadək tam istismara verilməsi üçün hazırlıq işlərinə başlanılıb. Xatırladaq ki, inşası Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti tərəfindən aparılan stansiyanın Abşeron və Xızı sahələrində, ümumilikdə, 37 turbinin quraşdırılması nəzərdə tutulur ki, bunun da 35-i artıq istismara hazır vəziyyətdədir. Digər 2 turbinin quraşdırılması isə bu ay ərzində başa çatdırılacaq. Bununla yanaşı, stansiyanın iki 220/33 kilovoltluq yarımstansiyasından biri inşa edilərək istismara tam hazır vəziyyətə gətirilib, digər yarımstansiyanın tikintisi isə gələn ay yekunlaşacaq.

P.Şahbazov, həmçinin "Masdar" şirkətinin icra etdiyi 445 meqavatlıq "Biləsuvar" və 315 meqavatlıq "Neftçala" günəş elektrik stansiyalarının, eləcə də 240 meqavatlıq "Abşeron-Qaradağ" külək elektrik stansiyalarında və BP-nin Cəbrayılda inşa etdiyi 240 meqavatlıq "Şəfəq" Günəş Elektrik Stansiyasında həyata keçirilən tikinti-quraşdırma işləri ilə bağlı da məlumat verib. Qeyd olunub ki, sözügedən stansiyaların 2026-2027-ci illərdə istismara buraxılması nəzərdə tutulur ki, bu da ümumi elektrik enejisinin istehsalında "yaşıl enerji"nin payının əhəmiyyətli dərəcədə artırılmasına imkan yaradacaq.

Yaxın zamanlarda isə Cəbrayılda hər birinin gücü 50 meqavat olan "Şəms" və "Üfüq" günəş elektrik stansiyalarının təməlinin qoyulması planlaşdırılır. Nazirin sözlərinə görə, ölkəmizdə bərpa olunan enerji mənbələri üzrə ilk hərrac layihəsi olan 100 meqavatlıq "Qobustan" Günəş Elektrik Stansiyasının tikintisinə başlanması və əlavə 100 meqavat gücündə daha bir günəş enerjisi layihəsi üzrə də intensiv işlər görülür. Energetika naziri deyib ki, bu layihələrin reallaşması sayəsində 2027-ci ilə qədər quraşdırılmış gücdə bərpaolunan enerjinin payı 33,7 faizə çatacaq. Həmin stansiyalardan əldə olunacaq illik 5 milyard kilovat-saat elektrik enerjisi hesabına 1 milyard kubmetrdən çox təbii qaza qənaət ediləcək ki, bu da 2,3 milyon tonadək emissiyanın azaldılmasına imkan yaradacaq.

P.Şahbazov onu da bildirib ki, ölkəmizdə bərpaolunan enerji güclərinin yaradılması prosesi ilk mərhələdən etibarən onların enerji sisteminə inteqrasiyası və şəbəkə infrastrukturunun gücləndirilməsi ilə sıx vəhdətdə həyata keçirilir. Onun sözlərinə görə, 2 qiqavatlıq bərpaolunan enerji gücünün idarə olunması üçün 250 meqavat gücündə və 500 meqavat-saat saxlama həcminə malik batareya sistemlərinin qurulması, həmçinin Dünya Bankının dəstəyi ilə 1 qiqavat gücündə günəş və külək elektrik stansiyalarının şəbəkəyə qoşulması üçün elektrik verilişi xətləri, habelə 500/300 kilovoltluq "Nəvahi" yarımstansiyası və əlaqələndirici xətlərin tikintisini ehtiva edən AZURE layihəsinin həyata keçirilməsi bu sahədə görülən əsas tədbirlərdəndir. Bütün bunlar isə 2030-cu ilədək bərpa olunan enerjinin quraşdırılmış gücdə payını 38 faizə yüksəltməkdir.

Yaxın gələcəkdə ölkəmizin, həm də "yaşıl enerji" ixracatçısına çevriləcəyini bildirən energetika naziri qeyd edib ki, planlaşdırılan 6 qiqavatdan çox gücün 4 qiqavatının 2032-ci ildən etibarən mərhələli şəkildə "Xəzər – Qara dəniz – Avropa Yaşıl Enerji Dəhlizi" vasitəsilə ixracına başlanması nəzərdə tutulur. Onun sözlərinə görə, Avropanı enerji və rəqəmsal kommunikasiya baxımından Qara dənizin hər iki sahilindən, eləcə də Xəzər dənizi regionu ilə birləşdirəcək layihənin texniki-iqtisadi əsaslandırmasının gələn ilin əvvəlində yekunlaşması gözlənilir. Artıq "GECO Green Energy Company" birgə müəssisəsi tərəfindən layihənin Avropa Elektrik Ötürücü Sistem Operatorları Şəbəkəsinin 10 illik inkişaf planına daxil edilməsi üçün müraciət olunub.

Nazir onu da bildirib ki, Azərbaycan Prezidentinin Mərkəzi Asiya, Cənubi Qafqaz və Xəzər regionlarını vahid geosiyasi məkan kimi inkişaf etdirmək siyasətinin prioritetləri ilə uzlaşan Transxəzər Enerji Dəhlizi tarixdə ilk dəfə ölkələrimizin elektrik enerjisi sistemlərinin birləşdirilməsinə imkan yaradır.

# 20 ölkəyə 17 milyon ton neft



**2025-ci ilin yanvar-sentyabr aylarında Azərbaycan dünyanın 20 ölkəsinə, ümumilikdə, 8 milyard 938 milyon 864,59 min ABŞ dolları dəyərində 16 milyon 996 min 208,46 ton neft ixrac edib. Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb.**

Komitənin hesabatına əsasən, bu ilin 9 ayında İtaliyaya 4 milyard 992 milyon 915,19 min dollar dəyərində 9 milyon 589 min 365,7 ton neft ixrac olunub. Bununla da İtaliya əvvəlki dövrlərdə olduğu kimi, Azərbaycanın ümumi neft ixracında yenə də birinci olub. Ölkəmizin neft ixracında ikinci yerdə Çexiya qərarlaşıb. Hesabat dövründə bu ölkəyə 70 milyon 374 min dollar dəyərində 1 milyon 307 min 899,13 ton neft ixrac edilib.

Siyahıda ilk üçlüyü isə Xorvatiya tamamlayıb. Belə ki, 9 ayda bu ölkəyə 537 milyon 768,29 min dollarlıq 998 min 469,46 ton neft göndərilib. Bununla yanaşı, Almaniya, Rumıniya, Portuqaliya, Böyük Britaniya, Yunanıstan, İrlandiya, Niderland və digər ölkələr də Azərbaycan neftinin əsas idxalçıları sırasında yer alıblar.

Gömrük Komitəsinin hesabatında qeyd olunan göstəricilərdə yanvar-sentyabr aylarında gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan neftin dəyərinə dair məlumatlar nəzərə alınıb.

Qeyd edək ki, Azərbaycan nefti qonşu ölkələrə və dünya bazarlarına 3 boru kəməri vasitəsilə nəql olunur: Bakı–Novorossiysk, Bakı–Supsa və Bakı–Tbilisi–Ceyhan. Hazırda Bakı–Supsa boru kəməri ilə nəql dayandırılıb. Bundan əlavə, neft dəmir yolu vasitəsilə Gürcüstanın Batumi və Kulevi terminallarına da ixrac edilir.

# Ağdamda mebel də istehsal ediləcək

**"Saloğlu Qarabağ" MMC-yə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidenti statusu verilib, Bununla da parkın rezidentlərinin sayı 31-ə çatıb.**




Yeni rezident tərəfindən sənaye parkının ərazisində müxtəlif təyinatlı mebellərin, yumşaq panel və metal aksesuarların istehsalı nəzərdə tutulur. İnvestisiya dəyəri 6 milyon manat olacaq müəssisədə istehsal ediləcək məhsulların daxili bazarda satışı ilə yanaşı, ixracı da həyata keçiriləcək.

Xatırladaq ki, Ağdam Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 28 may 2021-ci il tarixli 1347 nömrəli Fərmanı ilə yaradılıb. Parkın yaradılmasında məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişaf etdirilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkil edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasından ibarətdir.

190 hektar ərazidə yaradılmış parkın investisiya dəyəri 153,96 milyon ABŞ dolları təşkil edir. Sənaye zonasında, ümumilikdə, 2 min 400-dən çox iş yerinin yaradılması nəzərdə tutulub. Ötən müddətdə Ağdam Sənaye Parkında ümumi investisiyalarının həcmi 271 milyon manat olan 31 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sahibkarlar tərəfindən indiyədək sənaye parkına 97 milyon manatdan çox investisiya yatırılıb. Bunun da hesabına parkın ərazisində fəaliyyətə başlamış 9 müəssisədə 380-dən artıq daimi iş yeri yaradılıb.

***Səhifəni hazırladı:***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Düşmən dairələr Zəfər yürüşünü dayandırmaq istəyirdi

## *Azərbaycan lideri isə Ermənistanın ərazilərimizdən çıxmasını tələb edirdi*



**Prezident İlham Əliyev 2020-ci il oktyabrın 19-da Rusiyanın TASS informasiya agentliyinə videomüsahibəsində jurnalistin "Siz necə hesab edirsiniz, əldə olunmuş atəşkəsin tamamilə yerinə yetirilməsinə qayıtmaq mümkündür, yoxsa həmin atəşkəs tamamilə pozulub?" – sualına cavabında dövlətimizin başçısı Azərbaycanın öz tərəfdaşları ilə əlaqələr çərçivəsində üzərinə götürdüyü öhdəliklərə daim sadiq qaldığını və ölkəmizin münaqişənin nizamlanmasına dair danışıqlar prosesində hər zaman beynəlxalq hüquqa əsaslandığını bildirib. Eləcə də bütün dövrlərdə münaqişənin dinc yolla həllinə çalışdığını, Moskva danışıqlarından sonra da respublikamızın bu öhdəliklərə əməl etdiyini bir daha diqqətə çatdırıb.**

Dövlət başçısı videomüsahibəsində təəssüflə vurğulayıb ki, aparılan danışıqlara baxmayaraq, Ermənistan atəşkəs rejimini kobud şəkildə pozaraq Gəncə şəhərinə hücum edib: "Gecə vaxtı yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra, – iki hücum olub, – həlak olanlar və yaralananlar hədsiz çox idi. Yəni Ermənistan atəşkəsi nümayişkaranə şəkildə pozdu. Beləliklə, o, vasitəçilərə hörmətsizlik, Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi".

Yeri gəlmişkən, Ermənistan Azərbaycana qarşı ədalətsiz mübarizəyə, əsassız ərazi iddialarına başlayan vaxtdan etibarən daim belə riyakar mövqe tutub. Faktlara nəzər salaq: 1992-ci il mayın 7-də Ermənistanın dövlət başçısı Levon Ter-Petrosyan və Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edən Yaqub Məmmədov İran Prezidenti Əli Əkbər Rəfsəncaninin vasitəçiliyi ilə Tehranda görüş keçirib və atəşkəs razılığı elan olunub. Cəmi bir gün sonra –1992-ci il mayın 8-də erməni ordusu Şuşanı işğal edib. Yaxud 1992-ci il fevralın 21-də Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin Moskva görüşündə atəşkəs razılaşması imzalanıb. Beş gün sonra erməni tərəfi Xocalı soyqırımını törədib.

Başqa bir missal: 2020-ci il oktyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan Xarici İşlər nazirlərinin Moskva görüşündə humanitar atəşkəslə bağlı razılıq əldə olunub. Bundan bir gün sonra – oktyabrın 11-də Ermənistan ordusu Gəncə şəhərinə raket zərbələri endirib. Nəticədə 5-i qadın olmaqla 10 nəfər həlak olub, 16-sı qadın və 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanıb, həmçinin 3 bina tamamilə dağılıb, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan vurulub.

Azərbaycan lideri videomüsahibəsində bildirib ki, Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən beynəlxalq humanitar hüququ, eləcə də oktyabrın 10-da Moskvada qəbul olunmuş humanitar atəşkəsi kobud şəkildə pozmaqla mülki insanları məqsədli şəkildə öldürməsi müharibə cinayəti və insanlıq əleyhinə cinayətdir. İşğalçı ölkənin hərbi-siyasi rəhbərliyi bu cinayətlərə görə tam məsuliyyət daşıyır. Terroru dövlət siyasəti vasitəsinə çevirən Ermənistanın davam edən hərbi təcavüzü və mülki insanlara qarşı qəddar hücumları dərhal dayandırılmalı və beynəlxalq ictimaiyyət işğalçının Azərbaycan xalqına qarşı bu qeyri-insani aktlarına göz yummamalıdır. Milli və beynəlxalq hüquq mexanizmlərindən istifadə etməklə cinayətkarlar ədalət mühakiməsinə cəlb edilməlidir.

Prezident İlham Əliyev videomüsahibəsində Ermənistana silah satan dövlətlərin Azərbaycan şəhər və rayonlarının bombalanması nəticəsində qadınlara, uşaqlara və körpələrə qarşı törədilən cinayətlərə ortaq olmaması üçün silah satışını dərhal dayandırmağın vacibliyini bildirib. Dövlətimizin başçısı daha sonra işğalçının bu vəhşiliyi ilə bağlı Azərbaycanın Rusiya tərəfinə ciddi narahatlığını çatdırdığını da qeyd edib: "Qarşıdurmanın aktiv fazasında Rusiya şəhərlərindən Ermənistan ərazisinə külli miqdarda silah keçirilir. Bizdə bu barədə məlumatlar var, uçuşların xəritələri var, silahların tipləri var... Əlbəttə, bu, bizim cəmiyyətdə çoxlu suallar və müəmmalar doğurur. Bax, vəziyyət belədir. Zəruri hallarda biz bu müddətdə Rusiya tərəfindən Ermənistana göndərilmiş silahların nomenklaturunu, bunların hansı nəqliyyat vasitələri ilə, hansı aviaşirkətlər tərəfindən çatdırılması barədə məlumatları dərc edə bilərik. Bunlar indi əsasən qeyri-qanuni şəkildə çatdırılır. Biz ICAO-ya rəsmən müraciət etmişik".

Xatırladaq ki, Azərbaycan Xarici İşlər Nazirliyi də həmin vaxt ICAO-ya müraciətində müəyyən şirkətlərin nəqliyyat vasitələri ilə humanitar yüklərin Fövqəladə Hallar Nazirliyinin yükləri adı ilə Ermənistana ölümsaçan silahlar daşıdığını bildirib. Yeri gəlmişkən, o vaxt həm Gürcüstan, həm də İran öz hava məkanını hərbi yüklər üçün bağladıqlarına görə, işğalçı bu cür qaçaqmalçılıq metodlarından istifadə edib.

Dövlətimizin başçısı videomüsahibədə Ermənistan – Azərbaycan arasında vəziyyətin hələ də qaynar fazada olmasının ölkəmizin təqsiri üzündən baş vermədiyini vurğulayıb. Eyni zamanda Azərbaycanın nizamlama prinsiplərinə sadiqliyinin dəfələrlə xatırladıldığını və bu prinsiplərin çoxillik danışıqlar prosesində işlənərək hazırlandığını da bildirib.

Ölkə rəhbəri əvvəlki çıxışlarında, habelə müharibə günlərində mətbuat nümayəndələri ilə müsahibələrində Ermənistanın danışıqlar məcrasında özünü konstruktiv aparacağı halda, Azərbaycanın dərhal hərbi əməliyyatları dayandırmağa hazır olduğunu diqqətə çatdırıb: "Lakin Yerevandan eşitdiyimiz bəyanatlar ATƏT-in Minsk qrupu tərəfindən hazırlanmış baza prinsiplərinə tamamilə ziddir. Ermənistan rəhbərliyi lap yaxın vaxtlarda baza prinsiplərini faktiki olaraq təkzib edən çox təhlükəli bəyanatlarla çıxış edib. Prinsip etibarilə, Ermənistanın yeni rəhbərliyinin bütün fəaliyyəti danışıqlar prosesinin pozulmasına yönəlib. Bu prosesi zəiflətməyə yox, məhz pozmağa. Mən onların çoxsaylı bəyanatları, təhrikçi hərəkətləri və Azərbaycanın dinc əhalisinə hücumları barədə danışmışam. Buna görə də əgər erməni tərəfi nəhayət, başa düşsə ki, hərbi təxribatlar yolu onları fəlakətə aparır, biz hərbi əməliyyatları yenidən dayandırmağa və məsələni danışıqlar masası arxasında həll etməyə hazırıq".

Xatırladaq ki, sözügedən videomüsahibə aparılan gün Azərbaycan Silahlı Qüvvələri döyüş meydanında öz üstünlüyünü nümayiş etdirir, işğalçı ordu isə getdikcə fiaskoya uğrayırdı. Dövlətimizin başçısı isə belə bir vaxtda da görüş keçirilməsinin, sülh danışıqlarının gerçəkləşdirilməsinin tərəfində idi. Azərbaycan lideri ordumuzun möhtəşəm uğurlarına baxmayaraq, qan tökülməsinin davam etməsini istəmədiyini, insanların həyatının qorunmasını daha üstün tutduğunu, məsələnin siyasi yolla həll edilməsi təşəbbüsü ilə çıxış etdiyini deyirdi.

Prezident İlham Əliyev müsahibədə ölkəmizin müharibədə terrorçulardan istifadə etməsi ilə bağlı səsləndirilən cəfəng iddiaları da rədd etdi və bu cür narahatlıqların əsassız olduğunu, bununla əlaqədar Vətən müharibəsi başlayandan indiyədək hər hansı bir dövlətin, eləcə də Ermənistanın Azərbaycana heç bir fakt təqdim etmədiyini bildirib. Yeri gəlmişkən, Azərbaycanın Vətən müharibəsində terrorçuya, hər hansı bir ölkənin hərbi dəstək ifadə etməsinə ehtiyacı yox idi. Dövlətimizin başçısı söhbətində vurğuladığı kimi, ordumuz savaşda, döyüş meydanında, eyni zamanda texniki təchizatda üstünlüyə malik idi. Belə bir vəziyyətin mövcudluğunu qəsbkar da yaxşı bilirdi. Əks halda, Silahlı Qüvvələrimiz Ermənistanın işğalındakı ərazilərdə yerləşən əsas hərbi-texniki potensialı praktiki olaraq məhv etməyə gücü çatmazdı.

Onu da qeyd edək ki, savaş dövründə Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasında yer almışdı. Çünki müharibə başlayana kimi Prezident İlham Əliyevin fəaliyyətində ordu quruculuğu hər zaman prioritet istiqamət olmuşdu. Silahlı Qüvvələrə xüsusi diqqətin ayrılması ölkəmizin müharibə şəraitində yaşaması ilə şərtləndirilirdi. Buna görə də hərbi hissələrin tikintisində Azərbaycan standartlarına üstünlük verilir, xidmətin yüksək səviyyədə aparılması üçün bütün sosial imkanlar yaradılırdı. Hərbçilər dövlət tərəfindən yüksək təminatla əhatələnirdi. Əməkhaqları müntəzəm olaraq artırılırdı. Ordumuzun silah-sursat, texnika ilə təchizatı da ən yüksək səviyyədə reallaşırdı.

***Vaqif BAYRAMOV***
***XQ***

# 20 oktyabr: Zəngilan da azadlığına qovuşdu

**Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilib. Həmin günlərin təntənəli şəkildə qeyd edilməsi artıq ənənə halını alıb. Sözügedən sərəncama əsasən, 20 oktyabr Zəngilan Şəhəri Günü kimi müəyyən olunub. Çünki bu təqvim – Vətən müharibəsinin 24-cü günü Azərbaycanın hərb tarixinə Zəngilan şəhərinin və ətraf kəndlərin işğalçıdan təmizləndiyi gün kimi həkk edilib.**

1993-cü il oktyabrın 29-da Ermənistan tərəfindən işğal olunan və 27 il davam edən qəsbkarlıq dövründə Zəngilan tamamilə dağıdılıb, zəngin təbii ehtiyatları talanaraq xarici ölkələrə daşınıb. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il oktyabrın 20-də ordumuzun uğurlu hərbi əməliyyatları nəticəsində şəhər və rayonun 6 kəndi erməni quldur birləşmələrindən təmizlənib. Prezident İlham Əliyev həmin gün müraciətində bu xoş xəbəri xalqa çatdıraraq bildirib: "Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!".




Azərbaycan Ordusunun qəhrəmanlığı nəticəsində Zəngilanın işğaldan azad edilməsi ilə Zəngəzur bölgəsinə nəzarət imkanları bərpa edilib. Ağbənd qəsəbəsi və Vejnəli yüksəkliyinin düşməndən təmizlənməsi isə Azərbaycan – İran dövlət sərhədinin 132 kilometrlik hissəsi nəzarətə götürülüb. Bununla da işğalçıya daşınan hərbi yüklərin qarşısı alınıb. Rayonun qəsbkardan geri alınması isə Qarabağ düyününün açılmasında həlledici amilə çevrilib. Bundan savayı, Bartaz, Sığırt, Şükürataz və daha 5 yüksəkliyin azad edilməsi ilə çox böyük strateji üstünlük əldə edilib.

Vətən müharibəsində Zəngilanın azad edilməsi üçün uğurlu "Üç nöqtə" əməliyyatı həyata keçirilib. Bir gün əvvəl ərazinin havadan kəşfiyyatı aparılıb, düşmən haqqında məlumat, onun yerləşmə yeri, canlı qüvvəsi, texnikası, atəş mövqeləri dəqiqləşdirilərək müvafiq qərarların qəbul olunması üçün komanda məntəqəsində təhlil olunub. Növbəti gün gecə saatlarında kiçik çevik qruplar tərəfindən sızma əməliyyatı icra edilərək düşmənə sarsıdıcı zərbələr endirilib və işğalçı qaçmağa məcbur olub. Pilotsuz uçuş aparatları vasitəsilə düşmən dərinliklərindəki artilleriya qurğuları, yaxınlaşmaqda olan texnika sıradan çıxarılıb.

Vətən müharibəsi yekunlaşandan dərhal sonra Zəngilan rayonunda sürətli yenidənqurma işlərinə başlanılıb. 2022-ci il oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi olub. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən 2021-ci il oktyabrın 26-da isə Zəngəzur dəhlizinin – Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməli qoyulub. Bundan başqa, rayonun Ağalı kəndində "ağıllı kənd" layihəsi həyata keçirilib. 2022-ci il mayın 27-də Prezident İlham Əliyev həmin yaşayış məntəqəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak edib. Ağalı kəndinə əhalinin köçürülməsinə isə 2022-ci il iyulun 19-da başlanılıb.

Zəngilanda indiyədək genişmiqyaslı yenidənqurma işləri görülüb. Ağalı kəndində məktəb və digər sosial obyektlər istifadəyə verilib. Zəngilan şəhərində 2-ci, 3-cü, 4-cü yaşayış komplekslərinin, uşaq bağçasının təməli qoyulub. Zəngilan Konqres Mərkəzi Kompleksinin açılışı olub. Oxçuçayın rayon ərazisindən keçən hissəsində tikilmiş "Cahangirbəyli" Su Elektrik Stansiyası istismara verilib. Heydər Əliyev Fondu tərəfindən Zəngilan şəhər məscidi inşa edilib. Kənd meydanında Dövlət Xidmətləri Mərkəzi yaradılıb.

***XQ***

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası

### 19 oktyabr

• Prezident İlham Əliyev rəsmi "Twitter" səhifəsində Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı və İsaqlı kəndlərinin işğaldan azad olunduğunu bildirib.

• Dövlətimizin başçısı rəsmi "Twitter" səhifəsində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrini və döyüş mövqelərini ağır artilleriyadan atəşə tutması ilə bağlı paylaşım edib.

• Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə verib.

• Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



• Baş Prokurorluğun yaydığı məlumata görə, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində 61 mülki şəxs həlak olub, 282 nəfər xəsarət alıb, 1846 ev, 90 çoxmənzilli yaşayış binası və 341 mülki obyekt yararsız vəziyyətə düşüb.

### 20 oktyabr

• Prezident İlham Əliyev xalqa müraciətində Zəngilan şəhəri və rayonun 6 kəndinin, eləcə də Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının 18 kəndinin işğaldan azad olunduğunu bildirib.

• Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi "Instagram" səhifəsində paylaşım edib.

• Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 "Qrad" YARS qurğusu, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilib.

• Zəngilan şəhərində Azərbaycanın dövlət bayrağı ucaldılıb.

• Gəncə istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

• Müdafiə Nazirliyinin məlumatına əsasən, cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində itirdiyi mövqeləri bərpa etməyə cəhd edən düşmənə qarşı uğurlu əməliyyatlar aparılıb. Xeyli sayda silah-sursat, tank və artilleriya qurğuları ələ keçirilib.

### 21 oktyabr

• Prezident İlham Əliyev rəsmi "Twitter" səhifəsində Zəngilan rayonunun Mincivan qəsəbəsi və 13 kəndinin – Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərinin işğaldan azad edildiyini bildirib.



• Dövlətimizin başçısı rəsmi "Twitter" səhifəsində ordumuzun Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini, Cəbrayılın Balyand, Papı, Tulus, Hacılı, Tinli yaşayış məntəqələrini işğaldan azad etməsi ilə bağlı paylaşım edib.

• Prezident İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibə verib.

• Müdafiə Nazirliyinin məlumatına görə, düşmənin 5-ci, 6-cı, 7-ci dağatıcı alaylarının və 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri canlı qüvvə və döyüş texnikası itirərək geri çəkilməyə məcbur edilib. Bölmələrimiz çoxlu sayda silah-sursatı qənimət götürüb.

• Baş Prokurorluğun məlumatına görə, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 21-i saat 11:00-dək 63 mülki şəxs həlak olub, 292 nəfər xəsarət alıb, 1981 ev, 90 çoxmənzilli yaşayış binası və 386 mülki obyekt yararsız vəziyyətə düşüb.

***Mustafa KAMAL***
***XQ***

# Tibbi diaqnostikanın özü "müalicə"yə möhtacdır

## *Yaxud ölkə səhiyyəsində "qocalmış" cihaz və aparatların kəsərsizliyi*

**İnsan həyatı və sağlamlığı cəmiyyətin ən yüksək dəyəridir. Bu canlı sərvətin qorunması isə təkcə ixtisaslı həkimlərin peşəkarlığı ilə deyil, həm də istifadə etdikləri tibbi avadanlıqların, diaqnostika cihazlarının müasirliyi, etibarlılığı və dəqiqliyi ilə sıx bağlıdır. Günümüzdə də klinik-laborator analizlərdən tutmuş rentgen, ultrasəs, kompüter tomoqrafiyası, maqnit-rezonans tomoqrafiyası (MRT) və elektrokardioqram (EKQ) aparatlarınadək bütün avadanlıqlar səhv ölçmə göstəriciləri ilə istifadə olunduqda nəticələr insan sağlamlığına ciddi zərər yetirir.**

Mülkiyyət formasından asılı olmayaraq, səhiyyə müəssisələrində tətbiq edilən bütün tibbi ölçü cihazlarının nəzərdə tutulan vaxtlarda yoxlamalardan keçirilməsi məhz yuxarıda vurğulanan təhlükənin qarşısını alır. Başqa sözlə, bu prosesin məqsədi texniki normativin yerinə yetirilməsi ilə bərabər, həm də vətəndaş sağlamlığının, tibbi xidmətin etibarlılığının gerçəkləşdirilməsidir.



Son illər Azərbaycanda yeni tikilən və ya əsaslı şəkildə yenidən qurulan xəstəxanalar, diaqnostika mərkəzləri müasir avadanlıqlarla təchiz olunmaqla beynəlxalq standartlara uyğunlaşdırılır, səhiyyə sisteminin maddi-texniki bazası möhkəmləndirilir. Lakin bu avadanlıqların dəqiqliyinin hər zaman ciddi nəzarət altında saxlanılması texniki və hüquqi baxımdan digər bir sistemin – tibbi avadanlıqların, ölçü cihazlarının texniki etibarlılığını və dəqiqliyini müəyyənləşdirən qurumun mövcudluğunu zəruri edir.

Düzdür, bu sahədə ölkəmizdə əsas tənzimləyici qurum olan Azərbaycan Standartlaşdırma İnstitutunun (AzStand) tabeliyində ölçmələrin və kalibrlənmə (standartlara uyğunluğun yoxlanılması) laboratoriyaları fəaliyyət göstərir. Həmin laboratoriyalarda tibbi ölçü cihazlarının metrologiyaya uyğunluğu, texniki göstəricilərin sabitliyi və təhlükəsizliyi müəyyənləşdirilir. Eyni zamanda, "Ölçmələrin vahidliyinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu və müvafiq normativ sənədlər prosesi hüquqi əsaslarla tənzimləyir. Bu sənədlərə əsasən, tibbi cihazların ilkin və dövri yoxlamaları isə dövlət tərəfindən akkreditə olunmuş laboratoriyalarda həyata keçirilir.

Mütəxəssislərin sözlərinə görə, tibbi ölçü cihazlarının istismara verilməzdən əvvəl ilkin yoxlanılması onların texniki göstəricilərinin istehsalçı zavod məlumatlarına uyğun olub-olmadığını aydınlaşdırır. Bu, xüsusilə diaqnostik avadanlıqlar üçün həyati əhəmiyyət daşıyır. Məsələn, laborator analizatorun 1 faiz yanlış nəticəsi belə, xəstənin sağlamlıq durumuna səhv diaqnoz qoyulması ilə nəticələnir.

Dövri yoxlamalar isə cihazların istismar zamanı fiziki aşınma, temperatur dəyişməsi, elektromaqnit təsirlər və s. nəticəsində əldə edilən göstəricilərdə baş verə biləcək sapmaları vaxtında aşkarlamağa imkan verir. Bu, tibbi səhvlərin və xəstəliyin qarşısının alınmasında mühüm mexanizmdir. Hazırda Azərbaycanda bu yoxlamalar əsasən dövlət xəstəxanalarında sistemli şəkildə aparılsa da, özəl klinikalarda sözügedən prosesin icrası bəzi hallarda pərakəndə xarakter daşıyır. Bunun əsas səbəbi texniki xidmət mərkəzlərinin və kalibrləmə laboratoriyalarının regionlarda bərabər səviyyədə yerləşməməsidir.

Xatırladaq ki, tibbi cihazların texniki yoxlanılması sahəsində Avropa İttifaqı (Aİ) ölkələrinin təcrübəsi bu istiqamətdə nümunəvi model sayılır. Belə ki, Aİ dövlətlərində tibbi cihazların istehsalından istismarına qədər bütün mərhələlər ciddi şəkildə tənzimlənir. Bu tənzimləmələrə əsasən, tibbi cihazlar yalnız müvafiq uyğunluq sertifikatı əldə etdikdən sonra satışa və istifadəyə buraxılır. Cihazların istismar dövründə illik və ya ikiillik texniki audit həyata keçirilir. Kalibrləmə və texniki baxışlar yalnız akkreditə olunmuş müstəqil laboratoriyalar tərəfindən aparılır. Hər bir cihazın texniki tarixçəsi elektron bazada saxlanılır və dövlət qurumlarının nəzarətinə açıq olur.

Azərbaycanda Avropa təcrübəsinə uyğun metrologiya və tibbi texnologiya nəzarətinin inteqrasiyası istiqamətində artıq müəyyən addımlar atılır. Məsələn, "AzStand" (Azərbaycan Standartlaşdırma İnstitutu), "AzAk" (Akkreditasiya Mərkəzi) və "AzMet" (Metrologiya İnstitutu) kimi qurumlar vasitəsilə texniki nəzarət sisteminin gücləndirilməsi həyata keçirilir. Lakin bu istiqamətdə vahid rəqəmsal nəzarət platformasının yaradılmasına ciddi ehtiyac duyulur. Belə platforma vasitəsilə hər bir tibbi cihazın qeydiyyat nömrəsi, texniki pasportu, son yoxlama tarixi və nəticəsi, növbəti yoxlama müddəti, cavabdeh texnikin adı və sertifikatı elektron sistemdə qeydiyyata alınması diqqətdə saxlanılır. Bu model təkcə şəffaflığı artırmır, eyni zamanda, səhiyyə sahəsində rəqəmsal etibarlılıq mühitini formalaşdırır.

Metrologiya orqanları, yəni "AzStand" və onun tabeliyində fəaliyyət göstərən regional sınaq laboratoriyaları tibbi cihazların yoxlanmasını beynəlxalq standartlara uyğun şəkildə həyata keçirir. Xüsusilə, EKQ, defibrilyator, rentgen və laborator analiz cihazlarının testləri zamanı cihazın ölçmə dəqiqliyi, sabitliyi, temperatur və rütubətə qarşı dözümlülüyü yoxlanılır.

### Düzgün tibbi diaqnoz

Ekspertlərin qənaətinə görə, yuxarıda vurğulanan layihələrin gerçəkləşməsinə baxmayaraq, bu gün səhiyyə sektorunda texniki təhlükəsizlik mədəniyyətinin tam formalaşmasına, başqa sözlə, tibbi avadanlıqların, ölçü cihazlarının texniki etibarlılığı və dəqiqliyinin mütəmadi nəzarətdə saxlanılmasına ciddi ehtiyac duyulur. Belə ki, bəzən tibb işçiləri cihaz göstəricilərindəki kiçik sapmaları normal iş rejimi kimi qəbul edir və belə fəaliyyət isə ciddi səhvlərə yol açır. Halbuki beynəlxalq təcrübədə 0,5 faiz göstərici sapması belə qəbuledilməzdir. Bu baxımdan, respublikada həm həkim, həm də texniki heyət üçün metrologiya və avadanlıq təhlükəsizliyi üzrə ixtisasartırma kurslarının təşkili mühüm önəm daşıyır.

O da vurğulanmalıdır ki, süni intellekt, robotlaşdırılmış əməliyyat sistemləri, rəqəmsal diaqnostika avadanlıqları kimi texnologiyaların artması da tibbi cihazların yoxlanılmasına yeni yanaşma tələb edir. Çünki bu cihazlar yalnız mexaniki deyil, həm də proqram təminatına əsaslanır. Deməli, bu məsələdə texniki yoxlamalarla yanaşı, proqram təhlükəsizliyinə və alqoritmik etibarlılığa da xüsusi önəm verilir.

Avropa ölkələrində artıq bu məqsədlə "SaMD" adlı standartlar tətbiq olunur. Azərbaycanda bu istiqamətdə milli normativ baza uyğunlaşdırılarsa, gələcəkdə həm texniki, həm də rəqəmsal səhiyyə infrastrukturunun beynəlxalq səviyyədə tanınması gerçəkləşə bilər.

Beləliklə, tibbi ölçü cihazlarının düzgün işləməsi insan həyatının təhlükəsizliyinin ayrılmaz hissəsidir. Hər bir səhv ölçmə, yanlış diaqnoz, yanlış müalicə nəticə etibarilə insan itkisinə səbəb olur. Buna görə də bu sahədə məsuliyyət və nəzarət mexanizmlərinin gücləndirilməsi dövlət siyasətinin əsas prioritetlərindən biri kimi diqqətdə saxlanılmalıdır.

Klinik-laborator analizlərdən tutmuş rentgen, ultrasəs, kompüter tomoqrafiyası (KT), maqnit-rezonans tomoqrafiyası (MRT), elektrokardioqram (EKQ), qan təzyiqi, qlükoza və oksigen səviyyəsi ölçən cihazlaradək bütün tibbi avadanlıqlar insan orqanizminin real vəziyyəti barədə məlumat verir. Bu məlumatlar əsasında həkim diaqnoz qoyur, müalicə planını müəyyənləşdirir, əməliyyata qərar verir. Amma təsəvvür edək ki, laborator analiz cihazı qanda şəkərin səviyyəsini 0,5 vahid artıq göstərir, ya da MRT cihazı texniki kalibrasiyadan keçmədiyi üçün orqanizmdəki bir dəyişiklik yanlış interpretasiya olunur, belə şəraitdə səhv diaqnozun qoyulması insan sağlamlığının itirilməsi, yaxud ölümlə nəticələnir. Bu baxımdan, tibbi cihazların metrologiyası, yəni onların ölçmə dəqiqliyinin yoxlanılması, kalibrasiyası və mütəmadi texniki nəzarəti sağlamlıq sisteminin ən vacib sütunlarından biridir.

Azərbaycanın bu istiqamətdə atdığı addımlar, məsələn, texniki yoxlama laboratoriyalarının yaradılması, beynəlxalq sertifikatlaşdırma sistemlərinə inteqrasiya, rəqəmsal nəzarət mexanizmlərinin qurulması ölkəmizi yaxın illərdə bu sahədə qabaqcıl təcrübəyə malik dövlətlər sırasına çıxara bilər. Bu isə tibb müəssisələrində istifadə olunan bütün cihazların düzgün, sabit və etibarlı işləməsini gerçəkləşdirməklə, vətəndaşların sağlamlığının yüksək səviyyədə qorunması ilə mümkündür.

### Texnoloji məsuliyyət



Müasir tibbi texnologiyalar çoxsaylı ölçü parametrləri ilə işləyir. Buna görə də avadanlıqların kalibrasiyası, sadəcə, mexaniki yoxlama deyil, həm də proqram təminatının testləşdirilməsini, sensorların düzgün işləməsini, siqnal ötürülməsində səhv payın hesablanmasını əhatə edir.

Dünya praktikasında qəbul olunmuş normalara görə, hər bir tibbi cihaz müəyyən intervalda, adətən, ildə bir dəfə dövlət etalonları ilə müqayisə edilərək sertifikatlaşdırılmalıdır. Azərbaycanda da bu proses müvafiq qaydada tənzimlənir və hər il minlərlə cihaz kalibrasiya yoxlamasından keçir.

Təəssüf ki, bir sıra hallarda özəl tibb müəssisələrində və kiçik laboratoriyalarda bu qaydaların bəzən yetərincə icra olunmaması müşahidə edilir. Halbuki cihazın kalibrasiyasına məsuliyyətsiz yanaşmaq nəinki hüquqi məsuliyyət yaradır, həm də insanların sağlamlığına real təhlükə deməkdir.

Bu məsələ ilə bağlı müvafiq qurumların fikirlərini də öyrəndik. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) bildirildi ki, qurumun tabeliyindəki Bakı və ətraf regionlarda yerləşən tibb müəssisələrində (xəstəxana, stasionar müəssisələr, tibb mərkəzləri və s.) aidiyyəti təşkilatların əməkdaşları ilə birgə mütəmadi monitorinqlər aparılır. Tibb müəssisələrində istifadə olunan cihaz və avadanlıqlar (rentgen və diaqnostik cihazlar, kardiomonitor, ultrasəs müayinə cihazı və s.) yoxlanılır, norma və qaydalara uyğunlaşdırılması təmin edilir, uyğun olmayan avadanlıq və cihazların istifadəsi isə qadağan olunur.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyindən isə qeyd edildi ki, müvafiq qanuna əsasən, tibb müəssisələrində tipi təsdiqlənən, üzərində yararlılığına dair yoxlama nişanı və ya yoxlama haqqında şəhadətnamə olan tibbi ölçü cihazlarından istifadəyə icazə verilir. Bu tələblərə əməl etməyən subyektlər – tibb fəaliyyəti ilə məşğul olan dövlət və özəl subyektlər barəsində isə qanunvericilikdə məsuliyyət tədbirləri nəzərdə tutulur.

Ekspertlərin sözlərinə görə, tibdə istifadə olunan diaqnostik cihazların hamısı təhlükəli hesab edilmir. İonlaşdırıcı şüa mənbəyi sayılan cihazların istifadəsinə isə Fövqəladə Hallar Nazirliyi (TƏBİB) tərəfindən nəzarət olunur. TƏBİB-dən verilən məlumata görə, hər bir tibb müəssisəsi cihazları FHN-in müəyyənləşdirdiyi tələblər əsasında istifadə edilir. Bu məsələdə tibb müəssisəsinin məsuliyyəti isə diaqnostik müayinələrin düzgün aparılmasından və yalnız zəruri hallarda təyin olunmasından ibarətdir. TƏBİB-in tibb müəssisələrində Azərbaycanda qəbul olunmuş protokollar, eyni zamanda, beynəlxalq səhiyyə təşkilatlarının tibbi protokolları əsasında müayinələr aparılır.

### Əvvəl şəffaflıq – sonra şəfa

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin mühüm tərkib hissələrindən biri də sağlamlığın qorunması və səhiyyə xidmətlərinin keyfiyyətinin artırılmasıdır. Yeni tibb müəssisələrinin istifadəyə verilməsi, regionlarda diaqnostika mərkəzlərinin fəaliyyətə başlaması, tibbi sığorta sisteminin tətbiqi ilə paralel olaraq avadanlıq parkının yenilənməsi və metrologiyanın gücləndirilməsi dövlət səviyyəsində diqqət mərkəzindədir.

2023–2025-ci illəri əhatə edən "Milli metrologiya infrastrukturunun inkişafı Konsepsiyası"nda tibbi ölçü cihazlarının etibarlılığının təmin olunması prioritet istiqamətlərdən biri kimi müəyyən edilib. Bu, həm də Azərbaycanın beynəlxalq tibbi ticarət sisteminə inteqrasiyasını, cihazların ixrac və idxalında keyfiyyət uyğunluğunu gerçəkləşdirən vacib mexanizmdir.

Azərbaycanın səhiyyə sistemində tətbiq edilən dövlət nəzarəti mexanizmləri bu sahədə şəffaflığı və təhlükəsizliyi reallaşdırır. Müasir laboratoriyalar "ISO 15189 – Tibbi laboratoriyalar: keyfiyyət və kompetentlik üçün tələblər" standartına uyğun akkreditasiyadan keçir. Bu, nəticələrin beynəlxalq etibarlılığını təmin edir, yəni Azərbaycan vətəndaşına verilən analiz nəticəsi Avropanın istənilən klinikasında tanınır.

Bundan başqa, yeni nəsil "ağıllı" tibbi cihazlar, məsələn, sensor əsaslı EKQ və uzaqdan diaqnostika sistemləri artıq özündə avtomatik kalibrasiya və səhv siqnalları barədə bildiriş mexanizmləri daşıyır. Bu isə gələcəkdə metrologiyanın rəqəmsallaşmasına və insan faktorunun minimuma enməsinə şərait yaradır.



### Rəqəmsal metrologiya və süni intellekt

Qlobal trendlər göstərir ki, yaxın illərdə tibbi cihazların yoxlanması və kalibrasiyası prosesi süni intellekt və "IoT" (əşyaların interneti) texnologiyaları vasitəsilə avtomatlaşdırılacaq. Bu, Azərbaycanda da metrologiya sahəsində yeni mərhələ açacaq.

Hazırda bir sıra pilot layihələr çərçivəsində bəzi klinikalarda cihazlardan çıxan məlumatlar real vaxtda mərkəzi verilənlər bazasına ötürülür və analiz edilir. Beləliklə, cihazın göstəricilərində sapmalar qeydə alınarsa, sistem avtomatik xəbərdarlıq göndərir. Bu, həm insan səhvini azaldır, həm də texniki təhlükəsizliyi yüksəldir.

İnsan sağlamlığını qorumaq yalnız həkimlərin peşə borcu deyil, həm də dövlət, cəmiyyət və texnoloji sistemlərin birgə məsuliyyətidir. Tibbi cihazların metrologiyası bu məsuliyyətin texnoloji dayağıdır. Ölçmələrin dəqiqliyi olmadan etibarlı diaqnoz, düzgün müalicə və sağlam həyat mümkün deyil.

***Vaqif BAYRAMOV***
***XQ***

---

***Ekspert rəyi***



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar**
**İctimai Birliyinin sədri**

Tibbi avadanlıqların, ölçü cihazlarının texniki etibarlılığının və dəqiqliyinin qorunması problemi artıq illərdir ki, cəmiyyəti ciddi narahat edir. Çünki bu sahəyə laqeyd, biganə yanaşılması son nəticədə insan sağlamlığına zərər yetirir, bəzi hallarda isə ölümlə nəticələnir.

Milli Məclisin İnsan Hüquqları Komitəsinin iki il bundan əvvəl, 2023-cü il martın 13-də keçirilən iclasında tibb müəssisələrindəki aparatların düzgün işləmədiyi, bunun nəticəsində insanlara səhv diaqnoz qoyulduğu barədə çıxışımda da ətraflı məlumat vermişəm. Həmin vaxtdan ötən müddətdə etiraf edim ki, yaxşılığa doğru elə bir ciddi dəyişiklik nəzərə çarpmayıb. Bütün tibb cihazlarının ildə bir dəfə etalonla müqayisə olunmasına biganə yanaşılıb. Düzdür, Fövqəladə Hallar Nazirliyi bir neçə klinikada rentgen cihazlarının fəaliyyətinə qadağa qoyub. Çünki həmin klinikalardakı rentgen aparatlarında radiasiya təhlükəsi müəyyən olunub.

İldən-ilə istehlakçı siyasətinin gerilədiyi, standart işinin könüllü olduğu şəraitdə klinikalar onlara məxsus cihazları ya etalonlarla tutuşdurmur, ya da saxta sənədlər təqdim edirlər. İstehlakçıların özləri də bildirirlər ki, onlar düzgün yoxlanılmır, belə anormal vəziyyətin davam etməsi isə səhiyyənin səmərəli fəaliyyətinə inamı azaldır.

Ümumiyyətlə, bu sahədə ictimai nəzarət zəifdir. Və təsadüfi deyil ki, Səhiyyə Nazirliyi və TƏBİB-in nəzdində hələ də ictimai şura yaradılmayıb. Ona görə də insanların sağlamlığı təhlükə ilə üz-üzədir. Hansı klinikaya getsək, bizi bahalı aparatlardan keçməyə yönəldirlər, lakin orada cihazların necə işlədiyini heç həkimlərin özləri də bilmir. Guya ki, sahibkarlar onları hansısa yoxlamalardan keçirirlər. Halbuki, ölkədə o qədər etalon yoxdur.

Qeyd edim ki, Azərbaycanda təxminən, 20 minə yaxın rentgen, ultrasəs, kompüter tomoqrafiyası, maqnit-rezonans tomoqrafiyası, elektrokardioqram və s. aparatı var. Bunlar ildə bir dəfə kalibrasiya olunmalıdır. Məqsəd isə bu prosesin texniki normativin yerinə yetirilməsi ilə bərabər, həm də vətəndaşın sağlamlığının, tibbi xidmətin etibarlılığının təmin edilməsidir. Respublikada isə belə bir əməliyyatı gerçəkləşdirmək üçün 5-6 etalon var. Saxta sənədlər əsasında guya yoxlama aparılır. Ümumiyyətlə, ölkədəki tibbi cihazların kalibrasiyası prosesində saxtakarlığa yol verilməsi ciddi narahatlıq doğurur. Bu saxtakarlıq isə son nəticədə bahalı tibbi avadanlıqların, ölçü cihazları vasitəsilə müayinə olunan insanların səhv diaqnozla üz-üzə qalmasına gətirib çıxarır.

Bu barədə Standartlaşdırma İnstitutunun da fikrini öyrənmişəm. "Bu, könüllüdür, kim istəyər keçirər, kim istəyər keçirməz", – deyiblər. Belə bir vəziyyətdə Azərbaycan istehlakçılarının həyatı təhlükə altında qalır. Biz bunun nəticəsini insanların klinikalarda, apteklərdə, xarici ölkələrin xəstəxanalarında növbədə olmasında görürük. Səhv diaqnozlar, qan və digər ekspertizalarda istifadə olunan reaktivlərin nə dərəcədə təzə olub-olmaması məsələsi və s. bunlar hamısı sual altındadır. Çox təəssüflər olsun ki, səhiyyə ilə məşğul olan qeyri-hökumət təşkilatlarında da bununla bağlı heç bir addım atılmır…

*Dünyadan gələn sorağımız*

# Genlərin sirlərini açan soydaşımız

## *Professor Aqşin Tağıyevin ABŞ-da apardığı araşdırmalar dünyada böyük maraq doğurur*

**Qloballaşan dünyada elmin müxtəlif istiqamətləri sırasında genetika dinamik inkişaf tempi və çoxşaxəli tətbiq sahələri ilə xüsusi yer tutur. Canlı orqanizmlərin irsi xüsusiyyətlərini, nəsildən-nəsilə ötürülmə mexanizmlərini və dəyişkənlik qanunauyğunluqlarını öyrənən genetika sahəsi XX əsrin ortalarından etibarən yalnız nəzəri biliklər deyil, həm də praktiki nəticələr verən tətbiqi elm kimi formalaşmağa başladı.**

**Bu sahədə aparılan tədqiqatlar nəticəsində irsi xəstəliklərin diaqnostikası və müalicəsi mümkün oldu, yeni dərmanlar hazırlandı, məhsuldar bitki növləri və heyvan cinsləri yaradıldı. İnsan genetikası üzrə ən böyük layihələrdən biri isə 1990-cı ildə başlanılmış və 2001-cü ildə uğurla başa çatmış beynəlxalq "İnsan genomu layihəsi"dir. İnsan DNT-sindəki bütün genləri müəyyənləşdirmək və onların funksiyalarını öyrənmək məqsədilə həyata keçirilən layihə təkcə biologiya və tibbin deyil, bütövlükdə, insan haqqında elmin inkişafında yeni mərhələ açdı.**

**Həmyerlimiz, molekulyar biologiya üzrə fəlsəfə doktoru, hazırda elmi fəaliyyətini ABŞ-da davam etdirən, "Wake Forest University" Tibb Kollecinin assistent professoru və "cytogenetics" laboratoriyasının direktoru, ABŞ Tibbi Genetiklər Heyətinin diplomatı, 42 elmi məqalənin müəllifi Aqşin Tağıyev bu sahədə mühüm araşdırmalar aparıb. Tədqiqatçı ilə müxtəlif irsi xəstəliklər, genetik pozuntuların səbəbləri və qarşısının alınması yolları barədə maraqlı söhbəti oxuculara təqdim edirik.**



**– Aqşin müəllim, DNT-nin nukleotid ardıcıllığını təyinetmə üsulu ilə Azərbaycanda talassemiyanı törədən mutasiyaları ilk olaraq siz tapmısınız. Bu gün respublikamızda o nəticələrdən beta-talassemiya daşıyıcılarının müəyyən olunmasında istifadə edilir. Bu barədə məlumat verməyinizi istərdik.**

– 1986-cı ildə Moskvada Piroqov adına Tibb İnstitutunu bitirəndən sonra Azərbaycana qayıtdım və elmlər doktoru, talassemiya üzrə tədqiqatçı Rüstəm Rüstəmovla tanış oldum. Həmin dövrdə onun təşəbbüsü ilə Bakıya Moskvadan iki elmi qrup gəlmişdi. Onlardan biri talassemiyanı zülal, digəri isə DNT səviyyəsində araşdırırdı. Hər iki qrupla birgə işlədikdən sonra qərara gəldik ki, tədqiqatları DNT istiqamətində davam etdirək. Çünki bu, o dövrdə birbaşa olaraq ana bətnində diaqnostikanın aparılmasına yol açırdı. 1986-cı ilin dekabrında Moskvaya ezam olundum. Orada üç ay Hematologiya Elmi Mərkəzində, Gen injeneriyası laboratoriyasında nüvəli qan hüceyrələrindən DNT-ni təmizləyib çıxarmağı öyrəndim.

Bakıya qayıtdıqdan sonra Azərbaycanda beta-talassemiyalı xəstələrin DNT-sindən ibarət kolleksiya yaratmaq, bu kolleksiya üzərində populyasiya yönümlü araşdırmalar apararaq respublikamızda mövcud olan beta-talassemiya mutasiyalarını aşkar etmək istiqamətində fəaliyyətə başladım.

Qeyd edim ki, beta-talassemiya genetikada autosomal resessiv xəstəlik adlanır. Yəni həm ana, həm ata daşıyıcı olduqda, onların genlərindəki beta-talassemiya törədən mutasiyalar uşağa ötürülə bilər. Bu ehtimal hər hamiləlik üçün dörddəbirdir, yəni 25 faizdir. Bəzən ailələrdə bir yox, bir neçə uşaq bu xəstəliklə doğulur. Məqsəd isə hamiləliyin 9-11 həftəliyində ana bətnində diaqnostika aparmaqla ailələr üçün elə bir imkan yaratmaq idi ki, əgər istəsələr, hamiləliyi vaxtında dayandıra bilsinlər.

Kolleksiyanı topladıqdan sonra Moskvada aspiranturaya daxil oldum və burada Azərbaycanda beta-talassemiya mutasiyalarını müəyyənləşdirmək, imkan daxilində daha ucuz başa gələcək diaqnostik üsulları hazırlayıb tədqiq etmək üçün fasiləsiz olaraq çalışdım. Sonradan DNT kolleksiya Tahirə Məmmədova ve Yeganə Quliyevanın köməyi ilə daha da böyüdü. 1992-ci ilin yazında "Azərbaycanda beta-talassemiya mutasiyalarının və haplotiplərinin spektri" mövzusunda dissertasiya işimi müdafiə etdim və Azərbaycanda 15 müxtəlif mutasiya aşkarladıq. O dövrdəki hesablamalara görə bu göstərici təxminən 82 faiz təşkil edirdi.

Mutasiyaları müəyyənləşdirmək üçün DNT-nin nukleotid ardıcıllığını beta-qlobin genin də Sanger üsulu ilə təhlil edirdik. Bu, indi də ən dəqiq üsul sayılır. Hətta biz yalnız Azərbaycanda mövcud olan bir mutasiya da tapdıq, ondan əvvəl heç kim bu mutasiyanı müəyyən etməmişdi. Bu, hazırda beta-talassemiya mutasiyalarının beynəlxalq məlumat bazasında Azərbaycanda kəşf olunmuş mutasiya kimi qeyd edilir. Bundan əlavə, bu mutasiyaların hansı xromosom əsaslarda yarandığını da araşdırırdıq və bu sahədə də yeni, mühüm nəticələr əldə etdik. Bu xromosom əsaslara elmi dildə haplotiplər deyilir. Biz 18-ə qədər haplotip təyin etdik. Araşdırmalar nəticəsində aydın oldu ki, bəzi haplotiplər beta-talassemiya mutasiyaları ilə daha çox əlaqəlidir.

Təxminən, 30 ildən çoxdur bu sahədə müəyyən işlər görülsə də, təəssüf ki, bu miqyasda və bu səviyyədə tədqiqatlar aparılmayıb, mutasiyaların təxminən 18–20 faizi hələ də müəyyən edilməyib. Bu isə o deməkdir ki, Azərbaycanda aparılan diaqnostika proseslərində hər beş daşıyıcıdan birinin mutasiyası hələ də təyin olunmur. Bu gün digər mutasiyaların tapılması və öyrənilməsinə, bu istiqamətdə tədqiqatların davam etdirilməsinə ciddi ehtiyac var.

**– Bilirik ki, elmə marağınız ailədən qaynaqlanır. Bəs necə oldu ki, məhz genetikaya maraq göstərdiniz. Hətta 90-cı illərin sonunda ABŞ-a getmək üçün 150-yə yaxın laboratoriyaya müraciət göndərdiniz.**

– Valideynlərim riyaziyyatçi olublar və 1960-cı illərdə kibernetika institutunda çalışıblar. Atam Fərhad Tağıyev Azərbaycanın ilk proqramçılarından və kibernetika mütəxəssislərindən idi.1950-ci illərin sonlarında bu sahədə fəaliyyət göstərməyə başlamışdır. Anam Esmiralda Çələbiyeva Kibernetika İnstitutundan sonra orta məktəbdə riyaziyyadan dərs deyirdi. Bəli, bu sahəyə marağım ailə mühitindən qaynaqlanır. Çünki genetika, yəni DNT özü də bir növ proqramdır.

Kibernetikada kodlaşdırma sıfır və birlərin köməyi ilə aparılırsa, genetikada da bu, 4 "hərf" vasitəsilə həyata keçirilir. Bu "hərflər" kimyəvi maddələrin adları ilə bağlıdır: adenin, guanin, timin və sitozin. Məhz bu 4 elementin ardıcıllığından insanların genomu formalaşır. Hər hüceyrəmizdə 46 xromosom var və bu onlarda, təxminən, 20 minə yaxın zülalı kodlaşdıran gen yerləşir. Bundan əlavə, 20–25 minə qədər RNT kodlaşdıran genlər də mövcuddur. Ümumilikdə, bu "proqram", yəni insan genomu, təxminən, 6,4 milyard hərfdən ibarətdir. Onun 3,2 milyardı anadan, 3,2 milyardı isə atadan ötürülür.

Moskvada dissertasiyamı müdafiə etdikdən sonra əvvəlcə elə orada, Hematologiya Elmi Mərkəzində kiçik elmi işçi, sonra isə böyük elmi işçi vəzifəsində işlədim. Lakin Moskvada qalmaq üçün münasib şərait yox idi. Orada aldığım maaşla nə ev almaq, nə də ailə qurmaq mümkün idi. Buna görə qərara gəldim ki, Amerikaya gedim. 150-yə yaxın laboratoriyaya müraciət göndərmişdim. Onlardan yalnız bir neçəsindən cavab aldım. Amma həmin laboratoriyalar da təəssüflə bildirirdilər ki, məni qəbul etmək imkanları yoxdur.

1998-ci ildə Hematologiya Elmi Mərkəzində işləyən tanışların köməyi ilə vaxtilə Moskvada çalışmış immunoloq, elmlər doktoru Oskar Roklinlə əlaqə saxladım. O, həmin dövrdə ABŞ-ın Ayova Universitetində patalogiya departamentində laboratoriya müdiri idi, eyni zamanda, həmin bölümün rəhbəri professor Maykl Kohen ilə birlikdə işləyirdi. Beləcə, mən Amerikada elmi fəaliyyətə başladım. O zaman artıq istiqamətim dəyişmişdi, tədqiqatlarım əsasən prostat şiş xəstəliyinin öyrənilməsi ilə bağlı idi. Bu araşdırmalar hüceyrə xətləri üzərində aparılırdı. Həmin hüceyrə xətləri vaxtilə prostat şiş xəstəliyinə tutulmuş şəxslərdən alınmış və laboratoriya şəraitində çoxaldılmışdı. Biz onları model sistemlər kimi götürərək "apoptos prosesini" (hüceyrənin proqramlaşdırılmış ölümü) anlamağa çalışırdıq.

Bu məqsədlə hüceyrələrə müəyyən genetik xüsusiyyətlər qazandırıb onlari eksperimentlərdə istifadə edirdik. Bunun üçün gen mühəndisliyi üsullarından yararlanır, molekulyar biologiyada tətbiq olunan DNT konstruksiyaları vasitəsilə hüceyrələrin xüsusiyyətlərini dəyişdirirdik. Bəzən onları maraqlandığımız zülalları daha çox ifraz etməyə yönəldir, bəzən isə xüsusi dəyişdirilmiş, yəni mutasiyaya uğramış zülalları həmin hüceyrələrə daxil edərək onların funksiyalarını öyrənməyə çalışırdıq. Bu, o vaxtlar Amerikada gördüyüm elmi tədqiqatların əsas istiqamətlərindən idi.

**– Moskva Tibb İnstitutunda ali təhsil, sonra Moskva Hematoloji Elmi Mərkəzdə aspirantura, "Azərbaycanda beta-talassemiya mutasiyalarının və haplotiplərinin spektri" mövzusunda namizədlik dissertasiyasının müdafiəsi ABŞ-ın elmi mühitinə düşmək üçün yetərli oldumu?**

– Əslində, dissertasiya işim polpulyasiya səviyyəsində işlənildiyi üçün namizədlikdən çox doktorluq səviyyəsində idi. Hətta oponentlərimdən biri dissertasiya işimin nüsxəsini geri qaytarmadı ki, aspirantı ondan örnək kimi istifadə etsin. Dissertasiyamın bir nüsxəsini də xüsusi olaraq Azərbaycan Hematologiya ve Elmi Tədqiqat İnstitutu üçün çap etdirmişdim. İndi də Azərbaycanda beta-talassemiya mutasiyalarının skrininqi mənim o dövrdə apardığım tədqiqatlara əsaslanır.

1995-ci ildə Moskvada doktoranturaya baş vurdum, amma burada elmi tədqiqat aparmağa imkan olmadığı üçün yarımçıq qoyub Amerikaya gəldim. Deməli, yazdığım namizədlik dissertasiyası Amerikada işləmək üçün kifayət edirdi. Amerika və Avropa elmi tədqiqatlar aparmaq üçün daha münbit məkanlardır. Bu ölkələrdə universitetlərin nəzdində olan laboratoriyalarda elmi tədqiqatlar əsasən dövlət tərəfindən ayrılan qrantlar hesabına aparılır. Təbii ki, mənə Amerikada işləmək, yeni metodlara yiyələnmək, yeni laboratoriya iş prinsipləri şəraitində tədqiqat aparmaq maraqlı idi.

Amerikadaki "post-doc" kimi çalışdığım dövr çox məhsuldar oldu. 8–10 il ərzində yüksək reytinqli elmi jurnallarda təqribən 20 məqaləm çap olundu. Universitet tərəfindən "Green card"a təqdim olunmuşdum. Sonralar elm sahəsində fəaliyyətimi davam etdirmək üçün maliyyə təminatı zərurəti ortaya çıxdı. Buna görə də kliniki sahəyə keçməyə qərar verdim, bunun üçün isə PHD diplomumu təsdiq etdirməli idim. Sənədlərimi uyğunlaşdırıb göndərdim ki, elmi namizədlik səviyyəm doktor səviyyəsinə bərabər hesab edilsin. Onlar da çap işlərimin sayını və elmi fəaliyyətimi nəzərə alaraq məni doktor, işlərimi PhD (Philosophy Doctor in Biology) səviyyəsində təsdiq etdilər.

**– Müsahibələrinizin birində qeyd etmisiniz ki, genetik dəlillərə əsasən, Avropa əhalisi Qafqazdan gedib. Daha çox Azərbaycanla bağlı tədqiqatlar aparan alim kimi bu barədə fikirləriniz maraqlıdır.**

– Əvvəlcə bütün Avropadan Hindistana qədər yayılmış Avropa dil qrupu haqqında danışmaq istəyirəm. Məşhur ingilis alimi, linqivist Colin Renfrew-un Anadolu (Anatolian) fərziyyəsinə (bəzən "Anadolu mənşə nəzəriyyəsi" və ya "Anadolu hipotezi" adlandırılır) əsasən Avropa dil qrupu Qafqazda yaranıb və Qafqazdan yayılıb. İndoavropa dillərinin mənşəyi ilə bağlı olan bu fərziyyəyə görə İndoavropa dilləri 9 min il əvvəl Qafqazda yaranıb və əhalinin sayı çoxaldıqca, əkin sahələrinə ehtiyac artdıqca qərbə, cənuba, cənub-şərqə doğru yayılıb.

Başqa bir fərziyyə də var, buna "pontik düzü" fərziyyəsi və ya "kurqan fərziyyəsi" deyilir. Burada Şimali Qafqazdan, Xəzər dənizindən Şərqi Avropaya qədər uzanan düzdən söhbət gedir. Bu fərziyyəni sistemləşdirilmiş şəkildə 1950-ci ildə Marija Kumbutas irəli sürüb. Son zamanlar bu iki fərziyyənin birləşməsindən ümumi bir fərziyyə meydana çıxdı. Bu da bilavasitə İndoevropa dillərinin Qafqazdan yayılmasını önə çıxarır. Almaniyada Max Planck İnstitutunda "Evolutionary anthropology" qrupu var. 80-ə yaxın linqivist təsdiq edib ki, bu iki teoriya əslində Qafqazda birləşir.

Müasir elmi dildə avropalılara – ağdərili insanlara "caucasian", yəni qafqazlı deyilir. XVIII əsrin sonunda yaranan bu termini yayanlardan biri isə alman tədqiqatçısı Xristofer Meyners olub. O, açıq-aydın deyirdi ki, bütün Avropa əhalisi Qafqazda yaşayan tatarlardan törəyib. O ki, qaldı DNT sahəsinə burada bir neçə məqamı izah etmək lazımdır. Dediyim kimi, bizim genomumuz 6, 4 milyard "hərf"dən ibarətdir. Bu da elə bil ki, 46 xromosoma, yəni 46 kitaba yazılıb. Əgər biz bunun, məsələn, beta-qlobin geni ilə əlaqədar olan "səhifələrini" götürsək və bütün insanlarda müqayisə etsək, müəyyən yerlərdə iki hərf variantının olduğunu görərik.

Bu və ya başqa variantın olması polimorfizm adlanır. Bu səhifələrdə 5 yerdə polimorfizm varsa, deməli, bu səhifələr üçün 32 variant mümkündür. Bu səhifə variantlarına da haplotip deyilir. Mümkün 32 haplotip variantın olmasına baxmayaraq, hər populyasiyada məhdud sayda haplotip olur. Azərbaycan DNT kolleksiyasındakı beta-qlobin haplotiplərini araşdıranda 5 polimorfizmə baxırdıq. Hesablamalara görə, beta-talassemiya mutasiyalarının yayılması üçün minlərlə il lazımdır.

Hər bir talassemiya mutasiyası əgər bu, bir adamda yaranırsa, ilk olaraq populyasiyada yayılmalıdır. Azərbaycanda da dediyim kimi, 15-ə qədər belə mutasiyalar mövcuddur və hər birinin yaşı minilliklərlə ölçülür. Həmin mutasiyalar da müəyyən xromosomal əsaslarda, yəni haplotiplərdə yaranır. Dil yayıldıqca, əkinçilər şərqə və qərbə hərəkət etdikcə təbii ki, dillə bir yerdə, öz xromosomlarını da aparırlar. O xromosomlarla isə haplotipləri və onlarda yaranmış mutasiyaları izləsək, görərik ki, Azərbaycanda ən çox yayılan mutasiyalardan biri yarandığı haplotiplə bir yerdə Türkiyəyə, oradan da İtaliyaya keçir.

Bundan əlavə, başqa genetik dəlillər də var. Misal üçün, Y-xromosom əsasən, kişilərdən ötürülür. Qadınlarda əgər 2 X - xromosom varsa, kişilərdə 1X-1Y xromosom olur. Y-xromosom kişidən-kişiyə ötürüldüyü üçün minilliklər boyu o qədər də dəyişmir. Y-xromosomun da öz haplotipləri var. Elmi jurnallarda bu yöndə olan məqalələri analiz etsək Avropada olan Y-xromosomların böyük hissəsinin Qafqazdan gəldiyini görərik.

Üçüncüsü, "Mitochondrial DNT" ilə - haplotiplərlə bağlıdır. Bizim hüceyrələrimizdə mitoxondriya bir növ enerji törədən bir organelladır, bəzən ona hüceyrənin "elektrik stansiyası" da deyirlər. Mitoxondriyanın da öz DNT-si var və genomla müqayisədə çox qısadır. Genomımızda 6.4 milyard "hərf" olduğu halda "Mitochondrial DNT"də təqribən 16 mindir və qadından yeni nəslə ötürülür. Avropada olan mitoxondriya haplotiplərinə baxsaq onların da müəyyən hissəsinin Qafqazdan gəldiyini görərik.

**– "İnsan genom layihəsi"nə necə qoşuldunuz? Sizi maraqlandıran nə idi? Layihə bitdikdən sonra isə daha cox xərçəng xəstəliyi üzrə araşdırma apardınız. DNA sekvens texnologiyasının daha əlçatan olması araşdırmanıza necə təsir göstərdi?**

– 1990-cı illərin əvvəllərindən Avropada və Amerikada insan genomunu araşdırmaq üçün proyektlər başlandı. Əsas məqsəd haqqında danışdığım 6,4 milyard "hərf"in ardıcıllığını təyin və genlərin xəritəsini tərtib etmək idi. Yəni məqsəd neçə genin olması, bu genlərin harada yerləşməsi, genlərin nukleotid ardıcıllıqları əsasında onların potensial funksiyalarını bilmək idi. 2001-ci ildə birinci oxunuş bitdi. Bu da, təqribən, 2,7 milyard dollara başa gəldi. Hazırda həmin ölkələrdə bir insanın genomunun ardıcıllığını təqribən 1000 dollara təyin elətdirmək mümkündür. Yəni 2001-ci ildən sonra yaranan yeni texniki imkanlar bütün individual insan genomunun nukletid ardıcıllığının təyin etməyi xeyli ucuzlaşdırıb.

Həmin layihəyə qoşulmağıma gəlincə, Sovet İttifaqı dağılandan sonra Moskvada, Hematoloji Elmi Mərkəzdə çalışırdım. Azərbaycanda beta-talassemiya törədən mutasiyaları araşdırdığım üçün DNT nukleotid ardıcıllığını təyin edən "Sanger sekvensinq" (Sanger sequencing) metodundan istifadə edirdik və bizə DNT nukleotid ardıcılıqlarını "oxumaq" üçün müraciət etdilər. O vaxt Rusiyanın özünün də bu tədqiqatı aparmağa imkanı yox idi və Rusiyanın adına bağlı işlər əslində İsveçdə olunurdu. Oradan müəyyən xromosomlara aid olan DNT nümunələrini bizə göndərdilər və onu dostum Vadim Surinlə bir yerdə "oxuyub" geri göndərirdik.

Məqsəd oxunulmuş hissələrdən bütün xromosomun DNT ardıcıllığını yığmaq idi. Bizim bu proyektdə iştirakımız bununla əlaqədar idi. O ki, qaldı DNT sikvens üsullarının əlçatan olması barədə, bizim o vaxtlar istifadə etdiyimiz Sanger sekvens üsulu ancaq 300-350 nukleotid "oxumağa" imkan verirdi. 2001-ci ildə insan genomunun birinci oxunuşu yeni sikvens texnologiyalarının işlənilməsinə gətirib çıxardı. Bu yeni texnologiyalar yeni nəsil nukleotid ardıcıllığını təyinetmə - NGS (Next Generation Sequencing) texnologiyalardır.

Bu texnologiyalarla insan genomunu bir dəfəyə "oxumaq" olur. Amma buna müəyyən hallarda ehtiyac olur. Adətən, genomun mənalı, yəni bilavasitə zülal ardıcıllığına cavabdeh hissələri ekzom ardıcıllıqlarını (exsom sequencing) ya da ancaq xəstəliklərin yaranmasına cavabdeh olan genin və ya genlərin ardıcıllıqlarını oxumaq üçün kifayət edir. Bu, həm ucuz, həm də tez başa gəlir.

Direktoru olduğum molekulyar patalogiya laboratoriyasında biz son iki üsuldan daha çox istifadə edirik. Ən müasir metodlardan biri olmasına baxmayaraq, NGS-in də mənfi cəhətləri var və bütün molekulyar dəyişiklikləri təyin etmək üçün yararlı deyil. İşlədiyim laboratoriya əsasən irsi xəstəliklərin və xərçəng xəstəliklərinin molekulyar diaqnostikası ilə məşğuldur. Bu məqsədlə biz fərqli metodlardan istifadə edirik. Bu metodların bəzisi 70-ci illərin, bəzisi də 90-cı illərin əvvəlindən istifadə edilir və daha ucuz başa gəlir. Amma bu metodları da süni intellektdən istifadə etməklə müasirləşdiririk.

**– Məlumdur ki, xərçəng xəstəliyi bir çox xəstəliyə verilən ümumi addır. Sizin əsas istiqamətiniz hansıdır?**

– Ümumiyyətlə, beta-talassemiya üzrə araşdırmalarımı bitirməyə yaxın xərçəng xəstəlikləri ilə məşğul olmağa başladım. İlk dövrlərdə Hematoloji Elmi Mərkəzdə çalışdığım üçün fəaliyyətim əsasən hematoloji xəstəliklər, o cümlədən xroniki myelolikoz üzərində idi. Amerikaya gəldikdən sonra isə prostat vəzisi xərçəngi ilə bağlı elmi tədqiqat aparmağa başladım. Həmin dövrdə biz tədqiqatları model prostat hüceyrə sıraları (ya xətləri) üzərində aparırdıq. Son illərdə isə digər xərçəng növləri ilə bağlı da elmi məqalələrim nəşr olunub. Hazırda klinik laboratoriyanın direktoru vəzifəsində çalışıram və bizim apardığımız analizlərin böyük hissəsi hematoloji-onkoloji xəstəliklərlə bağlıdır.

Bundan əlavə, kliniki səviyyədə ağciyər və süd vəzi xərçəngi ilə əlaqədar klinik araşdırmalar da aparılır. Əldə olunan nəticələri hesabat şəklində hazırlayıb həkimlərə təqdim edirik. Həkimlər də həmin məlumatlar əsasında xəstələr üçün uyğun terapiya üsulları seçirlər. Hazırda diqqətim məhz bu kliniki araşdırmalar üzərində cəmlənib.

**– Son zamanlar xərçəng hüceyrəsindən çox, onun ətrafında fokuslanan terapiyalar ortaya çıxır və daha təsirli olur. Bununla bağlı nə deyə bilərsiniz?**

– İnsanda xərçəng xəstəliklərinin yaranmasının iki əsas səbəbi var: biri — ata və anadan aldığımız genetik mutasiyalar, yəni irsi qazandığımız, digəri isə sonradan bizim hüceyrələrdə DNT-də baş verən dəyişikliklərdir. Məhz sonuncu mutasiyalar say etibarı ilə xərçəng xəstəliklərinə zəmin yaradır.

Hər bir hüceyrədə 6,4 milyard nukleotid cütü uzunluğunda məlumat var. Hüceyrə bölünərkən bu məlumatlar sanki kitab kimi surəti çıxarılaraq yeni hüceyrələrə ötürülür. Məhz bu ötürülmə prosesində səhvlər baş verir və DNT-də xərçəng törədə biləcək mutasiyalar yaranır. Bu, xüsusilə, düzgün qidalanmayan, idman etməyən, immuniteti zəif, zərərli vərdişləri olan insanlarda daha çox müşahidə olunur. Əgər orqanizm lazımi qidaları qəbul etmir, əvəzində, zərərli maddələrlə yüklənirsə və ya insan zərərli mühitdə çalışırsa, bu zaman DNT-nin oxunması və köçürülməsi prosesində səhvlər yaranır. Nəticədə, həmin dəyişikliklər xərçəng xəstəliklərinin formalaşmasına gətirib çıxara bilər. Yəni xərçəng xəstəliklərinin kökündə məhz DNT-də baş verən dəyişikliklər dayanır.

Xroniki myeloleikoz xəstəliyini törədən 9-cu və 22-ci xromosomlar arasında qarşılıqlı mübadilə -translokasiya 1970-ci illərdən məlumdur. Son zamanlara qədər əsas müalicə üsulları xərçəng hüceyrələrini öldürmək və normal hüceyrələrə müəyyən üstünlük qazandırmaq idi. Bu isə qeyri-spesifik, yəni fokuslanmamış müalicə üsulu idi.

Sonradan biz xroniki myelolikozun səbəbini tam anladıq. Aydın oldu ki, 9-cu və 22-ci xromosomlar arasında translokasiya — 22-ci xromosomda yeni hibrid gen formalaşır. Bu gen "BCR-ABL1" adlanır.

"ABL1" geni hüceyrədə kinaza rolunu oynayır, digər zülalları fosforlaşdırır. Fosforlaşma prosesi isə hüceyrə daxilində siqnal ötürülməsinin əsas mexanizmlərindən biridir. Translokasiya baş verdikdə, "ABL1" geni nəzarətdən çıxır və BCR geni ilə hibrid yarandığı üçün sintezi artır və başqa zülalları kontrolsuz fosforlaşdırmağa başlayır. Bu da hüceyrələrin idarəolunmaz bölünməsinə və xərçəngin yaranmasına gətirib çıxarır.

Bu mexanizmi anladıqdan sonra 2001-ci ildə xüsusi dərmanlar tapıldı. Bu dərmanlar xırda molekulyar protein kinaz inhibitorları adlanır. Onlardan biri də "imatinib"dir. Məsələn, 20–30 il əvvəl bu xəstəlikdən əksər pasiyentlər həyatını itirirdisə, indi həmin xəstələrin 95 faizə qədərini müalicə etmək, ən azı, onların ömrünü xeyli uzatmaq mümkündür. Yəni hüceyrələrdə hansı genetik faktorların xəstəliyə səbəb olduğunu başa düşmək fokuslanmış, hədəf yönümlü terapiyaların yaranmasına imkan verdi. Süd vəzi xərçəngində də "HER2" adlı genin çoxalması (amplfikasiyası ve overekspressiyası) xərçəng hüceyrələrinin artımını sürətləndirir. Həmin geni hədəf alan, onun kinaz aktivliyini bloklayan Herseptin kimi xüsusi dərmanlar hazırlanıb və bu sahədə böyük nəticələr əldə olunub. Beləcə, bu terapiyalar onkoloji müalicənin yeni dövrünü başladıb.

*(davamı 14-cü səhifədə)*

*XQ-nin müzakirəsi*

# Müəllim-şagird-valideyn

## *Təhsil üçbucağında ahəng necə qorunmalıdır?*

**Müasir təhsil sistemində müəllim-valideyn münasibətləri ən aktual məsələlərdəndir. Sözsüz ki, ata-analar övladlarının yaxşı təhsil almasını, savadlı olmasını arzulayır. Lakin cəmiyyətdə belə bir fikir formalaşıb ki, şagirdin dərslərinə yaxşı hazırlaşması, bütün fənləri dərindən öyrənməsi, hətta məktəbdə nizam-intizamı belə ilk növbədə müəllimdən asılıdır. Bəzən valideynlər öz vəzifələrini də müəllimin üzərinə atır, hətta onun işinə müdaxilə də edirlər. Müəllimin tələbkarlığı düzgün qarşılanmır, bəzi hallarda isə ondan şikayət də edirlər. Günün istənilən saatında müəllimə yazılan mesajlar, səbəbsiz zənglər, yaxud qiymətləndirməyə dair tələblər onu incidir.**

dərs prosesinə emosional və əsassız müdaxiləsindən narazıdır. 2024-cü ildə Elm və Təhsil Nazirliyinin keçirdiyi "Məktəbdə kommunikasiya mühiti" monitorinqinin nəticələrinə əsasən, məktəblərdə valideynlərlə ünsiyyətin 47 faiz hallarda "WhatsApp" və sosial şəbəkələr vasitəsilə aparıldığı, bu ünsiyyətin 35 faizində isə etik sərhədlərin pozulduğu müəyyən olunub. Bu göstəricilər təkcə texnoloji deyil, həm də psixoloji problemə işarə edir: valideyn müəllimə istənilən vaxt yazır, fikirlərini sərt və bəzən təhqiredici formada ifadə edir. Bu isə müəllimin iş yükünü və emosional gərginliyini artırır, "peşəvi yanma" (burnout) riskini gücləndirir.



Belə vəziyyətdə müəllim nə etməlidir? Bir yanda övladının uğur qazanmasına çalışan, lakin obyektivliyi unudan valideyn, digər tərəfdə isə tədris prosesinə mane olan, nizam-intizamı pozan "ərköyün" şagird.

Müəllim-valideyn münasibətlərinin pozulması yalnız tərəflər arasında deyil, həm də uşağın psixoloji durumunda ciddi izlər buraxa bilər. Bugünkü reallıq göstərir ki, sağlam təhsil mühiti yalnız məktəbdə deyil, evdə və cəmiyyətdə də formalaşır. Buna görə də müəllim-valideyn münasibətlərində qarşılıqlı hörmət, düzgün ünsiyyət və etik sərhədlər təhsilin keyfiyyətinə birbaşa təsir edir.

Pedaqoqlar bildirirlər ki, müəllimin sinifdə uşağa aşılamaq istədiyi davranış və dəyərlər ailədə dəstəklənmədikdə, tədris prosesi istənilən nəticəni vermir. Müəllim şagirdə məsuliyyətli, diqqətli, nizam-intizamlı olmağı öyrədirsə, lakin evdə onun üzərinə heç bir məsuliyyət qoyulmursa, bu zaman heç bir müsbət nəticə əldə olunmur. Daha çətini isə odur ki, bəzən müəllimin aşıladığı dəyərlərlə ailə mühiti bir-birinə zidd olur: biri öyrədir, digəri isə yalnız tələb edir.

**Şirvan şəhər 3 saylı tam orta məktəbin ibtidai sinif müəllimi Səidə Nəsirova bildirir ki, son illər valideyn-müəllim münasibətlərində müşahidə olunan ən böyük problem etik sərhədlərin pozulmasıdır:**

– Valideynlər gecə-gündüz bilmədən yazır, zəng edirlər. Bəzən saat 11-də, bəzən səhər tezdən "uşağım niyə belə qiymət aldı?", "niyə bu tapşırığı belə etdiniz?" kimi suallar ünvanlayırlar. Mən çalışıram hər kəsə nəzakətlə cavab verim, amma müəllim də insandır, onun da şəxsi həyatı, istirahət vaxtı var.

Bəzən valideynlər uşağın dərsə hazırlıqsız gəlməsini və ya davranış qaydalarını pozmasını qəbul etmək istəmirlər. Aşağı qiymət yazıldıqda isə dərhal müəllimi günahlandırır, "uşağım yaxşı oxuyur, ona yüksək qiymət yazın" deyirlər. Halbuki bu, nə uşağın inkişafına, nə də tədris prosesinə xidmət edir. Ən pisi də odur ki, bəzən dərsə gəlib uşaqların qarşısında kobud danışır, müəllimi tənqid edirlər. Bu, həm müəllimin nüfuzuna, həm də uşaqların psixologiyasına ciddi təsir göstərir.

Müəllimlə valideyn arasında düzgün münasibət formalaşmasa, təhsil prosesi yalnız formal xarakter daşıyar. Biz eyni məqsədə – uşağın savadlı, tərbiyəli və düşünən insan kimi yetişməsinə çalışırıq. Amma bu məqsədə çatmaq üçün qarşılıqlı hörmət və anlayış vacibdir. Müəllim tənqid ediləndə, səlahiyyətinə müdaxilə olunanda ruhdan düşür, uşaq isə müəllimə hörmətlə yanaşmır.

**Bakı şəhəri 252 nömrəli məktəbin riyaziyyat müəllimi Sevinc Cəfərova da belə yanaşmanın gündəlik dərs prosesinə ciddi təsir etdiyini deyir:**

– Son illərdə valideynlərin müəllimlərə münasibətində müşahidə olunan əsas dəyişikliklərdən biri, təhsil prosesinə həddən artıq müdaxilədir. Valideynlər çox zaman yazdığım qiymətlərə qarışmağa, bəziləri açıq şəkildə, bəziləri isə dolayı yollarla təsir etməyə çalışırlar.

Müəllimin işi yalnız dərs keçmək deyil, həm də ədalətli və şəffaf qiymətləndirmə aparmaqdır. Bu, şagirdin öz inkişafını izləməsinə, zəif və güclü tərəflərini görməsinə imkan yaradır. Lakin valideynlər bu prosesi bəzən şəxsi münasibət prizmasından qiymətləndirirlər. Elə olur ki, uşaq evdə deyir "müəllim mənə az qiymət yazdı". Valideyn isə dərhal mesaj yazır, ya da zəng edib izahat istəyir. Amma qiymət sadəcə bir rəqəm deyil, prosesin nəticəsidir. Biz riyaziyyatda yalnız cavabı yox, düşünmə tərzini də qiymətləndiririk.

Valideynlərin bu cür davranışları uşaqlara mənfi təsir göstərir. Çünki uşaq arxayınlaşır ki, həmişə onun arxasında dayanan biri var, bu da məsuliyyət hissini azaldır. Əgər şagird bilsə ki, hər səhvini valideyn onun yerinə müdafiə edəcək, onda o, nə təlimə, nə də intizama ciddi yanaşar. Halbuki biz çalışırıq uşaqlarda müstəqil düşüncə və cavabdehlik formalaşdıraq. Bu, evdə də dəstəklənməlidir.

**Övladı 6-cı sinifdə təhsil alan Leyla Məmmədova hesab edir ki, müəllim-valideyn münasibətlərinin sağlam və balanslı olması, ilk növbədə, valideynin bu məsələyə yanaşmasından asılıdır.**

– Biz uşağımızı düzgün təhsil alması üçün müəllimin yanına göndəririk. O, bu sahənin peşəkarıdır və biz onun işinə müdaxilə etməməliyik. Lazım olan məqamlarda əməkdaşlıq etməli, amma hər xırda məsələyə qarışmamalıyıq. Valideyn və müəllim eyni istiqamətdə, sinxron şəkildə işlədikdə uşağın həm tədrisdə, həm də tərbiyədə daha sabit nəticələr göstərməsi mümkündür. Əgər hər addımda müəllimi tənqid etsək, uşaq da onu nüfuz sahibi kimi görməyəcək. Biz müəllimlə rəqib yox, komanda olmalıyıq.

**Təhsil eksperti Kamran Əsədov bildirir ki, valideynin övladının təhsilinə maraq göstərməsi təhsil prosesinin ayrılmaz hissəsidir, lakin bu maraq pedaqoji sərhədləri keçdiyi zaman, müəllimin peşə azadlığına, uşağın psixoloji rahatlığına və məktəb mühitinin sabitliyinə mənfi təsir göstərir.**

– "Təhsil haqqında" Qanunun 30-cu maddəsində qeyd olunur ki, valideynin və ya digər qanuni nümayəndənin vəzifəsi təhsil alanın məktəbdə uğurlu inkişafına şərait yaratmaq, onun təlim-tərbiyə prosesində müəllimlə əməkdaşlıq etməkdir. Həmin maddənin 30.2.4 bəndinə əsasən, valideyn məktəbin daxili intizam qaydalarına riayət etməli, müəllimlərin səlahiyyətlərinə hörmətlə yanaşmalıdır. Bu normativ baza göstərir ki, valideynin rolu nəzarətçi deyil, tərəfdaş xarakteri daşımalıdır. Elm və Təhsil Nazirliyinin son illərdə bu istiqamətdə həyata keçirdiyi siyasət – valideyn iclaslarının standartlaşdırılması, "Məktəb-valideyn əlaqələri haqqında qaydalar"ın hazırlanması, həmçinin elektron məktəb platformalarının genişləndirilməsi bu münasibətlərin sağlam əsaslara söykənməsi baxımından əhəmiyyətli addımlardır.

Statistika göstərir ki, ölkəmizdəki sorğularda müəllimlərin 63 faizi valideynlərin dərs prosesinə emosional və əsassız müdaxiləsindən narazıdır.

Beynəlxalq təcrübədə valideyn-müəllim münasibətləri üçün konkret etik standartlar mövcuddur. Məsələn, Finlandiyada "Məktəb – ailə tərəfdaşlığı sazişi" adlı mexanizm tətbiq olunur. Bu sənəddə valideynlə müəllim arasında ünsiyyət forması, tezliyi və etik çərçivəsi əvvəlcədən müəyyən edilir. Eyni təcrübə Estoniyada da tətbiq olunur və orada valideynin müəllimlə əlaqə qurması üçün həftəlik "kommunikasiya saatı" təyin olunur. ABŞ-da "Valideyn və müəllimlər arasında ünsiyyət qaydaları" adlı sənədlə sosial şəbəkələrdə şəxsi yazışmalar qadağan edilir, bütün əlaqə məktəbin rəsmi e-platforması üzərindən aparılır. Bu modellərin ortaq məqsədi müəllimi şəxsi həyat və emosional təzyiqdən qorumaq, valideyni isə şəffaf, səmərəli informasiya kanalları ilə təmin etməkdir.

Valideynin pedaqoji prosesə müdaxiləsinin müsbət tərəfi ondan ibarətdir ki, o, uşağın inkişafını müşahidə edir, məktəblə əlaqədə olur. ETN-nin "Valideynlər üçün maarifləndirici proqram" layihəsi bu baxımdan vacib təşəbbüsdür. Çünki burada valideynlərə uşağın psixologiyası, öyrənmə üsulları və müəllimlə etik ünsiyyət barədə təlimlər keçirilir.



Müəllim etik baxımdan valideynin narazılığı və ya emosional davranışı qarşısında müdafiə mövqeyində deyil, peşəkar mövqeyində dayanmalıdır. "Təhsil işçilərinin etik davranış qaydaları"nın 4.3 bəndinə görə, müəllim valideynlə münasibətdə səbir, obyektivlik və şəffaflıq prinsiplərinə əməl etməli, şəxsi münasibətlərin pedaqoji qərarlara təsir etməsinə yol verməməlidir.

Bu münasibətlərin sağlamlaşdırılması üçün məktəb-valideyn-müəllim üçbucağında sistemli mexanizmlər yaradılmalıdır. İlk növbədə, hər tədris ilinin əvvəlində "məktəb kommunikasiya protokolu" hazırlanmalı, bu sənəddə ünsiyyət saatları, qaydalar və məsuliyyət bölgüsü açıq şəkildə qeyd olunmalıdır. Eyni zamanda, məktəblərdə "valideyn əlaqə meneceri" və ya "psixoloq-koordinator" funksiyasını yerinə yetirən və mübahisələrin ilkin mərhələdə həllini təmin edən mexanizm formalaşdırılmalıdır. Bu model Sinqapurda və Cənubi Koreyada uğurla tətbiq olunur və müəllim-valideyn münasibətlərində emosional gərginliyi 60 faiz azaldır.

***Ləman TƏHMƏZ***
***XQ***

*Zöhrə Əliyeva – 65*

# Mədəni dəyərlərə xidmətdə keçən ömür

**Azərbaycan Mətbuat Şurasında mədəniyyət mövzusunda tanınmış jurnalist, Əməkdar mədəniyyət işçisi, "Mədəniyyət" jurnalının baş redaktoru, fəlsəfə dokturu, yaradıcılıq birliklərinin üzvü Zöhrə Əliyevanın 65 illik yubileyi həmkarlarının, elmi-mədəni ictimaiyyət təmsilçilərinin iştirakı ilə təntənəli surətdə qeyd edildi.**




Mərasimi giriş sözü ilə açan Mətbuat Şurasının sədri Rəşad Məcid yubilyarın həyat və yaradıcılığı barədə məlumat verərək bildirdi ki, Zöhrə Əliyeva milli dəyərlərə sevgi və mənəvi zənginlik mühitində böyüyüb, tərbiyələnib. 1983-cü ildə Rus dili və Ədəbiyyatı İnstitutunu uğurla bitirmiş gənc Şamaxı rayonu Qaravəlli kənd orta məktəbində müəllim, eyni zamanda, "Yeni Şirvan – Novıy Şirvan" rayon qəzetində müxbir-tərcüməçi işləyib. Pedaqoji və jurnalistik fəaliyyət sonrakı illərdə də Zöhrə Əliyevanın bioqrafiyasında paralel davam edib.

Uzun illər Azərbaycan Teleradio Verilişləri Komitəsinin ədəbi-dram verilişləri baş redaksiyasında, sonrakı illərdə "Lider" TV-də müxtəlif vəzifələrdə çalışmış həmkarımız populyar incəsənət proqramlarındakı çıxışları ilə mədəniyyət sahəsində yetkin redaktor və teleaparıcı kimi tanınıb. Elmlər namizədi dissertasiyası müdafiə etmiş Zöhrə xanım məzunu olduğu ali məktəbdə dərs deyib. O, Mədəniyyət Nazirliyində mətbuat katibi və informasiya mütəxəssisi kimi səmərəli fəaliyyətini isə son illərdə bu qurumun "Mədəniyyət" jurnalının redaktoru olaraq davam etdirir.




Təcrübəli və nüfuzlu qələm sahibi kimi Zöhrə Əliyeva ölkənin rəhbər media qurumlarında da təmsil olunub. Həmkarımız media və mədəniyyət sahəsində xidmətlərinə görə dövlət təltiflərinə, "Humay", "Həsən bəy Zərdabi", "Qızıl qələm", "Şəms" kimi yaradıcılıq mükafatlarına layiq görülüb.

Rəşad Məcid media sahəsində çoxillik səmərəli fəaliyyətinə görə Zöhrə Əliyevanı səmimi təbrik etdi, ona layiq görüldüyü Mətbuat Şurasının Fəxri yubiley diplomunu təqdim edərək yeni yaradıcılıq uğurları arzuladı.

Mətbuat Şurası İdarə Heyətinin üzvü, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Zöhrə Əliyevanın peşəkar, milli maraqlara sadiq jurnalist olduğunu, rəhbərlik etdiyi "Mədəniyyət" jurnalının jurnalistikamıza və mədəniyyətimizə töhfələr verdiyini bildirdi.

Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin sədri Tahir Aydınoğlu həmkarımızın milli jurnalistikamızı mövzu və sənətkarlıq baxımından zənginləşdirən qələm sahiblərindən olduğunu, ölkənin geniş auditoriya qazanmış qadın jurnalisti kimi tanındığını söylədi, ona yaşlı nəsil yazarların təbriklərini və xoş arzularını çatdırdı.

MŞ İdarə Heyətinin üzvü, BDU jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli yubilyarla AzTV-də birgə fəaliyyətlərindən söz açdı, onun intizamlı, prinsipial, yenilikçi qələm sahibi və mükəmməl aparıcı kimi geniş populyarlq qazandığını qeyd etdi. Zöhrə Əliyevanın ali məktəb müəllimi olmuş Slavyan Universitetinin professoru Flora Naci tələbəsinin gənclik illərindən istedadı, mədəni səviyyəsi ilə seçildiyini yad edərək, qazandığı uğurlara sevindiyini və yetirməsi ilə fəxr etdiyini bildirdi. Şair-publisist Seyran Səxavət Zöhrə xanımın atası filoloq-alim Qulamhüseyn Əliyevin elm, təhsil və mədəniyyətə sevgi ilə xidmət etmək yolunu layiqincə davam etdirdiyini, çalışdığı sahələrdə daim öndə olduğunu söylədi.

Mərasimdə çıxış edən professorlar İlham Rəhimli, Sevinc Zeynalova, Zümrüd Dadaşzadə, Məsmə Qazıyeva, Asif Rüstəmli, Akif Azalp, Qafqaz Müsəlmanlar İdarəsi sədrinin müavini Qəmər Cavadlı, əməkdar jurnalistlər Zemfira Məhərrəmli, Əntiqə Qonaq, şair-naşir Nəzakət Məmmədli, qələm dostları Arzu Babayev, Etibar Cəbrayıloğlu, Afət İslam, Vasif Ayan, Qurban Cəbrayıl və başqaları Zöhrə Əliyevanın yarım əsrə yaxın çoxsahəli fəaliyyəti ilə milli mediamıza, filologiya elminə, ali təhsilə və mədəni quruculuğa sanballı xidmətindən məmnunluqla danışdılar. Onlar həmişə alicənablığı və səmimiyyəti ilə seçilən, dostlarının sevimlisinə çevrilən Zöhrə xanımın keçdiyi zəngin, mənalı və şərəfli ömür yoluna nəzər saldılar, ona möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzuladılar.

Sonda təbriklərə və ömür yoluna, fəaliyyətinə verilən yüksək qiymətə görə razılığını bildirən Zöhrə Əliyeva bundan sonra da milli-mədəni dəyərlərimizin yaşadılmasına və geniş yayılmasına xidmət edəcəyini söylədi.

***T.RÜSTƏMLİ***
***XQ***

# Genlərin sirlərini açan soydaşımız

*(əvvəli 13-cü səhifədə)*

**– "İnsan genom layihəsi"ndən sonra, bəlkə də, ən böyük kəşf CRISPR oldu.**

– Bəli, CRISPR çox vacib elmi nailiyyətlərdən biridir. Bu metodun köməyi ilə nukleotid səviyyəsində olan mutasiyaları dəyişmək mümkündür. Bu metod bütün mutasiyaları düzəltmək üçün yararlı deyil. Buna baxmayaraq, bu metodla son zamanlar transfuziyadan asılı olan beta-talassemiya və oraqvari hüceyrə xəstəliyinin müalicəsi üçün dərmanlar hazırlanıb. CRISP-cas9 mutasiyaları və onların nəticələrini aradan qaldırmaq üçün yeganə üsul deyil.

Ümumiyyətlə, genetik xəstəliklərin müalicəsində müxtəlif metodlardan istifadə edilir. Bu üsulların böyük hissəsi konkret mutasiyaları aradan qaldırmaq üçün nəzərdə tutulur. Məsələn, biz beta-talassemiya haqqında danışanda beta-qlobin genində baş verən çoxsaylı mutasiyaların bu xəstəliyi yarada bildiyini dedik. Sistik fibroz (Cystic fibrosis) xəstəliyinin yaranmasına da CFTR genində baş verən çoxsaylı mutasiyalar səbəb olur, amma onların yalnız birini xüsusi dərman vasitələrilə, mutasiyaya uğramış zülalın normal fəaliyyətini bərpa etməklə mümkündür.

Bundan əlavə, müəyyən xəstəliklərdə abnormal zülalın sintezini azaltmaq üçün anti-sens oligonucleotidlərdən istifadə olunur. Bu üsul Dusen əzələ distrofiyasında, Altzheimer xəstəliklərində istifadə olunur.

Son zamanlar gen mühəndisliyi sahəsində "CAR-T terapiyası" adlanan bir üsul da inkişaf etdirilib. Bu da gen mühəndisliyinə əsaslanan müalicə metodlarındandır. Bu prosesdə insanın öz T-limfositləri bədəndən çıxarılır, onlara xüsusi genetik konstruksiya daxil edilir və dəyişdirilmiş hüceyrələr insanın qanında yaranan xərçəng hüceyrələrinə qarşı yönəldilir. Beləcə, insanın öz immun sistemi vasitəsilə xərçəng hüceyrələri məhv edilir.

**– Hazırda hansı istiqamətdə fəaliyyət göstərirsiniz?**

– Laboratoriyamızda 3 əsas klinik test üsulundan istifadə olunur və ilin sonuna qədər bu sayın artırılması planlaşdırılır. Bu üsullar əsasən kliniki şəraitdə xərçəng xəstəliyindən əziyyət çəkən insanların qan və ya sümük iliyinin nümunələrindən götürülən hüceyrələrin təhlilinə yönəlib. Bu analizlər vasitəsilə biz xromosomlarda baş verən əlavələr, itirilmələr və translokasiya kimi dəyişikliklərin olub-olmadığını müəyyən edirik.

Əldə etdiyimiz nəticələr əsasında hesabatlar hazırlayaraq həkimlərə təqdim edirik və onlar da bu məlumatlara əsasən uyğun terapiya növünü seçirlər. Əvvəl qeyd etdiyim kimi, araşdırmalarda süni intellekt texnologiyalarından da faydalanırıq. Laboratoriyada xromosom analizlərini həyata keçirmək üçün xüsusi cihazlar mövcuddur və bu cihazlar prosesi xeyli sürətləndirir. Bu il artıq bir məqaləmiz dərc olunub, ilin sonuna isə ikinci məqaləmizin də nəşri gözlənilir.

**– Professor, bizimlə uzaqdan-uzağa əlaqə yaratdığınıza, söhbət üçün vaxt ayırdığınıza və genetika sahəsindəki yeniliklər barədə maraqlı fikirlərinizi paylaşdığınıza görə təşəkkür edirik. İnanırıq ki, gələcək tədqiqatlarınız elmin inkişafına və insan sağlamlığının qorunmasına daha böyük töhfələr verəcək.**

***Müsahibəni apardı:***
***Mehparə ƏLİYEVA***
***XQ***

bp, Xəzər dənizinin Azərbaycan sektorunda Qarabağ yatağının işlənməsi üzrə Risk xidmət sazişinin əsasında fəaliyyət göstərən əməliyyat şirkəti kimi elan edir ki, iş proqramı çərçivəsində Qarabağ layihəsi üçün seysmik tədqiqat proqramına aid Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ) sənədinin layihə variantı podratçı tərəflərin adından hazırlanıb və dərc edilib.

Sənəddə proqram üzrə təklif edilmiş fəaliyyətlərin xülasəsi verilir, onunla əlaqədar ətraf mühitə və sosial-iqtisadi sahəyə potensial təsirlər araşdırılır və tövsiyə edilən təsirazaltma və monitorinq tədbirləri təsvir edilir. ƏMTQ prosesi təklif edilmiş işlərin nəticəsində yaranan hər hansı mənfi ekoloji və sosial-iqtisadi təsirlərin müəyyənləşdirilməsini, minimuma endirilməsini və mümkün olan hallarda, aradan qaldırılmasını təmin etmək məqsədi daşıyır.

Qarabağ layihəsi üzrə seysmik tədqiqat proqramına dənizdibi sensor qovşaqlarla (OBN) seysmik tədqiqat və yüksək dəqiqlikli (HR)/ultra yüksək dəqiqlikli (UHR) seysmik tədqiqat daxildir. OBN tədqiqatının 2025-ci ilin dekabrında başlayacağı və 3,5 ayadək davam edəcəyi planlaşdırılır. HR/UHR tədqiqatın isə 2026-cı ilin mart-aprel aylarında həyata keçiriləcəyi və 45 günədək davam edəcəyi nəzərdə tutulur. OBN seysmik tədqiqatın yataq haqqında daha dərin məlumatların əldə olunmasına, quyuların planlaşdırılmasına və yatağın işlənmə strategiyalarının təkmilləşdirilməsinə imkan yaradacağı gözlənilir. HR/UHR seysmik tədqiqatın əsas məqsədi quyu bütövlüyünə təsir göstərə biləcək geoloji riskləri, eləcə də platformanın və digər infrastrukturun təhlükəsiz şəkildə quraşdırılmasına maneə törədə biləcək yeraltı təhlükələri müəyyənləşdirməkdir.

Maraqlı tərəflərlə məsləhətləşmələrin aparılması ƏMTQ prosesinin mühüm hissəsidir. Maraqlı tərəflərin dinlənməsi və fikirlərinin sənədləşdirilməsi, əsas maraqlı tərəflərin birgə fikirlərinin layihələndirmə işlərində və ƏMTQ sənədində əksini tapmasını təmin edir.

ƏMTQ sənədinin və qeyri-texniki xülasənin layihə variantları bütöv olaraq Azərbaycan və ingilis dillərində hazırlanıb və aşağıdakı link və ya QR kodu vasitəsilə bp-nin veb-səhifəsindən əldə edilə bilər:

| | |
|---|---|
| Azərbaycan dilində: https://www.bp.com/az_az/azerbaijan/home/news/hesabatlar/Etraf-muhit-ve-sosial-tesirlerin-qiymetlendirilmesi-hesabatlari/Qarabag-layihesi.html | |
| İngilis dilində: https://www.bp.com/en_az/azerbaijan/home/news/reports/environmental-and-social-documentation/Karabakh-project.html | |

Qarabağ layihəsi üzrə seysmik tədqiqat proqramı üçün ƏMTQ sənədinin, həmçinin qeyri-texniki xülasənin QR kodu və linki 17 oktyabr 2025-ci il tarixindən həmin sənədləri ictimaiyyətin nəzərdən keçirməsi üçün aşağıdakı ünvanlarda yerləşdirilib:

- bp-nin Xəzər Mərkəzi Ofisinin qəbul şöbəsi, Neftçilər prospekti 153
- M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Xaqani küçəsi 29
- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Elmi Kitabxanası, Hüseyn Cavid küçəsi 31
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası, Azadlıq prospekti 20
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bəhram Ağayev küçəsi 100a
- Bakı Ali Neft Məktəbinin Kitabxanası, Kampus, yeni Salyan şossesinin 3-cü kilometri.

ƏMTQ sənədinin layihə variantı barədə fikir və rəyləriniz bizim üçün əhəmiyyətlidir. Qeydlərinizi və rəylərinizi:

- doldurulmuş rəy formaları ilə birlikdə elektron məktubla esiafeedback@bp.com ünvanına və ya
- doldurulmuş rəy formaları ilə birlikdə poçt ilə AZ1010, Neftçilər prospekti 153, Port Baku, bp Xəzər Mərkəzinə göndərə və yaxud
- doldurulmuş rəy formalarını yuxarıda sadalanan ictimai yerlərdən istənilən birinə təqdim edə bilərsiniz.

**ƏMTQ sənədinin açıqlanma müddəti 15 noyabr 2025-ci il tarixinədəkdir.**

ƏMTQ sənədinin layihə variantı barədə fikir və rəylərinizi gözləyirik.

# Yurdun şirin bərəkəti

## *Bakıda keçirilən 25-ci Arıçılıq məhsulları sərgi-satış yarmarkasından reportaj*

**Arıçılıq son illərdə respublikamızda böyük maraq göstərilən sahələrdən biridir. Bunun da özünəməxsus səbəbləri var. Bir tərəfdən dövlətin bu sahənin inkişafına göstərdiyi hərtərəfli qayğı, digər tərəfdən arıçılığın gəlirli sahə olması bu işə marağı daha da artırıb. Odur ki, arıçılıq həm əhalinin məşğulluğuna, həm də yerli istehsalın inkişafına öz töhfəsini verir. Mütəxəssislərin fikrincə, qiymətli ərzaq, həm də dəyərli müalicə vasitəsi olan arıçılıq məhsulları, eyni zamanda, respublikamıza böyük məbləğdə valyuta gətirə bilər.**



Bakıda Kənd Təsərrüfatı Nazirliyi və onun tabeliyində fəaliyyət göstərən "Aqrar Tədarük və Təchizat" ASC-nin birgə təşkilatçılığı, Azərbaycan Arıçılar Assosiasiyasının tərəfdaşlığı ilə keçirilən 25-ci Yubiley Arıçılıq məhsullarının respublika sərgi-satış yarmarkası öz işinə başlayıb.

**"Aqrar Tədarük və Təchizat" ASC-nin İdarə Heyətinin sədri Elgün Məhəmmədəlizadə** media nümayəndələrinə açıqlamasında bildirdi ki, yarmarkada bu il 43 regiondan 280-dən çox arıçı fermer iştirak edir. Satışa çıxarılan bütün məhsullar Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən nümunə götürülərək laboratoriyada analiz olunub. Əvvəlki illərdə ballarda diastaz göstəricisini yoxlayırdıqsa, bu ildən etibarən isə əlavə olaraq sakaroz göstəricisinin də təyininə başlanılıb. Diastaz göstəricisinin minimum 5, sakaroz göstəricisinin isə maksimum 15 faiz həddində olması satış üçün əsas şərtdir. Bu göstəricilərə cavab verməyən ballar yarmarkaya buraxılmır.

Sədr daha sonra qeyd etdi ki, yarmarkada təqdim olunan bütün ballar standartlara tam uyğundur və saxta məhsul yoxdur. Bu göstəricilər balın təmizliyinin və keyfiyyətinin əsas meyarlarındandır. Yoxlamalar nəticəsində yalnız normativlərə cavab verən məhsullar satışa buraxılıb. Bu, həm istehlakçıların sağlamlığı, həm də yarmarkanın etibarlı və keyfiyyət nişanlı satış platforması kimi mövqeyinin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Yarmarkada, ümumilikdə, 100 tondan çox və 15-dən artıq müxtəlif növ təbii bal, arı südü, mum, propolis, gül tozu və digər arıçılıq məhsulları satışa çıxarılıb. Yarmarkada bu il bir sıra yeniliklər də tətbiq edilib. Belə ki, arıçılara yaradılmış şərait tamamilə ödənişsizdir. Məhsulların brendləşdirilməsi və satış imkanlarının genişləndirilməsi məqsədilə qablaşdırma və etiketləmə xidmətləri "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən ödənişsiz şəkildə təmin edilir. Bu dəstək gələcəkdə məhsulların ixrac potensialının artırılmasına da xidmət edəcək.

Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi 5 ünvanında, "Gənclik" metrostansiyasının yaxınlığında noyabrın 9-na kimi fəaliyyət göstərəcək yarmarkada əsl qələbəlikdir. Yüzdən artıq müxtəlif növ balın təravətli qoxusu bir-birinə qarışıb.

...Gəl ay müştəri, təmiz cökə balıdır, min bir dərdin dərmanıdır, bu baldan bir qaşıq dadanın canı heç zaman ağrı-acı görməz. Kimisi isə deyir, satdığı bal yüzlərlə dağ çiçəyindən toplanıb, qiymətsizdir, şəfa mənbəyidir, alan heç zaman uduzmaz… Bunu eşidən nurani bir ağsaqqal ucadan "alan aldanmaz, evdə dannanmaz" deyərək yarmarkaya xoş ovqat qatır.

Alıcılar isə ciblərinə uyğun bal axtarışındadırlar. Balın qiymətdə ucuz, keyfiyyətdə daha yaxşı olması üçün xeyli çək-çevir edirdilər. Odur ki, suya qatıb, pürrəngi çay ilə dadanlara da rast gəlinirdi. Qiymətlər isə müxtəlifdir, 15 manatdan başlayaraq 50 manata qədər dəyişir.

**Qəbələ rayonundan olan Davud Balalıyev** uzun illərdir ki, arıçılıqla məşğuldur. Təsərrüfatında 200 arı ailəsi var. Yarmarkaya 400 kiloqram bal, 30 pətək və 8 çeşiddə bal gətirib. Amma təsərrüfatları bununla bitmir. Qoz, fındıq, şabalıd və alma bağları da ailənin əsas dolanışıq mənbəyidir. Burada yaradılan şəraitdən çox razıdır. Ən əsası yarmarkanın metroya yaxın olduğundan alıcı baxımından əziyyət çəkməyəcəklərinə əmindir. Yenicə başlamış yarmarkada müəyyən qədər satış da etmişdi.



**Davud Balalıyev**

**Ərəstun Məmmədov** isə Kəlbəcər rayonundandır. 45 ildir ki, arıların "nazı" ilə oynayır. Bəslədiyi hər arı ailəsi ona necə deyərlər, qazanc gətirir. Həmsöhbətim arıçılıqla bağlı olduqca geniş məlumata malikdir. Qeyd edir ki, Azərbaycan balı dünyanın iyirmi beşədək ölkəsinə ixrac olunur və bazarlarda yüksək qiymətləndirilir. Balımız öz keyfiyyəti ilə bir çox ölkələrin ballarını üstələyir ki, bunun da əsas səbəbi tərkibinin vitaminlərlə zəngin olmasıdır.

Ərəstun dayının arıçılıq təsərrüfatları Bərdə rayonunda yerləşir. Təsərrüfatında üç növ çiçək, qaratikan və cökə balınınkı istehsal olunur. Məhsulların hamısını yüksəkkeyfiyyətli və təbii üsullarla əldə edir. Çiçək balının qiyməti 40 manat, dağ (şam) balının isə 50 manatdır. Fermer dövlətimizə belə bir yarmarkanın təşkilinə görə minnətdarlıq edir: "Bu, həm istehsalçılar, həm də alıcılar üçün çox faydalıdır".



**Ərəstun Məmmədov**

**Orxan Ağayev** Ağdərənin Canyataq kəndindəndir. Amma arılarını Kəlbəcərdə bəsləyir. İkinci dəfədir ki, yarmarkada iştirak edir. 350 kiloqram bal gətirib. Satacağına da əmindir. Çünki Kəlbəcər balının öz dadı-tamı var. Satış qiymətləri isə 35-40 manat arasında dəyişir. Orxan bir məsələdən narazılığını da dilə gətirərək bildirir ki, bəzi satıcılar Kəlbəcər balı adından sui-istifadə edərək məhsullarını bu adda təqdim edir. Özü də elə qiymət təklif edir ki... Bu sözsüz ki, yarmarkanın təşkilatçılarına aid olmayan bir məsələdir. Bu cür xoşagəlməz hallar xalis Kəlbəcər balı satan bir fermer kimi məhsulumun tez bir zamanda satılmasını əngəlləyir. Kəlbəcərin dağlarında bitən güllərin, çiçəklərin, kəklikotunun, qantəpərin, gülxətminin şirəsindən toplanan balın ətri uzaqdan duyulur.

Müşahidələrimiz göstərdi ki, Kəlbəcər və Laçın rayonlarından gətirilən bal və arıçılıq məhsulları dadına və qiymətinə görə digərlərindən seçilir. Satıcılar bu bölgələrdən gətirilən balın daha keyfiyyətli olduğunu bildirdilər.



**Orxan Ağayev**

Yarmarkaya alıcı kimi gəlmiş **Bakı sakini Xaqani Mehrəliyev** yarmarkanın keçirilməsindən razılığını belə ifadə edir:

– Hər il yarmarkadan müxtəlif çeşiddə on kiloqrama yaxın bal alıram ki, ailəmin bu qidaya olan tələbatını tam ödəyir. Demək olar ki, arıçı fermerlərin daimi müştərisiyəm. Elə region yoxdur ki, balından istifadə etməyim. Bir neçə ildir ki, Kəlbəcər balına üstünlük verirəm. Qiymətləri də münasibdir. Bu yarmarkanın təşkilatçılarına təşəkkürümü bildirirəm.

Saatın əqrəbi nahar fasiləsinə doğru yaxınlaşsa da, yarmarka alıcı ilə dolub-boşalırdı. Satıcılarla müştərilər bəzən qiymətlə bağlı uzun-uzadı söhbətlər etsələr də, yekunda sövdələşərək razılaşır, üstəlik də bir barmaq baldan dadandan sonra, necə deyərlər, dillərini şirin edirdilər...

***Müşfiq MİRZƏ***
***XQ***

# ABŞ Çin mallarına rüsumları azaldacaqmı?

**Vaşinqton Çin mallarına qarşı tətbiq etdiyi rüsumları azalda bilər. Ancaq bunun üçün Pekinin nadir torpaq metalları ilə bağlı mövqeyini dəyişməsi və ABŞ-dan aldığı soya məhsullarının əvvəlki həcmini bərpa etməsi lazımdır.**

TASS agentliyinin məlumatına görə, bu barədə ABŞ Prezidenti Donald Tramp bəyan edib.

ABŞ lideri Floridadan Vaşinqtona qayıdarkən təyyarəsinin göyərtəsində bildirib: "Onlar bizə rüsumlara görə böyük məbləğlər, kifayət qədər böyük vəsaitlər ödəyirlər. Onlar yəqin ki, bu məbləğlərin azaldılmasını istərdilər. Biz də bunun üzərində işləyəcəyik. Amma onlar da bizə nəsə verməlidirlər".

Tramp qeyd edib ki, Koreya Respublikasında gözlənilən ATES sammiti çərçivəsində Çin sədri Si Cinpinlə planlaşdırılan ikitərəfli görüş zamanı bu məsələni müzakirə edəcək.

"İstədiyim şeylərdən biri Çinin soya məhsullarımızı almasıdır. Mən Çinin bizimlə oyunu dayandırmasını istəyirəm. Bu, tamamilə normaldır. Onların bizimlə nadir torpaq metalları oyunları oynamasını istəmirəm. Mən istəyirəm ki, onlar heç olmasa əvvəllər aldıqları miqdarda soya almağa başlasınlar – Tramp izah edib..

Onun sözlərinə görə, ABŞ səlahiyyətliləri dəfələrlə təsdiq ediblər ki, Pekin sintetik opioid fentanilin ABŞ-a qaçaqmalçılığı ilə mübarizə üçün kifayət qədər iş görmür.



Oktyabrın 9-da Çinin Ticarət Nazirliyi nadir torpaq metallarının və əlaqəli texnologiyaların ixracına nəzarətin gücləndirilməsi ilə bağlı iki sənəd dərc edib. Oktyabrın 10-da Tramp ABŞ-ın noyabrın 1-dən və ya daha əvvəldən etibarən Çin məhsullarına əlavə 100 faiz tariflər, eləcə də proqram təminatına ixrac nəzarəti tətbiq edəcəyini açıqlayıb. ABŞ prezidenti həm də Çinə digər malların, ilk növbədə, təyyarə hissələrinin tədarükünə məhdudiyyətlər tətbiq edəcəyi barədə xəbərdarlıq edib.

***P.ƏMİRCANOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 225 (30919) 21 oktyabr 2025-ci il, çərşənbə axşamı

İdman qələbələrimiz

# Milli şahmatımız 6 qat Avropa mükafatçısıdır

**Prezident İlham Əliyev 2017-ci ilin oktyabr-noyabr aylarında Yunanıstanın Krit adasında keçirilmiş şahmat üzrə Avropa çempionatından vətənə qızıl medallarla qayıdan kişilərdən ibarət milli komandamızın üzvlərini qəbul edərkən qrossmeysterlərimizin qələbəsini "Azərbaycan zəkasının təntənəsi" kimi qiymətləndirmişdi. Məhz həmin yarışdan dərhal sonra komanda böyük qürur hissi ilə üçqat Avropa çempionu adını daşımağa başlamışdı.**



Budur, aradan 8 il keçdikdən sonra azərbaycanlı zəka sahibləri qitə birinciliyində bir daha fərqlənmişlər. Düzdür, bu dəfə onlar fəxri kürsünün zirvəsini fəth edə bilməmiş, finişin astanasında, 8-ci turda məğlubiyyətə uğratdıqları Ukrayna komandasını yekun cədvəlində özlərindən irəli buraxaraq ikinci yerlə kifayətlənmişlər. Ancaq Gürcüstandan, "Qafqazın incisi" adlandırılan Batumi şəhərindən Xəzər sahillərinə gətirilən bir dəst gümüş medalın da məşhur ustalarımızın mükafatlar kolleksiyasında xüsusi yeri olacaq. Komanda bu günlər tarixində 6-cı dəfə Avropa çempionatının mükafatçısı kimi təbrikləri qəbul edir.

Azərbaycan yığması 40 komandanın iştirak etdiyi çempionatda bir qədər yenilənmiş heyətdə çıxış etdi. Dünyanın ən hörmətli qrossmeysterlərindən biri Şəhriyar Məmmədyarov, yüksək istedadları şahmat aləmində şəkk-şübhə doğurmayan Rauf Məmmədov, Eltac Səfərli ilə yanaşı, heyətə daha gənc və perspektivli Aydın Süleymanlı və Məhəmməd Muradlı daxil idilər. Komandanın kapitanı rolunda isə zəngin təcrübəli qrossmeyster, üçqat Avropa çempionu Teymur Rəcəbov çıxış edirdi.

Hamısı da medallara aparan yolda əlindən gələni etdi. Şəhriyar ilk səkkiz turda 1-ci taxtada özü kimi ən güclü rəqiblər, Slovakiya, Çexiya, Niderland, Yunanıstan, Ermənistan, Macarıstan, Ukrayna komandalarının liderləri ilə görüşlərdə bir dəfə də məğlub olmayıb (3 qələbə, 5 heç-heçə), yalnız sonuncu, doqquzuncu görüşdə Serbiya şahmatçısına uduzdu.

Qalan taxtalarda Rauf, Eltac, Aydın və Məhəmməd də inamla çıxış edib, birgə səylə komandaya ikinci yeri təmin etdilər. Hətta Səfərli daha uzağa gedib, 7 görüşdə bir dəfə də uduzmadan 3 qələbə, 4 heç-heçə və ya 5 xal və 71, 4 faizli göstərici ilə 3-cü taxtada çıxış edən bütün iştirakçılar arasında hamıdan yüksək nəticə göstərib, çempionatın bağlanış mərasimində qızıl medalla mükafatlandırıldı.

Beləliklə, Azərbaycan milli komandası Avropa çempionatlarında 6-cı dəfə özünə və xalqımıza medal sevinci yaşatdı. 2009-cu ildə Serbiyanın Novi Sad şəhərində, 2013-də Polşanın paytaxtı Varşavada, 2017-də Yunanıstanın Krit adasında qazanılmış qızıllar, 2007 və 2011-ci illərdə yenə Yunanıstanda, müvafiq surətdə Porto-Karras və Heraklion şəhərlərində əldə olunmuş gümüş və bürünc mükafatlar, indi isə Batumidən gətirilmiş daha bir dəst gümüş medal Azərbaycan dövlətinin və xalqının qürur mənbəyi, milli sərvətidir.

Bu medalları qazanan qrossmeysterlərə təşəkkürlər və yenə də təşəkkürlər!

Batumidə Avropa çempionatı başlanmazdan əvvəl 2660 əmsala malik Azərbaycan millisi reytinqə görə Almaniya (2681), Niderland (2675) və Macarıstandan (2666) sonra yarış iştirakçılarının siyahısında dördüncü idi. Çempionatın yekununda isə Məmmədyarov və dostları turnir cədvəlində onların hər üçünü qabaqlamağı bacardılar.

Yadıma düşmüşkən, Azərbaycan komandası 2017-ci ildə Krit adasında 3-cü dəfə Avropa çempionu adını qazanarkən Rauf Məmmədovun 4-cü taxtada göstərdiyi 88,9 faizli nəticəni də bir daha birlikdə xatırlayaq. Doqquz görüşdə 7 qələbə, 2 heç-heçə və 8 xal. Fantastik nəticə idi!

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

## İDMAN

### Meksika Qran-Prisində 6 qızıl, 3 bürünc medal

**Meksikanın Qvadalaxara şəhərində keçirilən Qran-Pri turniri Azərbaycan cüdoçularının parlaq çıxışı ilə yadda qalıb.**



Olimpiya çempionlarımız Hidayət Heydərov (73 kq) və Zelim Kotsoyev (100 kq), Uşanqi Kokauri (+100 kq), Vüsal Qələndərzadə (81 kq), Balabəy Ağayev (60 kq) və Ruslan Paşayev (66 kq) bütün görüşlərdə qələbə qazanaraq Dünya Cüdo Turu Seriyasına daxil olan yarışda çempionluq sevinci yaşayıblar. Rəşid Məmmədəliyev (73 kq), Əhməd Yusifov (60 kq) və Murad Fətiyev (90 kq) isə bürünc medala yiyələniblər.

Ümumilikdə Azərbaycan millisi Qran-Prini 6 qızıl və 3 bürünc medalla başa vuraraq 33 ölkə arasında ümumi komanda hesabında birinci yeri tutub.

### Dünya çempionatına 5 lisenziya

**Azərbaycan karateçiləri Parisdə keçirilən seçim yarışlarında dünya çempionatına lisenziya qazanıblar.**




Mundialda ölkəmizi Roman Heydərov (kata), İrina Zaretska (68 kq – top reytinq / seçimsiz), Mədinə Sadıqova (55 kq), Turqut Həsənov (84 kq) və Asiman Qurbanlı (+84 kq) təmsil edəcəklər.

Yığma Azərbaycan Karate Federasiyasının vitse-prezidenti Rəhman Hətəmov və baş məşqçi Şahin Atamovun rəhbərliyi altında təmsil olunub.

Qeyd edək ki, dünya çempionatı noyabrın 27-dən 30-dək Misirin paytaxtı Qahirədə keçiriləcək.

### "Qarabağ" 1-ci pilləyə yüksəlib

**Ötən bazar günü Misli Premyer Liqasında VIII tura yekun vurulub.**



Bağlanış matçında "Neftçi" və "Araz-Naxçıvan" komandaları qarşılaşıblar. "Palms Sports Arena"da keçirilən oyunda 2:2 hesablı bərabərlik qeydə alınıb.

Ev sahiblərinin heyətində Bassala Sambu (19) və Emin Mahmudov (55) fərqləniblər. Qonaqlardan isə Ba-Muaka Simakala (36, 47) dubl müəllifi olub.

Qeyd edək ki, turun daha əvvəl keçirilən görüşlərində "Kəpəz" "Şamaxı"nı, "Sumqayıt" "Karvan-Yevlax"ı (4:1), "Qarabağ" "Turan Tovuz"u (2:1), "Sabah" isə "Zirə"ni (3:0) məğlub edib. "İmişli" – "Qəbələ" qarşılaşması isə heç-heçə başa çatıb – 2:2.

Beləliklə, 7 oyundan 16 xal toplayan "Qarabağ" 1-ci pilləyə yüksəlib. 8 oyundan 15 xal toplayan "Turan Tovuz" və "Araz-Naxçıvan" 2-ci və 3-cü yerləri bölüşür. 8 oyundan 5 xal qazanan "Qəbələ" və "Karvan-Yevlax" 10-cu, 11-ci yerlərdə qərarlaşıb. Son turda səfərdə "Şamaxı"nı böyük hesabla məğlub edən "Kəpəz" isə sonuncu – 12-ci pillədədir.

***Qabil YUSİFOĞLU***
***XQ***

## 4 qat Dünya çempionu İbrahim Yusubov

**Ötən həftə Misirin İsgəndəriyyə şəhərində çimərlik güləşi üzrə Dünya Seriyasının final mərhələsi keçirilib. Yarışda baş məşqçi Oyan Nəzərianinin rəhbərliyi altında 3 güləşçimiz çıxış edib.**

Ölkəmizi 80 kiloqram çəkidə təmsil edən güləşçilər Sahib Dadaşov misirli Adham Abdelzahera (4:1), Vüsal Əliyev isə gürcüstanlı Diego Maxaradzeyə (3:2) qalib gələrək qrup mərhələsinə vəsiqə qazanıblar.



A qrupunda yer alan Sahib gürcüstanlı Ramaz Zoidze (2:2) və moldovalı Vasile Diakonu (1:1) sonuncu xal prinsipinə əsasən üstələyib, serbiyalı Milyan Rayiçə isə heç bir şans tanımayıb – 3:0.

Dadaşov qrup lideri, Əliyev isə ikinci yerin sahibi kimi yarımfinala yüksəlib. Finalın bir addımlığında təmsilçilərimiz üz-üzə gəlib və Vüsal Sahibi 3:2 hesabıyla məğlub edib.



B qrupunda qərarlaşan Sahib Dadaşov Ramaz Zoidzeyə 4:2 hesabıyla qalib gələrək bürünc medal qazanıb. Vüsal Əliyev isə finalda Vasil Mixaylova 2:3 hesabıyla məğlub olub və yarışı gümüş medalla başa vurub.

A qrupunda İbrahim Yusubov (90 kq) finalda ukraynalı Oleksey Yakovçuka 2:1 hesabıyla qalib gələrək çempion olub.

Dünya Seriyasının final mərhələsi başa çatdıqdan sonra bütün 5 mərhələdə güləşçilərin topladığı xallar hesablanıb və hər çəki üzrə yekun 3-lük müəyyənləşib. Nəticədə bu il çimərlik güləşində debüt edən Vüsal Əliyev öz çəkisində dünya çempionu olub. İbrahim Yusubov isə dördqat dünya çempionu adını rəsmiləşdirib.

***Q.ƏLİYEV***
***XQ***

## Badmintonçumuzun Çexiya bürüncü




**Badmintonçumuz Edi Reski Dviçayo Çex Respublikasının paytaxtı Praqa şəhərində keçirilən "International Challenge" kateqoriyalı "Czech Open" beynəlxalq turnirində bürünc medal qazanıb.**

Mübarizəyə əsas mərhələdən başlayan Edi ilk görüşündə fransalı Valentin Singeri mübarizədən kənarlaşdırıb – 2:0 (21–12, 21–13).

Edi 1/8 finalda Hindistan təmsilçisi Dalal Şaşvatı 2:0 (21–12, 21–19) hesabı ilə məğlub edib. 1/4 finalda hər iki setdə ispan Pablo Abiandan üstün olan badmintonçumuz (21–15, 21–14) yarımfinala yüksəlməklə bürünc medalı təmin edib. Edi Reski Dviçayo finalın bir addımlığında İndoneziya badmintonçusu Məhəmməd Yusufa uduzub 0:2 (14–21, 17–21).

***XQ***

## HAVA

### Bəzi rayonlarda yağış, dolu və sulu qar yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz arabir güclənəcək.**

Havanın temperaturunun gecə 14-16, gündüz 17-20 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 760 millimetr civə sütunundan 765 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq



ərazilərdə sulu qara keçəcəyi ehtimal edilir. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə güclənəcək.

Havanın temperaturunun gecə 9-14, gündüz 17-21, dağlarda gecə 1-5, gündüz 5-9 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Dövlət Universiteti hüquq fakültəsinin kriminalistika və məhkəmə ekspertizası kafedrasının əməkdaşları Kamil Səlimov, Mübariz Mustafayev və Bəxşeyiş Əsgərov hüquq elmləri doktoru, professor Xanlar Ələkbərova bacısı

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

*✓ Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının sosial iş fakültəsinin 2-ci kurs tələbəsi Qocayev Şahrux Mahir oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3049
SİFARİŞ 2164
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00